

**𐰀𐰾𐰃𐰯 𐰀𐱃𐰀 (𐰃𐰤𐰀𐰢 𐰀𐱃𐰀)**

**ASİF ATA (İNAM ATA)**

**ASİF ATA (İnam Ata)**

**ON QUTSAL BİTİQ**
**(Mütləqə İnam ruhaniyyatı, fəlsəfəsi)**

*Üçüncü Bitiq:*

# ANLAM İNSANİLİYİ

**Elm və Təhsil**
**Bakı-2021**

**Atakənd-42**

**Türkün (İlk) Ruhaniyyat Ocağı –**
**Asif Atanın (İnam Atanın)**
**Mütləqə İnam Ocağı**

**İşləyəni, Ön Sözün yazarı: Soylu Atalı**
**Düzəldicisi: Nurtəkin Atalı**
**Bilgisayar işi: Göylü Atalı**

**ASİF ATA**
On Qutsal Bitiq toplusunun Üçüncü Bitiqi – Anlam İnsaniliyi. Atakənd (Bakı), Elm və Təhsil, 2021. 264 səh.

Asif Atanın "Onluğu" Türk xalqından başlayan Yeni Bəşər İnamının özül dəyərlərini, fəlsəfəsini özündə daşıyır. Ona görə də Dünyabaxışın bu Bitiqini təkcə yurdumuzun oxucularına deyil, bütövlükdə İnsanlığa sunuruq.

Üçüncü Bitiq: "Anlam İnsaniliyi" – İnamın üç qutsal əsərini özündə birləşdirir: Təzadlar; Rəmzlər; Mənalar.

4702000000
N-98-2021 qrifli nəşr

**© "Elm və təhsil", 2021**

## Yaşayanların Düşünmək Haqqı

Ürəyində Ata Günəşi olsun, sayğılı oxucu!

İnsan düşünəndə yaşayır deyiblər. Yaşayana isə Ədalət, Həqiqət gərəkdir. Ədalətsiz, Həqiqətsiz yaşayan düşünmür demək. Birgəyaşayışın başlıca şərti ədalətin, həqiqətin münasibətlərdə bərqərar olunmasıdır. Ancaq bəşər övladı bu gün bu tələbdən çox uzaq yaşayır. Bu, əslində insanın özünə yadlaşması, özünə qarşı olması deməkdir. Tarix boyu insan özünə qarşı yaşayıb. Ona görə bu günün insanı insanın özünə bərabər yaşayacağına inanmır. Ya da insanın özünə bərabər yaşamasını elə indiki kimi olmaqda təsəvvür edir. Ən yaxşı halda, bir az sosial dəyişikliklərin ortaya gəlməsi ilə indikindən üstün olacağını düşünür. Bu düşüncə nəyi təsdiq edir görəsən. Ya da genel olaraq nəyisə təsdiq edirmi?! Bu cür inamsızlığın, belə də demək olar, nisbi inamın kökündə nə dayanır?! Bu sorulara cavab tapmaq üçün çox axtarışlar, düşüncələr ortaya gəlib. İnsanın yaşayıb var oluşu üçün tükənməz çabalar göstərilib, insanın şüurunu, düşüncəsini dəyişən ideyalar verilib. Bununla belə, insanın ömrü dəyişməyib, özünə inamı bərpa olunmayıb. Bunun üçün səbəb tapılmayıb. Daha doğrusu, insanı dəyişmək üçün onu üz-üzə qoymağa obyektiv səbəblər axtarıblar. Heç bir obyektiv səbəb insana, onun özünə inamına kömək eləməyib. Onu yönətib (idarə eləyib). Düşünən, dəyişilən, böyüyən insan deyil, vəd verilən, yönəldilən, arxayınlaşdırılan insan yetişdirilib. İnsanın qıraqdan yönətilməsi onun özünə inamını yarada bilməz. Yönətilən insan yarımmexanizm deməkdir. Yarımmexanizmin özünə inamı olmur.

Sayğılı oxucu, sənə sunduğumuz Asif Atanın bu “Anlam İnsaniliyi” Bitiyi yuxarıda vurğuladığımız sorunları çözməyə çalışır. Bunun üçün sorunların, eləcə də sorunları yaradan nədənlərin ən incə qatlarını göstərən addımlar atır. Burada obyekt-subyekt məsələlərinin rolunun, etkisinin doğru bəlirlənməsi çox önəmlidir. Bir var subyektin özündə dəyişiklik, özünün özünə etkisi, bir də var qıraqdakı obyektin ona etkisi, onda apardığı dəyişiklik. Buna fəlsəfədə obyektiv, subyektiv səbəblər deyirlər. Subyekt kimi burada biz insan faktorunu əsas götürürük. Obyektiv səbəblər deyəndə isə ona etki

göstərən istənilən ideya, doktrina, quruluş, şəxs, şəxsin baxışı, fərq etməz.

Beləliklə, Anlam İnsaniliyi bunları bizə necə anladırsa, onların üzərində qısa vurğu edəcəyik.

Öncə onu deyək, bu Bitiq Asif Atanın Qutsal Onluğunun 3-cü bitiyidir. Özündə 3 əsəri birləşdirir: Təzadlar, Rəmzlər, Mənalar. Bu əsərlərin hər üçü deyimlər (aforizmlər) biçimində yazılıbdır. Məna yükünə görə bir-birinə yaxındır. İnsanın varlığına, şüuruna, düşüncəsinə ən çox etki göstərən məsələlərə yönəlik düşüncələr yer alıb. İnsana ruhsal açıdan etki göstərən dinə, ideoloji etki göstərən Marksizmə, Demokratiyaya, Quruluş kimi Kapitalizmə, Sosializmə öz baxışlarını sərgiləmişdir Asif Ata. Eləcə də bəşəriyyətin mənəvi yaşamında etkisi olan şəxsiyyətlərin yaradıcılığına, düşüncələrinə yönəlik baxışlarını, görümlərini yazmışdır. Ola bilər, Asif Atanın baxışları, kimlərəsə, sərt olmalıykən yumşaq, yumşaq olmalıykən sərt görünsün. Əslində Asif Ata heç bir düşüncəsini, baxışını dövrə, zamana hesablamayıb. Onun ölçüsü birdir: "ya hər şey, ya heç nə". Ona görə özül məsələlərdə güzəşt eləmir, üst qatlardakı münasibətlərə isə anlayışla yanaşır, necə deyərlər vurub-qırıb atmır. Bir örnək gətirib bu dediklərimizi aydınlaşdıra da bilərik. Məsələn, dinin insanı hər addımda aldatmasını biranlamlı şəkildə rədd edir. Fərdin öz yaşamında yanlışlara yol verməsini anlayışla qarşılayır. Onun dəyişilməsinin gərəkliyini, böyüməli olduğunu dərk edir. Hər kəs insana acıqlananda Ata qayğı göstərir, ona qarşı müdrik davranmağın önəmini qabardır. Bu dediklərimiz Asif Atanın Mütləqə İnam fəlsəfəsində hər addımda qarşımıza çıxır. Ataya görə fəlsəfə dünyanı, həyatı insana doğru anlatmalıdır. Dünya, həyat haqqında düşüncələri artırıb azaltmaqla insanın nikbinliyinə xeyir vermək mümkün deyil. Dünya nədir, necədir, həyat niyə adiləşir, insana vəd olunanlar onu hara çağırır?! Fəlsəfənin gücü, ruhaniyyatın yetkinliyi bu suallara doğru cavab bəlirləməsindədir. Asif Ata qiymətləndirdiyi, ələşdirdiyi, rədd elədiyi dini-siyasi baxışlara, ideoloji doktrinalara bu nöqtədən yanaşır. Bu nöqtədən baxanda biz insanın çevrəsində oyun həlqəsi yaradıldığını görürük. İnsana Azadlıq haqqı tanımaq yerinə oyunlara çəkmək gedişlərini izləyirik. Bu oyunların içində insana elə rol vermək istəyirlər, ümumi gedişdə nizam yaratsınlar. Ancaq

oyunun nizamı uzun sürmür, toplumsal yaşam hər addımda pozuntularla gerçəkləşir. Bunu biz dinin ruhaniyyat nizamı yaratmaq çabalarında necə ortaya gətirməsini dönə-dönə vurğulamışıq. Tanrı – insan bağlılıqlarında ortaya gətirilən yanlışlar min ildir oyunların fərqli çeşidlərinə dünüşə-dönüşə çağımıza kimi yaşamaqdadır. İnsan toplumu, bir çox qabaqcıl baxışlı düşünərlərin də dediyi kimi, psixoz duruma salınmışdır. O, mənəvi, ruhani yaşamını hipnoz altında yürüdür. Tanrı anlamı insana elə sunulmuşdur, o bu anlam haqqında fərqli heç nə eşitmək, öyrənmək, bilmək istəmir. Halbuki onun özgürlüyü, bağımsızlığı bu anlamın təyinatının doğrulmasından başlayır. Toplum Tanrını metaforik, alleqorik, mifik ifadələrlə dinləməyi arzulayır. Gərək Tanrı haqqında danışanda, ya da onu təsvir edəndə nağıllaşdırasan, əfsanələşdirib mifik obrazlarla təsvir edəsən. Əgər gerçək həqiqətlər açısından, bilim məntiqindən fərqli bir söz demək istəsən, toplum direniş göstərəcək, eşitmək istəməyəcək. Toplumun düşüncəsinə yeridilib ki, Tanrı dünyanın təbii nizamı ilə bağlı qanunlar verib. Özü bu qanunları istədiyi vaxt poza bilir, istədiyi gerçəkliyi oluşdurur (xeyir də, şər də Tanrıdandır baxışı). Tanrı qanunverici orqan kimi qavranılır. O, insana acıqlananda öz qanununu pozub fərqli davranışlar sərgiləyir. Belə bir şüurun oturuşması toplumsal yaşam üçün sağlam ölçünün gəlməsinə əngəl olur. Asif Ataya görə dünyanın gerçək nizamına dəyişiklik gətirmək bu şüuru dağıtmaqdan başlaya bilər. Çünkü burada insana qarşı yerə-göyə sığmayan inamsızlıq hökm sürür. Uşaq yalnız nağıllar aləminə inanır. Onun şüur azadlığı nağıllar aləmində özünü tapır. Çünkü onun şüur imkanları gerçək həqiqətlərə varmaq üçün qapsamlı deyil. İnsana inanmamaq onun şüurunu uşaq düzeyində saxlamağa gətirib çıxarır. Şüur cəfəngləşdiyi üçün düşüncə daim qaranlıqlarda azır. Azadlığın isə özülü həqiqət ölçülərindədir.

Həyatda başlayan bütün oyunlar, yaramazlıqlar yuxarıda vurğuladığımız şüurun hakim etkiyə çevrilməsinə görədir. Siyasət – ruhaniyyatın azdığı nöqtədən başlayır. İnsanı böyütməyən, içsəl (daxili) kamilliyə çatdırmayan ruhaniyyat hər addımda insanı izləyən lokal oyunlara yol açır. Lokal oyunlar qlobal uçurumlar hazırlayır. İnsanın mənəvi, mədəni, sosial, iqtisadi həyatında xaos, anarxiya hökm sürür. Bu cür gedişi dəyişmək istəyən düşüncə adamları yeni ideya,

ölçü vermək çabaları göstərirlər. Ancaq yenə də insandan qıraqda, insana çatmayan ideyalar ortaya gəlir. Sosial dəyişikliklər olur, Quruluş belə dəyişir, insan dəyişmir. Yəni yeni ideyalar Quruluşa yarayır, İnsana yaramır. Bu ideyalardan biri kapitalizmdən sosializmə keçid təşkil edən Marksizm baxışıdır. Asif Ataya görə Marksizm – insanı, özündən öncəki doktrinalardan az aldatmayıb. Bunun izahına biz Bitiyin "Təzadlar" əsərində tez-tez rast gəlirik. Düşüncələrimizi əsaslandırmaq üçün Bitiqdən ayrı-ayrı alıntılara baxış yeitrək:

"*Kapitalizm – Azadlığa qulluq etmir, maddi tərəqqiyə qulluq edir. Azadlıq – kapitalizmdə Məqsəd deyil, vasitədir.*

*Sosializm – Azadlığa qulluq etmir, Hamılaşma doktrinasına qulluq edir. Azadlıq – sosializmdə şüardır".* **Başqa bir deyim:**

*"Kapitalizm – maddi mənafe uğrunda yırtıcı döyüş azadlığını müdafiə edir. Bununla da o, insaniliyə zidd çıxır. Həmin döyüş Qələbə yaratmır, Məğlubiyyət yaradır. Qalib – İnsaniliyi itirir, məğlub – maddi faydanı. Qalib – yırtıcılıq əsarətinə düçar olur.*

*Məğlub – maddi əsarətə.*

*Cəmiyyət hər iki əsarəti qoruyur".*

*"Sosializm – Maddi nemətləri şəxsiyyətin əlindən alır, onu ümumiləşdirir, Hamılaşdırır, Dövlətləşdirir. İnsan bütünlüklə cəmiyyətin ixtiyarına verilir. Fərdin maddi nemətlərə sahib olmaq Azadlığına son qoyulur. Maddi əsarət yaranır.*

*Mütləq Dövlət Hakimiyyəti həm də insan üzərində Mənəvi Ağalığa sahib olur: İnsan alətləşir.*

*Hər iki əsarət cəmiyyət tərəfindən qorunur".*

*"Kapitalist mülkiyyəti əslində Xüsusi Mülkiyyət deyil – zorakı Mülkiyyətdir. Çünkü burada kapitalist əməkçi Mülkiyyətinə zorla sahib olur. Sosialist Mülkiyyəti əslində ümumi Mülkiyyət deyil – zorakı Mülkiyyətdir. Çünkü burada Dövlət əməkçi Mülkiyyətinə zorla sahib olur".*

*"Kommunizm idealsızlığı: 1. İstədiyin qədər ye, bacardığın qədər işlə!" məqsədinin insanlaşmaya dəxli yoxdur. İnsanlaşmadan başqa kənarda insani ideal yoxdur əslində. Bu baxımdan, kommunizm bariz idealsızlıqdır.*

*2. Marks kommunizmi – "insanın özünə qayıtması" adlandırdı. Əslində isə kommunizm, ən yaxşı halda, maddi toxluq, qədərli əməkçilik deməkdir ki, burada insaniliyin heç nişanəsi belə görünmür.*

*İnsanilik – inam, idrak, mənəviyyat, iradə kamilliyi deməkdir ki, o, toxluq və qədərli əməkçiliklə yaranmır".*

Bütün bu deyimləri oxuduqdan sonra sual yarana bilər, nədən Asif Ata bunları sabaha anladır?! Axi indi yurdumuzda, bütövlükdə götürəndə dünyanın başqa yerlərində Marksizm ideologiyası yalnız tarix dərsliklərində qalıb. Yəni belə də düşünmək olar. Ancaq Asif Ata, filosof olaraq, real çağın yaşadığı, yaşatdığı doktrinalara yönəlik düşüncə sərgiləmir. O, bütün zamanlara yönəlik baxış bildirir. Nə qədər İnsanlığın yaşamda ölçüyə çevrilməsi baş tutmayıb, nə qədər hər şey insandan qıraqda olur, oluşdurulur, hər bir köhnəliyin yaşama qaytarılması baş verə bilər. Çünkü bəşəriyyətin mənəvi-ruhani nizamı siyasi-iqtisadi doktrinalarla yoluna qoyulur. Bu isə olduqca uğursuz gedişlərin yaranmasına nədən olur. Asif Ata belə yanlış nəzəriyyələri filosof kimi mühakimə eləsə də, özünün düşüncələrini sərgiləyərkən bir dünyabaxış yaradıcısı kimi davranır. Çünkü dünyanın gedişini aydınlaşdırmaq, ən yaxşı halda, dünyanın mənasını dərk eləmək azdır, gərək dünyanın Mənasına inam yaradasan. Dünyanın Mənasına inam isə insanı dəyişmək tələb edir. Bunun üçün insana yanaşmağın ölçüsü çox önəmlidir. Elə bəri başdan deyə bilərik: Asif Ata insana yanaşmağın ölçüsünü dəyişir.

Son çağlar sosialogiya deyilən cəfəng bir elm yaradıblar. İnsanı sosial varlıq sayıb bu elm araçılığı ilə yönətirlər. Bu elm bütünlüklə siyasətin alt çoxluğu kimi şəkillənib. Birgəyaşayışın sosial yönümünü ölçü kimi götürüb guya nizam yaradır. Bu zaman hər bir davranış, gediş, bağlantı, ailə münasibətləri bu elmin uydurulmuş məntiqi əsasında dəyərləndirilir. Sosialogiyanın məntiqi kapitalizm quruluşunun qəlibi içərisindəki elementlərdən oluşur. Ona görə insana yanaşma keyfiyyətcə zədələnmiş olur. Bu üzdən Asif Ata siyasi-ideoloji doktrinaları antiinsani sürəcin sonucu sayaraq rədd edir. İnsan quruluşların tələbi ilə, yalançı elmlərin, antiinsani quruluşlara qulluq edən nəzəriyyələrin nizamı (əslində inamsızlığı) ilə azadlığa yetməz. Azadlıq adına verilən vədlər, hər bir sosial,

demokratik, liberial paylar antiazadlıq gedişi doğurur. Məsələn, kapitalizmin verdiyi azadlıq insana qənim kəsilir. İnsanın maddi, mənəvi varlığı işğal olunur, istismar olunur. Ancaq, insanın hüququnun qorunması kimi sunulur. İnsanın ölməmək – mövcud olmaq hüququ onun azadlığı kimi dəyərləndirilir. Beləliklə, quruluş insanı yeni sosial-siyasi fatalizm qəlibinə sürüyüb salır.

Din ruhaniyyat yarada bilmədi. İnsanın ilahi başlanğıc olduğunu demir, onu qorxudulmuş, əksidilmiş, günahlandırılmış kimi dəyərləndirib, topluma da bu cür yeridib. Sözdə ən yüksək yaradılış sayılan insan gerçək münasibətlərdə suçlu, cılız, tamahkar bir qul olaraq dəyərləndirildi. Siyasət insana münasibətdə dini davam elədi. Dediyimiz kimi, din ruhaniyyat yarada bilmədiyi üçün nəinki quruluşa qarşı söz dedi, tərsinə, quruluşun tərkib hissəsi kimi özünü apardı. İnsanın quruluşun tələblərində məhv edilməsinə seyrçi qaldı. Asif Ata dini də, quruluşu da adi həyatın qurucusu sayır, onları yüksək (ali) həyata tərs sayır. Axı yüksək həyatı insan oluşdurur öz ömründə. Quruluş da insan ömrünü işğal edirsə, demək, yüksək həyata zidd çıxmış olur. Quruluşun tələblərindən bəhrələnən bir sıra baxışlar, nəzəriyyələr əslində yüksək (ali) həyatı gerçək oluşum kimi deyil, nəzəriyyə kimi görürlər. Çünkü insanı tanımırlar, insana inanmırlar. Ona görə yüksək (ali) həyatın varlığını nəzəri cəhətdən olumlu, gerçəkləşə bilməsi açısından olumsuz sayırlar. Asif Ata bütün bu baxışları rədd edərək İnsana İnam bayrağını başının üzərinə qaldırır. Yüksək həyatı – insanın öz ömründə üzə çıxartdığı, yaratdığı insani keyfiyyətlərlə yaşamının adına deyir. İnsanda inam duyğusu var, heyrət, sevgi duyğuları var. O bu duyğularla Dünyanın Mənasına yetir, insanı tanıyır, dərk edir. Aşiqlik məqamına, idrakilik zirvəsinə yüksəlir, Dünyanın Mənasının dünyadan yüksək olduğunu kəşf edir. Xeyirə doğmalaışır, ədalətə doğmalaşır, həqiqətə doğmalaşır. Şərin, heyvaniliyin doğurduğu balacalığı, cılızlığı, tamahı, hərisliyi, eybəcərliyi ömründən silir. İnsani gözəllikləri davranışlarına, əməllərinə gətirir. Birgəyaşayışın ölçüsü, nizamı dəyişir. Xeyirlə qurulan münasibətlər, Xeyirlə qurulan davranışlar, Xeyirin əməllərdə görsənişə gəlməsi yüksək (ali) həyatın ta kəndisidir. Burada abstraksiya, gerçək əsasları olmayan nəzəriyyə axtarmaq yanlışdır – duyğusuzluq, idraksızlıq çalarlarıdır.

İstəkli oxucu, biz burada Asif Atanın deyimlərlə (aforizmlərlə) anlatmaq istədiyi həqiqətlərin çalarlarına bəlli bir düzeydə aydınlıq gətirməyə çalışdıq. Düşünürük, Bitiyin özündən daha çox şeylər əldə edəcəksən. Biz də sənə güvənib Bitiyi ixtiyarına sunuruq. Oxu, düşün, öyrən. Öyrən, gözümüz yadların, yadlığın əlindən, ətəyindən yığışsın. Öyrən, insanlığın sirli, möcüzəli həqiqətlərini tanıyıb kəşf edəsən, içsəl azadlığa qovuşasan, ulusal kimliyin ləyaqətinə yetəsən. Sən İNSANsan – daşıdığın İnsanlıq mahiyyətinə yetmək üçün Dünyaya gəlmisən. İnanırıq, bizim ərklə, sevgi ilə, doğmalıqla ünvanladığımız bu çağırışı doğru dəyərləndirəcəksən.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atanız Var olsun!

**Soylu Atalı**
***Mütləqə İnam Ocağının Yükümlüsü***

*01 Köçəri Ayı, 42-ci il. Atakənd.*
*(Fevral, 2021. Bakı).*

## *İNSANLAŞMAQ*

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.
Təqiblərə yüksəldim. Ata çağırıldım.

Bəşərin nicatı – İnsanlaşmaqdadır.
İnsanlaşın – İnsanlaşdırın...

*Şölə Ayı, 7-ci il. Bakı.*
*(İyun, 1985-ci il).*

# 𐱅𐰀𐰀𐰔𐰀𐰑𐰞𐰺

# TƏZADLAR

**(Üçüncü  Qutsal Kitab)**

**1. SOSİALİST – HUMANİST**

***Sosialist*** – Cəmiyyətçi – İnsanın Nicatını Cəmiyyətdə görən.
***Humanist*** – İnsançı – Cəmiyyətin Nicatını İnsanda görən.
Birinci – Zahiri görüş – Mahiyyətə enməyən.
İkinci – Daxili görüş – Mahiyyətə enən.
(İnsan – Fərd, Şəxsiyyət, İnsani Mahiyyət).

**2. ÜMUMİ – XÜSUSİ**

Ümumi – heç kəsə məxsus olmayan.
Xüsusi – hər kəsə məxsus olan.

**3. HƏQİQƏT – YALAN**

Həqiqət – həyata sığmayan.
Yalan – həyatın sığındığı.

**4. KAPİTALİZM – KOMMUNİZM**

Kapitalizm – tək-tək Ağalaşma.
Kommunizm – hamılıqla Kölələşmə.

**5. İDEALİZM – MATERİALİZM**

İdealizm – Zəkaya bərabər olmaq.
Materializm – Cismə bərabər olmaq.

**6. MARKSİZM**

Demaqoq Təfəkkür.

**7. MÜLKİYYƏT – MÜLKİYYƏTSİZLİK**

Xüsusi Mülkiyyət İstismar yaratdı.
***Təzadda əlac aradılar.***
Ümumi mülkiyyətdən yapışdılar.
***Əlac isə Təzaddan kənardaydı: – Xüsusi Əməkçi Mülkiyyətində.***

**8. FƏHLƏ – PROLETAR**

Proletar – Mülkiyyətdən Məhrum olan muzdlu Əməkçi deməkdir.

Fəhlə – sosializmdə kapitalist istismarından qurtardı, ancaq proletar məhrumiyyətindən qurtarmadı.

## 9. XÜSUSİ İSTİSMAR – İCTİMAİ İSTİSMAR

İstismar – zəhmətkeş Əməyinin Mənimsənilməsidir.

***Kapitalizmdə*** – xüsusi İstismar mövcud idi: kapitalist fəhlə əməyinin bir hissəsini mənimsəyirdi.

***Sosializmdə*** – İctimai İstismar mövcuddur:

Dövlət Fəhlə Əməyini Mənimsəyir.

***Kommunizmdə*** – Dövlət İstismarı "Özünüidarə" Assosiasiyası (Birliyi) İstismarıyla əvəz olunmalıdır.

***İstismar aradan qalxmır – biçimini dəyişir.***

## 10. PLANLAŞDIRILMIŞ HƏYAT

Planlaşdırılmış həyat – həyatiliyini itirmiş həyatdır.

## 11. BAŞSIZLIQ

Bir xalqın bir Başı olar.
Yüz xalqın bir Başı olmaz.
Bir xalqın bir Başı olar.
Bir xalqın iki Başı olmaz.

## 12. YEKNƏSƏQLİK – YOXLUQ

**1**

Müxtəliflik – Zənginlikdir, Yeknəsəqlik – Yoxsulluq.
Zənginlik azalanda – Yoxsulluq yaranır,
Yoxsulluq artanda – Yoxluq.

**2**

Mahiyyət – Vahiddir, Təzahür – Müxtəlif.
Mahiyyət bir Biçimə sığsa – Mahiyyət olmaz – Təzahür olar.

**3**

***Hamı müxtəlif cür – Var olur, hamı eyni cür – Yox olur.***

**4**

Bəşərin Ruhu Birdir, ancaq o, öz zənginliyiylə Bəşərə sığmır.

**5**

Eyni bitkilərdən ibarət olan Təbiət – Təbiət deyil – Bitkilərdir.
Eyni adamlardan ibarət olan Bəşər – Bəşər deyil – Adamlardır.

## 13. İNSAN – CƏMİYYƏT

İnsan – vaxtında ictimai naqisliyi görmür, onu aradan qaldırmağa səy göstərmir.

İctimai naqislik – cəmiyyəti bürüyür və cəmiyyəti naqislikdən qurtarmaq üçün – onu uçururlar.

## 14. ZAMAN LƏYAQƏTİ

Bulanıq Məhəbbət.
Bulanıq Həqiqət.
Bulanıq Ədalət.
Bulanıq Sədaqət.
Bulanıq Şöhrət.
Bulanıq Qeyrət.
Bulanıq Hüzn.
Bulanıq Fərəh.

## 15. ZƏMANƏ ADAMI

İnsanlıqdan keçən.
Maddi Ehtiyacı olan – mənəvi Ehtiyacı olmayan.

## 16. ÖLÜLƏR – DİRİLƏR

Naqis adamı – canlı adam sayırlar.
Kamil adamı – ölü sayırlar.
Ölülər canlıları öldürürlər.

## 17. AĞILSIZ HƏYAT

Ali Məna özünü həyatda İnkar vasitəsilə Təsdiq edir.
***Həyat ağılsızdır.***
Yaratdığını öldürmək – ağılsızlıqdır.

Ya yaratma, ya da öldürmə.
Birinin ömrünü başqasına vermək – ağılsızlıqdır.
Ya vermə, ya da verdiyini geri götürmə.
Hamını yaşatmaq üçün – hamını öldürmək – ağılsızlıqdır.
Hamını yaşada bilmirsən – heç kəsi yaşatma.
***Həyat nə elədiyini bilmir.***

Həyatı sevən – ağılsızlıqla barışır. O, verilən naminə alınanla barışır. Var olmaq naminə Yox olmaqla barışır.

***Həyatı doğruldan yalnız Amaldır.***
Amalsız yaşamağa dəyməz.
Həyatla kifayətlənmək – əslində yaşamamaqdır.
***Həyata bel bağlamaq – ağılsızlıqdır. Ağılsıza bel bağlamazlar.***

## 18. NƏSİLLƏR KEÇİDİ

Nəsillər bir-birini əvəz etmir, bir-birinin ölümünü əvəz edir.

## 19. FACİƏVİ MƏNTİQ

Hamı ölürsə – heç kəs yaşamır.
Çünki Yaşamaq – Ölümə ziddir.

## 20. ŞƏHVƏT – HƏYAT

Şəhvət həyatın prototipidir. Çağırır, cəlb edir, cəzb edir və... Boşluq yaradır.

## 21. HƏYAT YALANI

Həyat Yalanda yaşayır – Həqiqətdə ölür.

## 22. HƏYAT – MƏHƏBBƏT

### I

Həyat – Məhəbbəti şəhvətləşdirir, yaxud nəsil artımına tabe edir.
Hər ikisində sevgi heyvaniləşir.

***Ancaq sonralar Atalıq – Analıq – Övladlıq ülviyyətində Amal Həyatı üstələyir – İnsan heyvana qalib gəlir.***

**II**

Həyat hər addımda İnsanla Heyvanı qarşılaşdırır və çox vaxt heyvanın tərəfində olur.

**III**

Məhəbbəti həyatdan qorumaq lazım gəlir...

**IV**

Don-Juanlıq – əslində heyvanilikdir, ona görə də ***həyatidir***, cəlbedicidir, cəzbedicidir, ağız suyu axıdandır.

**V**

Məcnunluq – insanilikdir, ona görə də Əlçatmazdır, Ülvidir, Müqəddəsdir, ***Həyatdan uzaqdır***, heyrətamizdir.

**VI**

Nadürüstlüyü həyat qəbul eləyir – Dürüstlüyü qəbul eləmir.

**VII**

Həyatdan uzaqlaşmaq çox vaxt heyvandan uzaqlaşmaq olur.

**VIII**

Şəhvət pəhləvanları həyatda qalib görünürlər, həsəd oyadırlar, çünki həyat əslində ən çox mütrüblük meydanıdır.

**IX**

Həyat Vaqiflərin tərəfindədir, Füzulilərin tərəfində deyil.

**X**

Sümsük kişilər ikrah yaratmır, çünki sümsüklük – həyatidir, heyvanidir.

**XI**

İnsanilik – əslində qeyri-həyatilik deməkdir.

Həyatilik əslində qeyri-insanilik deməkdir.

**XII**

Mütləq qeyri-həyatilik Həyatda olmur, bu səbəbdən də Mütləq İnsanilik Həyatda olmur – ***Amalda olur.***

**XIII**

Aşiqlər həyatla qarşılaşır, barışmır – Amallaşırlar.

**XIV**

Həyat adamı deyil – deməli, İnsandır.
Həyat adamıdır – deməli, İnsan deyil...

## 23. HƏQİQƏT – TƏCRÜBƏ

Təcrübə – Həqiqəti təsdiq etmir, Faydanı Təsdiq edir.

Fayda Həqiqətə bərabər deyil. Bu səbəbdən Təcrübə Həqiqətin Meyarı ola bilməz.

O, Faydanın Meyarıdır.

***Faydalı – qeyri-həqiqi də ola bilər.***

## 24. HƏYAT – DÜŞMƏN

Düşmən – İnsana zərbə endirir.
Onu əlsiz-ayaqsız eləyir.
Öldürməyə çalışır.
***Düşmənin bacarmadığını həyat bacarır.***

## 25. HƏYAT YOXLUĞU

Var olmaq – əslində Sabit olmaqdır.
Həyatda Sabit heç nə yoxdur.
Burada əvvəli olan Sona çatır.
Təzə köhnəlir.
Var olan – yox olur.
Həyatdakılar yalnız Yoxluqda sabit olurlar.
***Həyat – əslində Yoxluqdur.***

## 26. AMAL VARLIĞI

Amalda Sabit olmayan heç nə yoxdur.
Burada əvvəli olan sona çatmır.
Təzə köhnəlmir.
Var olan Yox olmur.
***Əslində Yalnız Amal – varlıqdır.***

## 27. HƏYAT – AMAL

Sən kimsən?

Ana qucağında dünyaya göz açan körpə uşaqmı, çaylar kimi çağlayan coşğun bir gəncmi, beli bükülmüş zavallı qocamı, yoxsa məzara gömülmüş meyidmi?

***Həyatda – İnsan Qeyri-Müəyyəndir – çünki Dəyişkəndir, Yoxluğa Enəndir.***

Sən insansan!

Həyatdan uca duran, onu Mütləqə yaxınlaşdıran və Mütləqləşən Ruhani xilqət!

***Amalda – İnsan Müəyyəndir – çünki Sabitdir, Varlığa yüksələndir.***

## 28. REALİZM

Yoxluq haqqında hekayət.

## 29. ROMANTİZM

Yoxluqdan Varlığa çağırış.

## 30. SOSİALİZM REALİZMİ

Yoxluğu Varlıq saymaq.

## 31. MƏZİYYƏTLƏR

Həyati Məziyyət – İnsandan aşağı yaşamaq.
İnsani Məziyyət – Həyatdan yüksək yaşamaq.

## 32. HƏYAT TƏCRÜBƏSİ

Nisbiləşmək.

## 33. AMAL TƏCRÜBƏSİ

Mütləqləşmək.

## 34. TƏBİƏT – HƏYAT

Təbiətdə İnsan həyatdan Yüksək olanla – Mütləqin ifadəsiylə – görüşür.

**35. MADDİYYATÇININ ANLAMADIĞI**

Ən yoxsul İnsan – ən Möhtəşəm İnsan ola bilər.
Ən yoxsul Xalq – ən Möhtəşəm Xalq ola bilər.

**36. ƏDALƏT – İNSANİLİK**

Fikirlər, Duyğular, Rəylər – Müxtəlifdir.
Ancaq – Ədalət birdir.
Ədalət – İnsaniliyin Mütləq Təsdiqidir.

**37. HƏQİQƏT – MÜTLƏQ**

Fikirlər, Duyğular, Rəylər – Müxtəlifdir.
Ancaq – Həqiqət birdir.
***Həqiqət – Mütləqin dərkidir.***

**38. İNSANİLİK**

Mütləq Antiheyvanilik.

**39. MƏZMUN – BİÇİM**

Məzmun – Biçimdə sezilən.
Biçim – Məzmunu nişan verən.

**40. HƏYAT – GÖZƏLLİK – EYBƏCƏRLİK**

Həyat – gözəllik yağısıdır.
Həyatın eybəcərləşdirmədiyi gözəl yoxdur.
Gözəllikdən salır, çirkinləşdirir, sonra öldürür.

**41. HƏQİQƏT – HƏYAT**

**I**

Həyat – Mütləqə çatmır.
Bu səbəbdən də Həqiqətə çatmır.
Nisbi olan – Həqiqi deyil.
Yalnız Mütləq olan – Həqiqidir.

**II**

İnsanı Həqiqət qədər heç nə ucaltmır.
İnsanı Həqiqət qədər heç nə Həyatın gözündən salmır.

## 42. DƏYİŞİLƏN – DƏYİŞMƏYƏN

Dəyişilən hadisələr var – Dəyişməyən Mahiyyət var.
Dəyişilən qanunlar var – Dəyişməyən Ədalət var.
Dəyişilən Rəylər var – Dəyişməyən Həqiqət var.
Əslində Dəyişilən yoxdur – Dəyişməyən var.

## 43. DİALEKTİKA YOXLUĞU

Dialektika – dəyişkənlik və ziddiyyət haqqında təlimdir.
Bu səbəbdən də o, əslində – Yoxluq haqqında təlimdir.
Dialektika – Yoxluğu tədqiq edir, ancaq onu Varlıq kimi təqdim edir.

## 44. MÜTLƏQ – HƏYAT

"Var olan – Yox olmamalıdır!" Həyat bu Mütləq Tələbə əməl etmir.
"Yox olmayan – Yoxdur" – deyir.

## 45. DƏYİŞKƏNLİK – ƏTALƏT

Dəyişkənlik – Mahiyyətə ziddir, Ətalət – Həyata.
Mahiyyət – Ətalət tanımır, çünki Sabitdir.
Həyat – Ətalət tanıyır, çünki Dəyişkəndir.

## 46. HƏYAT DƏRSİ

Həyat dəyişkənlik Yoxluğunu qabarıq şəkildə nümayiş etdirir.
Yaratdığı nə varsa – Yoxa çıxarır.

## 47. "ÖZÜNÜDƏYİŞMƏ" VARLIĞI

"Özünüdəyişmədə" İnsan – özünə çatır, Yox olmur, Var olur. ***Ruhanilәşir, Dәyişkәnlik Yoxluğundan xilas olur.***

## 48. ALİ HƏYATA YÜKSƏLMƏ VARLIĞI

Həyat Ali Həyata yüksələndə – özünə çatır, Yox olmur, var olur. ***Ruhanilәşir. Dәyişkәnlik Yoxluğundan xilas olur.***

## 49. RUHANİLİK – HƏYATİLİK

Ruhani çevrilmədə – Varlıq Təsdiq olunur.
Həyati çevrilmədə – Yoxluq Təsdiq olunur.

Ruhani çevrilmə – dəyişkənlik yaratmır, Sabitlik yaradır.
Həyati çevrilmə – Sabitlik yaratmır, dəyişkənlik yaradır.

## 50. CİSMANİ – RUHANİ

Cismaniyə bərabər olmaq – heçə bərabər olmaqdır. Çünki cismaninin Sabit vəziyyəti – heçlikdir.

Ruhaniyə bərabər olmaq – Vara bərabər olmaqdır. Çünki Ruhani daim Sabitdir.

## 51. AMAL EHTİYACI

***Həyat Ağacında*** İnam Meyvəsi bitmir.
İdrak Meyvəsi bitmir.
Mənəviyyat Meyvəsi bitmir.
İradə Meyvəsi bitmir.
***Amal Ağacında*** İnam Meyvəsi bitir.
İdrak Meyvəsi bitir.
Mənəviyyat Meyvəsi bitir.
İradə Meyvəsi bitir.
***Həyat Ağacında Amal Ehtiyacı bitir.***

## 52. DÜŞMƏK – ÇIXMAQ

Həyata atıldı – çirkaba düşdü.
Amala yüksəldi – çirkabdan çıxdı.

## 53. KAİNAT – RUH

Çayı yaradan Kainatdır.
Çay Sehrini yaradan Ruhdur.
Dağı yaradan Kainatdır.
Dağ Sehrini yaradan Ruhdur.
Günəşi yaradan Kainatdır.
Günəş Sehrini yaradan Ruhdur.
Səmanı yaradan Kainatdır.
Səma Sehrini yaradan Ruhdur.

***Ruh Kainatı sadəcə əks etdirmir – onu İnsan üçün təzədən yaradır.***

## 54. ƏXLAQ – HƏYAT

**I**

Əxlaq Nisbiylə barışmır.
Bu səbəbdən də Həyatla döyüşür.

**II**

Həqiqət əsasında yaşamaq – Qeyri-Həyati Tələbdir – yəni Qeyri-Nisbi Tələbdir, Mütləq Tələbdir.

**III**

Həyata tapınan – Əxlaqdan keçir.

**IV**

Həyat Əxlaqlını sevmir.

**V**

Əxlaqa Sadiq qalan – Həyata qarşı durur.

**VI**

Həyat adamları Əxlaqlı olmur – Amal İnsanları Əxlaqlı olur.

**VII**

İnsan Həyatda doğulur – Amalda Ruhani yaşa dolur.

## 55. ƏXLAQ – CƏMİYYƏT

Cəmiyyət Əxlaqı İctimai Faydaya qurban verir.
Bu səbəbdən də Əxlaqi Faydasızlıq qazanır.
Cəmiyyət Əxlaqa gülür.
Bu səbəbdən də Əxlaqi Gülüş hədəfinə çevrilir.

## 56. HƏYATLAŞAN ƏDALƏT

Ədalətli Ticarətdən danışırlar.
Ədalətli Rəqabətdən danışırlar.
Ədaləti Həyatiləşdirirlər, nisbiləşdirirlər – ədalətdən məhrum edirlər.

Əslində Ticarət – ədalətsizlikdir, çünki İnsaniliyin Təmənnaya qurban verilməsidir.

Əslində Rəqabət – ədalətsizlikdir, çünki İnsaniliyin Təmənnaya qurban verilməsidir.

***Ədaləti – ədalətsizliyə endirirlər.***

***Ədaləti məzmundan məhrum edirlər – biçimə pərçimləyirlər.***

## 57. ƏXLAQ AZADLIĞI

Əxlaqa tabe olmaq – Azadlıqdır: – Heyvandan azad olmaqdır.

Əxlaqdan azad olmaq – Əsarətdir: – Heyvana tabe olmaqdır.

## 58. CƏMİYYƏT – HƏYAT

Cəmiyyət Həyatı İnsanilәşdirmədi – Sünilәşdirdi.

## 59. ƏDALƏT – FAYDA

**I**

Ədalət – Fayda tanımır.
Fayda – Ədalətdən keçir.

**II**

Ədalət – Hadisəyə verilən həqiqi Qiymətdir.
Faydalı Ədalət – Yoxdur.
Çünki Faydalı Həqiqət yoxdur.

**III**

Əgər Hadisə Həqiqidirsə – o, Faydalıdan artıqdır.

Bu baxımdan, Ədalətli Fayda yoxdur – çünki Həqiqətə bərabər Fayda yoxdur.

**IV**

Faydanı seçən – Gerçəyi seçir.
Ədaləti seçən – Mütləqi seçir.

**V**

Faydasız keçinmək olmur!
Ədalətsiz yaşamaq olmur!

**VI**

Fayda Hadisənin xassəsidir, ancaq həqiqi qiyməti deyil.
Bu səbəbdən ədalətli qiyməti deyil.

**VII**

Faydalı qəbahət – ədalətli sayılmaz.
Faydasız ləyaqət – ədalətli sayılar.

**VIII**

Ədalətli Faydadan danışırlar.
Faydalı Ədalətdən danışırlar.
***Nisbi mənada danışırlar.***
Nisbi Ədalət yoxdur.
Deməli, Ədalətli Fayda da yoxdur!
Faydalı Ədalət də Yoxdur!

## 60. ƏDALƏT "FAYDASI"

"Qəbahətli oyunda ədalətli davran!"
"Namussuz əməldə Sözünə namusla əməl et!"
"Ədalətsiz Məqsədi Ədalətlə yerinə yetir!"
"...Ədalətdən faydalan!"

## 61. ƏDALƏTLİ FAYDA

Ədalətin həyata uyğunlaşması – Yoxa çıxması.

## 62. ƏDALƏT – CƏMİYYƏT

Ədalətli ictimai quruluş – İnsaniliyi Mütləq Mənada Təsdiq edən quruluşdur.

***Belə quruluş Yoxdur.***

Ədalətli ictimai qanunlar – İnsaniliyi Mütləq Mənada Təsdiq edən qanunlardır.

***Belə qanunlar Yoxdur.***

Ədalətli ictimai müəssisələr – İnsaniliyi Mütləq Mənada Təsdiq edən müəssisələrdir.

***Belə müəssisələr Yoxdur.***

***Deməli, ədalətli cəmiyyət yoxdur!***

## 63. ƏDALƏTSİZ QƏLƏBƏ

Ruhani Məğlubiyyət.
Fayda naminə ədalətdən keçirlər.
***Ruhsuzluğu seçirlər.***

## 64. HƏYAT – RUH

### I

Həyat işıltıdır – işıq deyil!
İşıq görməyən üçün işıltı elə işıqdır.
Ruh İşığı görür.
Buna görə də İşıltını İşıq saymır.

### II

Ruh İnsana deyir:
İşıltıya küsənmə –İşığa çat!
Həyata küsənmə – Amala çat!

## 65. QANUN – QANUNSUZLUQ

***Qanun*** – Könüllü surətdə qəbul olunan – həmişəlik əməl olunan.

***Qanunsuzluq*** – Zorakı surətdə qəbul edilən – Müəyyən vaxtda əməl olunan.

***Qanun*** – Etiqada çevrilən.

***Qanunsuzluq*** – Etiqadla döyüşən.

***Borc*** – Ruhun tələbi.

***Tabeçilik*** – Zorun tələbi.

***Qanun*** – Müstəsna tanımayan.

***Qanunsuzluq*** – Müstəsnaya sığan.

Bəşər indiyə qədər Qanundan çox Qanunsuzluğa arxalanıb.

***Çünki İnsan – İnsan olmayıb.***

## 66. BARIŞMAZLIQ

### I

Amal Həyatla barışsa – Amal olmaz – Həyat olar.

Amal Həyatla barışmır – buna görə də Həyatı Amallaşdırır.

**II**

“Həyat nisbidən artıq heç nə vermir” – deyirlər.
“Nisbiylə barış!” – deyirlər.
“Həyatla barışma!” – demirlər.

**III**

“Həyatda Mütləq yoxdur” – deyirlər.
“Mütləqsizliklə barış!” – deyirlər.
“Həyatla barışma!” – demirlər.
“Mütləqə Yüksəl!” – demirlər.

## 67. YOXLUQ ÖLÇÜSÜ

**I**

Nisbinin Varlığını nisbi ölçüylə əsaslandırırlar.

Əslində isə Varlığın nisbi ölçüsü yoxdur, yalnız Mütləq ölçüsü var.

***Varlığı Yoxluqla əsaslandırırlar.***

**II**

Əgər Sən ***nisbi Mənada*** Kamilsənsə – Kamil deyilsən, yəni sənin Kamilliyin Yoxdur.

Əgər Sən ***nisbi Mənada*** Müdriksənsə – Müdrik deyilsən, yəni sənin Müdrikliyin Yoxdur.

Əgər Sən ***nisbi Mənada*** Safsansa – Saf deyilsən, yəni sənin Saflığın Yoxdur.

***Nisbi Məziyyət Yoxdur.***

**III**

***Mütləq Mənada*** İnsan Yoxdursa, – deməli, ***əsil Mənada*** İnsan Yoxdur.

## 68. QANUNİ ƏMƏL

**I**

Qanuna zorla riayət edilirsə – o, Qanun deyil.
Qanuna riayət edilmirsə – o, Qanun deyil.
Qanuna könüllü riayət edilirsə – o, Qanundur.

**II**

Ədalətsiz Qanuna əməl etmək – Qanunsuzluqdur.
Ədalətli Qanuna əməl etməmək – Qanunsuzluqdur.

**III**

Könüllü Qəbul etdiyin Qanuna borclusan.
Borcuna Mütləq Mənada əməl etməlisən.
***Etmirsənsə – Qanunsuzluq törədirsən!***

## 69. QANUN ŞƏRHİ

Əsl Qanun – İnsanilikdir.
Digər Qanunlar – onun şərhidir.

## 70. CƏMİYYƏT YERSİZLİYİ

Cəmiyyətdə İnsana layiq Yer yoxdur!
Adama layiq Yer var.
Məxluqa layiq Yer var.
Cəmiyyətdə Məxluqlar Yer qazanır.
Adamlar Yer qazanır.
İnsanlar Yer qazanmır.
Cəmiyyətdə Yer Təsadüf nəticəsində qazanılır!
Cəmiyyətdə heç kəs Yerinə düşmür!
Cəmiyyətdəki Yer həmişəlik olmur, gec-tez Yoxa çıxır.
***İnsan cəmiyyətdə Yersizdir!***

## 71. CƏMİYYƏT BACARIQSIZLIĞI

Cəmiyyət İnsanilik ehtiyacından yaranmayıb, özünümühafizə ehtiyacından yaranıb.

Cəmiyyət vasitəsilə İnsan özünü xarici düşməndən qoruya bildi, daxili düşməndən qoruya bilmədi.

### 72. QANUN LƏYAQƏTİ

Qanun – ədalətli olduğu üçün – riayətə layiqdir.
Ədalətsizlik – Qanunsuzluqdur.
Qanunsuzluğa qarşı çıxmaq – Qanunidir...
Ədalətsizliyi qoruyan Qanun – Yoxdur.
***Yoxa riayət etməzlər.***
***Qanuni ədalətsizliyi ləğv etmək – Qanuni Borcdur.***

### 73. ƏDALƏT – ZƏRURİYYƏT

**I**

Ədalətdən keçmək zəruriyyəti Yoxdur.
Çünki İnsandan keçmək Zəruriyyəti Yoxdur.

**II**

Əslində Ədalətsiz Qanun olmamalıdır.
***Ədalət özü Qanun olmalıdır.***

**III**

Ədalətsizliyə alışmaq Borcu Yoxdur.
Ədalətsizliklə vuruşmaq Borcu Var.

### 74. TƏCRÜBİ İDRAK

Faydalaşan Həqiqət.

### 75. ƏXLAQ – HÜQUQ

Hüquq – əxlaqın haqqı.

### 76. SİYASƏT

İctimailəşmə.

### 77. QANUN – QANUNÇU

Qanunu – İnsanlar yaratmalıydı.
Qanunu – Adamlar yaratdılar.
Bu səbəbdən də Mütləq Qanun yaranmadı, nisbi Qanun yarandı.
***İnsanilik – Qanun olanda, Mütləq Qanun yaranacaq.***

## 78. QANUN – BƏRABƏRLİK – BƏRABƏRSİZLİK

Qanun Bərabərliyi:

Hamının Qanuna eyni dərəcədə riayət etməsi.

Hamının Qanundan eyni dərəcədə faydalanması.

Hamının Qanun qarşısında eyni dərəcədə məsuliyyəti.

Ancaq Qanun – Mülkiyyət bərabərsizliyini, imtiyaz bərabərsizliyini aradan qaldırmır, ictimai bərabərsizliyi ləğv etmir.

***Bu baxımdan, o, ədalətsizliyi qoruyur.***

## 79. İCTİMAİ – ƏXLAQİ

İctimaidə – Fərd Cəmləşir.
Əxlaqda – Fərd Başqalaşır.
Cəmləşmək – Cəmdə itmək.
Başqalaşmaq – Başqasında özünü ifadə etmək.

## 80. NORMATİV – ƏXLAQİ

Normativ – Gerçəkliyi doğruldan.
Əxlaqi – Gerçəkliyi üstələyən.

## 81. MÜQƏDDƏSLİK – FƏRDİLİK

Müqəddəslikdə Fərdilik Ümumiləşmir – Mütləqləşir.

## 82. MÜQƏDDƏSLİK – HƏRCAYİLİK

Müqəddəslikdə Heyvan ölür,
Hərcayilikdə – İnsan.

## 83. MÜQƏDDƏSLƏŞMƏ – CƏMLƏŞMƏ

Müqəddəsləşmədə – İnsan öz balaca "Mən"indən ayrılıb, böyük "Mən"inə yüksəlir.

Cəmləşmədə – İnsan ***öz*** "Mən"indən ayrılıb, ***özgə*** "Mən"inə qovuşur.

***Cəmləşən "Mən" əslində özgələşən "Mən"dir.***

## 84. BAŞQALAŞMA – CƏMLƏŞMƏ

İnsan Başqalaşanda – cəmləşmir.
Cəmləşmə zahiri Vəhdətdir, daxili Birlik deyil.

### 85. BİRLİK – İNSANİLİK

Cəmiyyət ***Birliklə*** əvəz olunanda insanilik bərqərar olacaq.

### 86. GERÇƏKLİK – GERÇƏK

Gerçəkliyə uyğun gələn Ədalət – Ədalət deyil!
Gerçəkliyə uyğun gələn Həqiqət – Həqiqət deyil!
Gerçəkliyə uyğun gələn ləyaqət – ləyaqət deyil!
Gerçək olan gerçək deyil!
Gerçəklikdən yüksək olan gerçəkdir!

### 87. ZAMAN – İDEAL

Zamanın ideal tipi yoxdur – gerçək tipi var.
***İdeal tip gerçək olmaz.***

### 88. ƏXLAQ – TƏMƏNNA

Əslində Təmənnalı nə varsa – qeyri-Əxlaqidir, çünki qeyri-Ruhanidir.

Təmənnasız adam yoxdur.

Deməli, Əxlaqlı adam yoxdur.

***Həyat – Əxlaqsızdır.***

### 89. HƏYATİ İDEAL

İdealsızlıq.

### 90. CƏMLƏŞMƏ – BİRLƏŞMƏ

Özündən əl çək – ***hamılıq*** qazan.
Özündən yüksəyə qalx – ***Birlik*** qazan.

### 91. FƏRDİYYƏT – CƏMİYYƏT

Fərdiyyətim – böyük "Mən"im.
Balaca "Mən"dən keçirəm – Var oluram.
Fərdiyyətimdən keçirəm – Yox oluram.
İnsanlığa gərək olmuram.
Cəmiyyətə gərək oluram.

## 92. QANUN GERÇƏKLİYİ

Qanun gerçəkliyi qoruyursa – Qanunsuzluğu qoruyur. Çünki gerçəklikdə Ədalət Yoxdur.

Qanun Amalı qorumalıdır, gerçəkliyi məhkum etməlidir.

## 93. MÜLKİYYƏTSİZLİK BƏRABƏRLİYİ

Hamı Ümumi Mülkiyyətin alətinə çevrilir.

Mülkiyyətsizlik – Mülkiyyətə Mütləq Ehtiyac yaradır. O, Mülkiyyəti qiymətə mindirir.

## 94. VARİDAT – MƏHRUMİYYƏT

Kapitalizm hədsiz Varidat təzadı yaradır.

Bununla da Cəmiyyətdə ***Yırtıcılıq*** təsdiq olunur.

Sosializm hədsiz Mülkiyyətsizlik Məhrumiyyəti yaradır.

Bununla da cəmiyyətdə ***Məzlumluq*** təsdiq olunur.

***Hər İkisi – İnsanlığa Ziddir.***

## 95. DÖVLƏT AĞALIĞI

Mülkədar Ağalığı ləğv olundu.
Kapitalist Ağalığı ləğv olundu.
Dövlət Ağalığı bərqərar oldu.
Dövlət Mülkədarlaşdı, Kapitalistləşdi.

## 96. YADLIQ – YAĞILIQ

İnsanla yadlaşan cəmiyyət, ağalaşan cəmiyyət, azğınlaşan cəmiyyət – ***Yağılaşır.***

## 97. MÜSTƏQİLLİK – ÜMUMİLİK

### I

Mülkiyyət – Varidatdır.
Bu baxımdan o, İnsaniliyi ifadə etmir.
Ancaq Mülkiyyət – Şəxsi Müstəqillik yaradır.
Bu baxımdan o, İnsaniliyə xidmət edir.

**II**

Mülki Müstəqilliyini itirən – Şəxsi Müstəqilliyini də itirmiş olur.

**III**

Ümumi Mülkiyyət – xüsusi istismarı aradan qaldırdı. Ancaq o, İnsanı mülki Müstəqillikdən məhrum etdi.

Bununla da İnsaniliyə ziyan vurdu.

**IV**

İstismar – ən eybəcər, ən müdhiş antiinsanilikdir. Ancaq mülki müstəqillik bahasına istismardan xilas olmaq – insanilik bahasına antiinsanilikdən xilas olmaq deməkdir.

**V**

Mülkiyyəti İstismardan azad etmək – ruhani zəruriyyətdir.

***Ancaq əməkçini müstəqil mülkiyyətdən məhrum etmək – ədalətsizlikdir.***

**VI**

İstismardan azad olmuş, müstəqil əməkçi mülkiyyəti! Ədalətin tələbi budur!

**VII**

Ümumi Mülkiyyətdə Şəxsi müstəqillik itir.

Şəxsi müstəqillik olmayan yerdə – İnsani ləyaqət də Yoxdur.

## 98. AZADLIQ – BİRLİK

Sən – başqası azad olduğu dərəcədə azadsan!

## 99. MADDİ BƏRABƏRLİK – MADDİ İNKİŞAF

Hamı minimal varidatla bir-birinə bərabərdir.

Hamı – bərabərsizlik bahasına – minimal varidatını artırır.

Ədalət birinci vəziyyətin tərəfindədir, çünki Maddi Bərabərsizlik hər vəziyyətdə ədalətsizlikdir.

## 100. FƏRQ – FƏRQSİZLİK

Qabiliyyət Fərqi – Fəaliyyət Fərqi yaradır, Maddi Sərvət Fərqi yaratmır.

Maddi Sərvət Fərqini İnsani Naqislik yaradır.

## 101. RUHANİ NAİLİYYƏT

Elə Qələbə qazan ki, heç kəs Məğlub olmasın!
Elə Ucal ki, heç kəs Alçalmasın!
Elə Böyü ki, heç kəs Kiçilməsin!
***Elə Həyat sür ki, Həyata oxşamasın!***

## 102. AZADLIQ – CƏMİYYƏT

### I

Azadlığı Cəmiyyətdən pay kimi almırlar.
Azadlığı Cəmiyyətə şamil edirlər.

Azadlığı Müəssisələrdən pay kimi almırlar.
Azadlığı Müəssisələrə şamil edirlər.
Azadlığı Qanunlardan pay kimi almırlar.
Azadlığı Qanunlara şamil edirlər.

### II

Azadlığa xidmət eləyən Cəmiyyət yoxdur.
Azadlığa xidmət eləyən Müəssisə yoxdur.
Azadlığa xidmət eləyən Qanun yoxdur.

### III

Azadlıq – İnsani Mahiyyətin ifadəsidir və özünü heç bir cəmiyyətdə Tapmayıb.

Azadlıq – Ruhani cəmiyyət (Birlik) Tələbi yaradır.

## 103. AZADLIQ – KAPİTALİZM – SOSİALİZM

Kapitalizm – Azadlığa xidmət etmir, maddi tərəqqiyə xidmət edir.

***Azadlıq – kapitalizmdə Məqsəd deyil, Vasitədir.***

Sosializm – Azadlığa xidmət etmir, Hamılaşma doktrinasına xidmət edir.

***Azadlıq – sosializmdə Şüardır.***

## 104. İNSAN OLMAQ İMKANI

Azadlığın qiyməti – İnsan olmaq imkanının Vüsətinə bərabər olur.

## 105. AZADLIQ – BƏRABƏRLİK – TƏRƏQQİ

Bərabərlik naminə Azadlıqdan keçirlər – Bərabərsizlik yaranır.
Tərəqqi naminə Azadlıqdan keçirlər – Gerilik yaranır.

## 106. KAPİTALİZM – MADDİ MƏNAFE – AZADLIQ

Kapitalizm – maddi mənafe uğrunda yırtıcı döyüş azadlığını müdafiə edir.

Bununla da o, insaniliyə zidd çıxır.

Həmin döyüş Qələbə yaratmır, Məğlubiyyət yaradır.

***Qalib – insaniliyi itirir, məğlub – maddi faydanı.***

***Qalib – Yırtıcılıq Əsarətinə düçar olur.***

***Məğlub – Maddi əsarətə.***

***Cəmiyyət hər iki əsarəti qoruyur.***

## 107. SOSİALİZM – ŞƏXSİ MƏNAFE – AZADLIQ

Sosializm – Maddi nemətləri Şəxsiyyətin əlindən alır, onu Ümumiləşdirir, Hamılaşdırır, Dövlətləşdirir. İnsan bütünlüklə cəmiyyətin ixtiyarına verilir.

Fərdin maddi nemətlərə Sahib olmaq Azadlığına son qoyulur, maddi əsarət yaranır.

***Mütləq Dövlət Hakimiyyəti həm də İnsan üzərində Mənəvi Ağalığa Sahib olur: İnsan alətləşir.***

***Hər iki əsarət – cəmiyyət tərəfindən qorunur.***

## 108. KAPİTALİZM – SOSİALİZM – İNSAN

Kapitalizmdə İnsan – Qəddarlaşır.
Sosializmdə – Mütiləşir.

## 109. VARİDAT – FƏRDİYYƏT – CƏMİYYƏT

Varidat Ehtirası Fərdin daxilində yetişir.

Onu Fərd yaşadır, Fərd də öldürə bilər.

Varidatı Fərddən alıb cəmiyyətə verməklə Varidat Ehtirası ölmür, üstəlik, Fərdi Məhrumiyyət yaranır.

***Varidatsızlıq – əslində Mənəvi Məziyyətdir,***
***Maddi Məziyyət deyil!***

## 110. XÜSUSİ BİRLİK

Xüsusi ölmür, ləğv olmur, məhv olmur – artır, yüksəlir, kamilləşir və Birlik yaradır.

Xüsusini öldürən Birlik – əslində ölü Birlikdir.

***Ölü Birliyin müstəbidliyindən olmaz!***

## 111. MÜSTƏQİL BİRLİK

Müstəqillik ləğv olmur, məhv olunmur, yüksəlir, kamilləşir və Birlik yaradır.

Müstəqillikdən məhrum olan Birlik – ölü Birlikdir.

***Ölü Birliyin Yaşamaq Hərisliyindən olmaz!***

## 112. TARİXİ ƏDALƏTSİZLİK

### I

***Məhsul – Məhsulu yaradanındır!***
Cəmiyyətin deyil.
Dövlətin deyil.
Kapitalistin deyil.

Məhsul, demək olar ki, heç vaxt Məhsulu yaradanın olmayıb.

### II

“Mülkiyyət Hamınındır!” – sözündə Mülkiyyətə hamılıqla yiyələnmək meyli gizlənir.

Məhsulu hamı yaratmır, ancaq Mülkiyyət hamınındır.

Mülkiyyətə yiyələnmək üçün – Məhsul yaratmaq lazım deyilmiş!

**III**

Əslində bu ***hamı*** kimdir?

Bütün xalqmı?

Bütün xalq mülkiyyətə sahib deyil. Çünki məhsulu ticarət vasitəsilə əldə edir.

İctimai müəssisələrmi?

Heç bir müəssisənin öz xüsusi mülkiyyəti yoxdur.

Dövlətmi?

Bəs dövlət ləğv olunanda mülkiyyət kimin olacaq?

***Özünüidarə assosiasiyasının.***

***Hamının, tək əməkçidən başqa!***

## 113. KAPİTALİST HÜQUQSUZLUĞU

Mülkiyyəti satın alanı Mülkiyyətin Sahibi sayırlar.

## 114. SOSİALİST HÜQUQSUZLUĞU

Mülkiyyəti Zəbt edəni Mülkiyyətin Sahibi sayırlar.

## 115. HAQSIZ HAQQ

Hamının Haqqı müdafiə olunmalıdır.
Yəni Kapitalist Əməkçi Mülkiyyətinə yiyələnməlidir.
Hamının Haqqı müdafiə olunmalıdır.
Yəni Dövlət Əməkçi Mülkiyyətinə yiyələnməlidir.

## 116. ZORAKI MÜLKİYYƏT

Kapitalist Mülkiyyəti əslində Xüsusi Mülkiyyət deyil – Zorakı Mülkiyyətdir.

Çünki burada Kapitalist Əməkçi Mülkiyyətinə Zorla Sahib olur.

Sosialist Mülkiyyəti əslində Ümumi Mülkiyyət deyil – Zorakı Mülkiyyətdir.

Çünki burada Dövlət Əməkçi Mülkiyyətinə Zorla Sahib olur.

## 117. İCTİMAİLİK – İNSANİLİK

İctimailik fetişləşdirilir, ali insani hadisə sayılır. ***Onun qeyri-insani xüsusiyyətləri nəzərə alınmır.*** Əslində isə ictimailiklə

insanilik arasında dərin ziddiyyət var. Bu ziddiyyət ayrı-ayrı cəmiyyətlərin timsalında bilinir, ancaq ümumən ***ictimailik hadisəsinin*** timsalında bilinmir.

İctimailik az qala İnsaniliyin ikinci adı sayılır.

***Bu, xurafat səviyyəli bir Yanlışlıqdır.***

Əslində isə ictimailik – ən çox Maddiyyata yaradı, ruhaniyyata yaramadı, İnsaniliyin Təzahürünə mane oldu, İnsansızlığa xidmət göstərdi.

***İctimailik – Məziyyət deyil, Zəruriyyətdir.***

## 118. MƏNƏVİ – MADDİ

Maddini almaq-satmaq olar.

Mənəvini almaq-satmaq olmaz.

Cəmiyyət mənəvi keyfiyyətləri Maddiyyat vasitəsiylə dəyərləndirir.

Cəmiyyət mənəvi keyfiyyətləri alıb-satır.

Cəmiyyət İnsanı alçaldır, ancaq yüksəldən görünür.

## 119. CƏMİYYƏT – ŞƏXSİYYƏT

### I

İnsan cəmiyyətləşəndə – cəmiyyət ***Ağalaşır.***

Cəmiyyət İnsana Sahib olanda – İnsan ***kölələşir.***

İnsan cəmiyyətin ixtiyarına veriləndə – cəmiyyət ***Müstəbidləşir.***

Cəmiyyət İnsan Aqibətinə yiyələnəndə – İnsan ***aqibətsizləşir.***

Cəmiyyət İnsanın maddi güzəranına, şəxsi arzularına, istəklərinə Sahiblik eləyəndə İnsan ***müflisləşir.***

### II

Özünə Sahib olmadan – cəmiyyətə Bağlanmaq olmaz.

Cəmiyyət İnsanın Taleyini İnsana tapşırmalıdır.

***Onda İnsan cəmiyyətlə bir olar.***

### III

Cəmiyyət – Vasitədir, Məqsəd deyil.
Məqsəd – İnsanilikdir.
İnsan İnsanilikdən asılıdır.
Cəmiyyət İnsaniliyi itirdikdə – İnsana gərək olmur.
İnsan cəmiyyətdən artıqdır.

## 120. AZADLIQ – ƏSARƏT

İnsaniyyətə zidd olan azadlıq – Əsarətdir.
Ədalətə zidd olan azadlıq – Əsarətdir.
Həqiqətə zidd olan azadlıq – Əsarətdir.
Yalnız İnsani Azadlıq – Azadlıqdır.
Yalnız Ədalətli Azadlıq – Azadlıqdır.
Yalnız Həqiqi Azadlıq – Azadlıqdır.

***Azad Müstəbidlik – Əsarətdir.***
***Azad Zülm – Əsarətdir.***
***Azad Yalan – Əsarətdir.***

## 121. AZADLIQ – İNSANİLİK

**I**

Azadlığın ölçüsü – İnsanilikdir.

Şəxsi Azadlıq – əslində İnsaniliyə uyğun olan Azadlığın qəbul edilməsidir. ***Çünki İnsanilik – "Müqəddəs Mənafedir".***

**II**

***İnsaniliyə tabe olan nə varsa – Azaddır.***

## 122. ƏDALƏTLİ BİRLİK

Kapital–Əmək birliyi yarana bilməzdi, çünki ədalətə zidd idi.
Mülkiyyət–Əmək birliyi yaranmalıdır, çünki ədalətə uyğundur.
"Əmək Kapitalındır!" – Tələbində Həqiqət yoxdur.
"Mülkiyyət – Əməkçinindir!" – Tələbi Həqiqətdir.

## 123. HƏQİQƏT – AZADLIQ

"Həyatdan asılı olmayan – Həqiqəti tapmaz" – deyirlər.
"Həyatdan asılı olan – Həqiqəti tapmaz" – deyirik.
"Cəmiyyətdən asılı olmayan – Həqiqəti tapmaz" – deyirlər.
"Cəmiyyətdən asılı olan – Həqiqəti tapmaz" – deyirik.
"Şəraitdən asılı olmayan – Həqiqəti tapmaz" – deyirlər.
"Şəraitdən asılı olan – Həqiqəti tapmaz" – deyirik.
***Həqiqət də Azadlığı sevir!***

## 124. İNAM HƏQİQƏTİ

I. Dünyada, Həyatda, İnsanda Mütləq Mahiyyət Var.
II. İnsan Mütləqi Dərk etməyə Qadirdir.
III. İnsan Mütləq Mənəvi Kamilliyə nail ola bilər.
IV. İnsan Mütləq Mənada İnsani, Ali Həyat yarada bilər.

## 125. İNSANİLİK – MADDİ BƏRABƏRLİK

**I**

***Sən məndən qabiliyyətsizsən.***
***İnsanlıq naminə mən öz qabiliyyətimin bir hissəsini sənə həsr edirəm.***
***Onun maddi bəhrəsini sənə verirəm.***

**II**

Sən məndən qabiliyyətsizsən.
***Ona görə də maddi bəhrənin çoxunu mən qarmalayıram!***
Bu, insanlığa uyğun deyil.
Vəhşiliyə uyğundur.

**III**

Birincidə İnsan İnsaniləşir,
ikincidə – yırtıcılaşır.

## 126. İQTİSADİYYAT – CƏMİYYƏT – RUHANİYYAT

***İqtisadiyyatda*** – İnsan maddi nemətlər istehsalında fəaliyyət göstərir. Burada o, öz İnsani Mahiyyətini çox cüzi şəkildə ifadə edir.

Cəmiyyətdə – İnsan ***cəmləşir,*** fərdi xüsusiyyətlərdən məhrum olur. Burada o, öz İnsani Müstəqilliyini itirir.

İnsan özünü Yalnız Ruhaniyyatda (İnamda, İdrakda, Mənəviyyatda, İradədə) tapır.

Ruhaniyyat vasitəsilə o, İqtisadiyyata, Cəmiyyətə təsir edir, onları İnsaniləşdirməyə çalışır.

## 127. İNSANLAŞAN CƏMİYYƏT

**I**

– Pis cəmiyyəti dəyişmədən yaxşı İnsan yaratmaq olarmı?

– Yaxşı İnsan pis cəmiyyətdə yaşamağı özünə rəva bilməz, onu dəyişdirər.

– Əvvəl İnsan yaranmalıdır, sonra cəmiyyət dəyişilməlidir?

***– İnsanlaşma pis cəmiyyətin daxilində başlayır və pis cəmiyyəti dəyişir.***

– Pis cəmiyyət yaxşı insanın yetişməsinə mane olmazmı?

***– Mane olduğu üçün insanlaşan onu dəyişdirməli olur.***

İnsanlaşma labüd şəkildə pis cəmiyyətlə insan arasında ziddiyyət yaradır və həmin ziddiyyət pis cəmiyyətin dəyişməsiylə aradan qalxır.

Pis cəmiyyəti dəyişdikdən sonra İnsanlaşma – bir pis cəmiyyəti ikinci pis cəmiyyətlə əvəz etməkdir.

***İnsanlaşma olmayan yerdə İnsani cəmiyyətdən danışmağa dəyməz!***

Pis cəmiyyətin İnsanlaşmadan böyük Düşməni yoxdur, çünki onu qorxutmaq olmur, satın almaq olmur, Yer üzündən silmək olmur.

**II**

İnsanlaşma – İnsaniliyin tam Təsdiqi deməkdir.

Pis cəmiyyət – İnsaniliyə ziddir, bu səbəbdən də dəyişilməlidir.

## 128. VƏHŞİLİK – İNSANİLİK

Həyat uğrunda mübarizə əvəzinə – İnsanilik uğrunda mübarizə!

İnsanilik – həm də İnsani Həyat Tələbidir.

Həyat İnsanilik səviyyəsinə qalxmır.

Həyat uğrunda mübarizə – yırtıcılığı artırır, insaniliyi artırmır.

İnsanilik uğrunda mübarizə – İnsani Həyat yaradır.

## 129. ÇEVRİLMƏ – DÜZƏLMƏ

Dünya başı üstə çevriləndə də yaşaya bilir.

Ancaq onu təzədən ayağı üstə qoymaq çətin olur.

## 130. XİDMƏT – QİYMƏT

***Xidmətin Qiyməti – Ədalətdir.***

Əgər Xidmət Ədalətə həsr olunursa, o, həqiqidir.
Əgər Xidmət Ədalətsizliyə həsr olunursa, o, Qeyri-həqiqidir.

## 131. İSTEDAD

Başqalaşmaq üçün xüsusi imkan.

## 132. İCTİMAİ PİLLƏ – İNSANİ PİLLƏ

İctimai pillə – əslində İnsaniliyin ən aşağı pilləsidir. ***Ancaq İnsan həmin Pilləyə daim enməli olur.***

İnsan cəmiyyətdə özündən aşağı bilinir.

## 133. AİLƏ

İnsaniliyin irsi Doğmalıq biçimi.

## 134. XALQ

İnsani Mahiyyət Timsalı.

## 135. BÖYÜK – KİÇİK

Böyük – Ruhani yaşı çox olan.
Kiçik – Ruhani yaşı az olan.

## 136. ƏNƏNƏ

Qədimlik yeniliyi.

## 137. İNSANİLİK HÖKMÜ

"Alim hakimiyyətə gəlməlidir!" – deyirlər.
"Mühəndis hakimiyyətə gəlməlidir!" – deyirlər.
"Sərkərdə hakimiyyətə gəlməlidir!" – deyirlər.
***"İnsanilik hökmü oxunmalıdır!" – demirlər.***

## 138. İNSANİ BAXIŞ...

İnsanilikdə irəli çıxmısan, deməli, sənin üçün Maddi geridə qalan yoxdur – İnsan var.

İnsanilikdə Ucalmısan, deməli, sənin üçün Maddi alçalan yoxdur – İnsan var.

İnsanilikdə Zənginləşmisən, deməli, sənin üçün Maddi yoxsul yoxdur – İnsan var.

***İnsan olmusan – İnsana İnsani baxımdan yanaşırsan.***

## 139. CƏMİYYƏT – LƏYAQƏT

Cəmiyyətin aşağı pilləsində dayanıb İnsaniyyətin yuxarı pilləsinə çatmaq olar.

İnsaniyyətin aşağı pilləsində dayanıb cəmiyyətin yuxarı pilləsinə çatmaq olar.

## 140. İNSANİLİK ÖLÇÜSÜ

İnam Mütləqiliyi.
İdrak Ülviliyi.
Mənəviyyat Müqəddəsliyi.
İradə Qətiliyi.

## 141. SİNFİ İNSANSIZLIQ

İctimai Qütblər:

Yuxarı Sinif – Aşağı Sinif.
Hakim Sinif – Məzlum Sinif.
Varlı Sinif – Yoxsul Sinif.

***İnsansızlıq.***
***İnsanilik – sinfiliyə ziddir, çünki İnsansızlığa ziddir.***

## 142. NAQİS – XALİS

### I

Ağıllıyam – deməli, başqasının üzərində yüksəlməliyəm.
Qabiliyyətliyəm – deməli, başqasının üzərində yüksəlməliyəm.
Qüdrətliyəm – deməli, başqasının üzərində yüksəlməliyəm.

Ağıllıyam – deməli, başqasını Yüksəltməliyəm.
Qabiliyyətliyəm – deməli, başqasını Yüksəltməliyəm.
Qüdrətliyəm – deməli, başqasını Yüksəltməliyəm.

**II**

Ağıllıyam – deməli, başqasından ayrılmalıyam, Təbəqələşməliyəm.

Qabiliyyətliyəm – deməli, başqasından ayrılmalıyam, Təbəqələşməliyəm.

Qüdrətliyəm – deməli, başqasından ayrılmalıyam, Təbəqələşməliyəm.

Ağıllıyam – deməli, başqasıyla birləşməliyəm, İnsanlaşmalıyam.

Qabiliyyətliyəm – deməli, başqasıyla birləşməliyəm, İnsanlaşmalıyam.

Qüdrətliyəm – deməli, başqasıyla birləşməliyəm, İnsanlaşmalıyam.

## 143. TEXNİKİ İNKİŞAF

İnsanın Maddiyyat üzərində Misilsiz Qələbəsi.
Maddiyyatın İnsan üzərində Misilsiz Hakimiyyəti.

## 144. MÜTLƏQLİ DƏYƏRİ

**I**

İnsanı istehsalçı kimi qiymətləndirirlər.
İxtisasçı kimi qiymətləndirirlər.
İmtiyazçı kimi qiymətləndirirlər.
Mütləqli kimi qiymətləndirmirlər.
***İnsanda Mütləq Var, onu görmürlər.***

**II**

***İstehsalatı*** İnamdan ayırırlar,
İdrakdan ayırırlar,
Mənəviyyatdan ayırırlar,
İradədən ayırırlar –
***İnsansızlaşdırırlar.***
İnsanı İnsansızlıqla dəyərləndirirlər.

***İxtisası*** İnamdan ayırırlar,
İdrakdan ayırırlar,
Mənəviyyatdan ayırırlar,
İradədən ayırırlar –
***İnsansızlaşdırırlar.***
İnsanı İnsansızlıqla Dəyərləndirirlər.
***İmtiyazı*** İnamdan ayırırlar,
İdrakdan ayırırlar,
Mənəviyyatdan ayırırlar,
İradədən ayırırlar –
***İnsansızlaşdırırlar.***
İnsanı İnsansızlıqla Dəyərləndirirlər.

**III**

Mütləqlinin Qiyməti İnsanlaşmaqdır.
***Onun başqa Qiyməti yoxdur.***

## 145. İCTİMAİ DƏYƏR

Övladına dahiyanə Atalıq edən bilinmir,
Cəmiyyətə "dahiyanə" Ağalıq edən bilinir.

Ailəsinə sədaqətlə Analıq edən bilinmir,
Ağasına "sədaqətlə" nökərlik edən bilinir.

Hakim səlahiyyəti bilinir, Övlad Qeyrəti bilinmir.
Tacir səxavəti bilinir, Dost Ülfəti bilinmir.

***İctimai bilinir.***
***İnsani bilinmir.***

## 146. YARATMAQ – YAŞAMAQ

Gözəllik yaradıram – maddiyyat qazanıram, imtiyaz qazanıram.
Tərəqqi yaradıram – maddiyyat qazanıram, imtiyaz qazanıram.
Xudbinliyə xidmət edirəm – İnsanlığa xidmət edən görünürəm.
***Xudbinliyi yaşadıram – insanlığı yaşatmıram.***
***Əslində yaşamıram.***

## 147. VƏTƏNDAŞ – İNSANDAŞ

Vətən – cəmiyyətə bərabər deyil, İnsaniyyətə bərabərdir.

Bu səbəbdən də Vətəndaşlıq Ləyaqəti – cəmiyyətə Müsbət Münasibətlə ölçülmür, İnsaniliyə Müsbət Münasibətlə ölçülür.

Cəmiyyət Məqsəd deyil – Vasitədir.

Məqsəd – İnsanilikdir.

İnsaniliyə zidd olan cəmiyyətə yaxşı münasibət bəsləmək – naqislikdir.

***Pis cəmiyyətə qarşı çıxmaq – Vətəndaşlıq ləyaqətidir.***

## 148. İFAÇI – YIRTICI – İNSAN

Cəmiyyət – İnsan hazırlamır, ictimai ifaçı hazırlayır.
Məktəb – İnsan hazırlamır, ictimai ifaçı hazırlayır.
Həyat – İnsan hazırlamır, yırtıcı hazırlayır.
İnsan ***Amalda*** hazırlanır.
***Amalsızlıq – İnsansızlıqdır.***

## 149. ŞƏR – İNSAN

Daxili Şəri İnsan öldürər.
Öldürməsə, Şər İnsanı öldürər.
Xarici Şəri yenə də İnsan öldürər.
Öldürməsə, Şər İnsanı öldürər.
"Şərsiz dünya yoxdur!" – deyirlər.
"Şərli Dünya – Yoxdur!"– deyirik.

## 150. YAŞAMADAN ÖLMƏK

Vəsiqələrə gömülmək.
İmtiyazlara gömülmək.
Rütbələrə gömülmək.
Nişanlara gömülmək.

## 151. NAİLİYYƏT – MƏĞLUBİYYƏT

Bir dünya əldə etmək üçün bir qarış insanlıqdan keçirsənsə – Dünyadan keç!

Çünki sənin bir qarış məğlubiyyətin bir Dünya qələbəndən böyükdür!

Çünki İnsanlıq məğlub olursa – Qələbə yoxdur!

## 152. XUDBİN – MƏĞRUR

"Mənə çatan nemәti heç kəsə vermərəm!" – deyən Xudbindir.

"Mənə çatan nemәti heç kəsdən əsirgəmərəm!" – deyən Məğrurdur.

## 153. QABİLİYYƏT – İNSANİYYƏT

Qabiliyyət – insaniliyə bərabər deyil. O, İctimai Faydaya bərabərdir.

***İnsanilik – İnsan olmaq aqibətidir. O, İctimai Faydadan Artıqdır, Böyükdür, Yüksəkdir.***

## 154. İDARƏÇİLİK – İNSANİLİK

Cəmiyyət İnsanı idarə etmir, ictimai münasibətləri idarə edir.

Cəmiyyət Başçısı İnsanı idarə etmir, cəmiyyəti idarə edir.

***İnsanı İnsan özü idarə edir.***

## 155. İFAÇILIQ – İNSANLIQ

İctimai İfaçılıq – insanlığın aşağı səviyyəsidir.

***Burada insanlıq ancaq sezilir.***

## 156. CƏMİYYƏT – BİRLİK

Varlılar cəmiyyəti olur.
Savadlılar cəmiyyəti olur.
İşçilər cəmiyyəti olur.
***İnsanlar cəmiyyəti olmur.***
***İnsanlar Birliyi olmalıdır.***

## 157. MADDİYYAT – İDEAL

Maddi yüksəliş – maddi məhrumiyyətə son qoyur.
Ancaq İnam yaratmır.
Ədalət yaratmır.
Həqiqət yaratmır.
***Yəni İnsan yaratmır.***

## 158. VARİDAT – RUHANİYYAT

Varidat sayılan nə varsa – ruhaniliyini itirir.
Varidat sayılan nə varsa – alınıb-satılır.

## 159. ZƏNGİNLİK – MADDİ TƏRƏQQİ

Maddi Tərəqqi – Maddi Zənginlik yarada bilər, Ruhani Zənginlik yarada bilməz.

Ruhani Zənginliyi Şəxsiyyət özü yaradır.

## 160. CƏMİYYƏT – MƏCBURİYYƏT

Cəmiyyət Razılıq əsasında yaranmayıb, Məcburiyyət əsasında yaranıb.

***İnsanlar cəmləşməyə məcbur olublar.***

## 161. CƏMİYYƏT – İNSAN

Cəmiyyət İnsani Naqisliklə barşır.
Yırtıcılıqla barışır.
Hərcayiliklə barışır.
Xudbinliklə barışır.
Harisliklə barışır.

Bu səbəbdən də cəmiyyət – İnsanı insaniləşdirmir, onu heyvanilik səviyyəsində saxlayır.

İnsan – İnsani naqisliklə barışmır.
– Yırtıcılıqla barışmır.
– Hərcayiliklə barışmır.
– Xudbinliklə barışmır.
– Harisliklə barışmır.

Bu səbəbdən də İnsan – insanilәşir, heyvanilikdən ayrılır.

***İnsani naqisliklə barışmayan İnsan cəmiyyətlə də barışmır.***

## 162. QABİLİYYƏT – ƏDALƏT

“Qabiliyyətlinin Varlanması – Ədalətdir!” – deyirlər.
“Qabiliyyətlinin imtiyazlaşması – Ədalətdir!” – deyirlər.
“Varlanma – ədalətsizlikdir!” – deyirik.
“İmtiyazlaşma – ədalətsizlikdir!” – deyirik.
Çünki Varlanma – Yoxsullaşma yaradır.
Çünki İmtiyazlaşma – İmtiyazsızlıq yaradır.

**163. MƏRHƏLƏLƏR**

Məxluqun mükafatı – Varidat.
Adamın Mükafatı – Şöhrət.
İnsanın Mükafatı – Kamillik.

**164. SİYASƏT – İNSAN**

Siyasətdə Ölkə var.
Dövlət var.
Təbəqə var.
***İnsan Yoxdur.***

**165. KAMIL ÜSTÜNLÜYÜ**

Kamil hamının üstünlüyünə çalışır.
Bu səbəbdən də o, hamıdan üstündür.

**166. KAMİL BİRİNCİLİYİ**

Kamil hamını Birinci görmək istəyir.
Ona görə də o, hamıdan Birincidir.

**167. KAMİL NADİRLİYİ**

Kamil hamını Nadir görmək istəyir.
Ona görə də Nadirdir.

**168. KAMİLLİK ZİRVƏSİ**

Kamil – Cəmiyyətdə İmtiyaz Zirvəsi fəth etmir.
***İnsanilik Zirvəsinə yüksələn – Cəmiyyət Zirvəsinə enməz!***

**169. TƏZADLI BAXIŞLAR**

**I**

İnsanın Bacarığını sevirəm – yəni özünü sevmirəm, qazancını sevirəm.

İnsanın özünü sevirəm – yəni Ucalığını sevirəm.

**II**

Cəmiyyətdə Birinci olmaq istəyirəm –
İnsanlardan yüksək görünmək istəyirəm.

İnsanilikdə Birinci olmaq istəyirəm – İnsan olmaq istəyirəm!

**III**

Ali Təbəqəyə məxsus olmaq istəyirəm –
Adi təbəqədən fərqlənmək istəyirəm.
İnsan olmaq istəyirəm – Təbəqələrdən Üstün olmaq istəyirəm.

## 170. ƏN NADİR İSTEDAD

İnsanlıq istedadı.

## 171. İSTEDAD MEYARI

Yalnız cəmiyyətə gərək olan istedad – kiçikdir!
İnsaniyyətə gərək olan istedad – böyükdür!
Cəmiyyət kiçik istedadı sevir, böyük istedadı lənətləyir.

## 172. İNSAN İTKİSİ

Kapitalizm – İnsanı həyat uğrunda döyüşdə itirdi.
Sosializm – İnsanı Ümumi dövlət xidmətçiliyində itirdi.
İnsan cəmiyyətdə itib – Amalda yaşayır – özünü tapacaq, özünə çatacaq!

## 173. İNAMSIZLIQ – İNAM

Cəmiyyətin İnsan yaratmağına İnam qalmadı.
İnsansız cəmiyyətin ədalətli olacağına İnam qalmadı.
İnsana İnam qaldı.
İnsan özünü yaradacaq!
İnsan özünə layiq Birlik yaradacaq!
***Yalnız İnsani Birlik Ədalətli ola bilər.***

## 174. İNSANLIQ VAXTI

Təzadlı Bəşər!
Tarixin Qədim, nailiyyətlərin Zəngin, fəqət Mütləqdən kiçik!
Zahirə uymusan – Batindən uzaqlaşmısan!
Cismaniyə uymusan – Ruhanidən uzaqlaşmısan!
Heyvandan ayrıla bildin.
İnsanlıq vaxtıdır!

... Dağlar aşdım, Məskənə çatdım, Həqiqəti tapdım.

*7-ci ilin İşıq ayı.*
*(May, 1985) Bakı.*



# RƏMZLƏR

**(Doqquzuncu Qutsal Kitab)**

**1. AYIQ – KEFLİ.** Kefli İsgəndəri eşitmədilər. Çünki kefli idilər. İçərilərində ayıq olan bircə adam vardı: Kefli İsgəndər.

**2. MƏCNUNLUQ.** Məcnun əslində *Mütləqi* sevirdi. Ancaq elə bilirdi Leylini sevir.

**3. QURAN.** İdraki baxımdan – cəfəngiyyatdır.
Ancaq orda Məhəmmədin Heyrətli və Müqəddəs Harayı yaşayır.
*Həmin Haray – Quranı yaşadır.*

**4. PROMETEY "RÜSVAYÇILIĞI".** Prometeyi od oğrusu adlandırıb – rüsvay eləmək olar.
Təki düşmən peyda olsun!

**5. DİNİ XURAFAT.** O Dünya xülyası.
Yeri-göyü yaradan Allah ideyası.
*İki böyük yalan.*

**6. NƏSİMİ.** Zəmanəsini saymadı. Dərisini soydular.

**7. QANDİ.** Siyasəti müqəddəsləşdirmək istədi – öldürüldü.

**8. MUĞAM.** Pillə-pillə, addım-addım Mütləqə yüksəlmək, Mütləqə qovuşmaq, Mütləqləşmək!

**9. AŞIQ SƏNƏTİ.** Mərdlik və incəlik.
*Qılınc şaqqıltısı və ləlimək.*

**10. ƏRƏB RUHU (Musiqi əsasında).** Təzadlı, gah qalxan, gah enən, dalğalı, çılğın, haykırtılı!

**11. TÜRK RUHU (Musiqi əsasında).** Rəvan, Bütöv, Dəyişməz, Sabit, Səbatlı, Həzin, Sərt, Məsum, Qəti.

**12. AXİLLESİN DABANI.** Axilles – Allah ola bilərdi.
Bu səbəbdən də Daban xəyanəti törədildi.
İstəmədilər ki, insan Allah olsun.

**13. HERAKL HÜNƏRİ.**
Allah olmaq üçün Allahlığını Allahlara göstərməlisən.
Herakl Allahlığını sübut etdi.
*Yarımallah idi – Allah sayıldı.*

**14. PEYĞƏMBƏR QƏBAHƏTİ.** 4 arvada yiyələnən Məhəmməd unutdu ki, varisləri 400 arvada yiyələnəcək və hərəmxana murdarlığı yaranacaq. Məhəmmədin balaca səhvi Şərqi bədnam etdi.

**15. "İLİADA".** Həyat haqqında dastan.

**16. "ODİSSEYA".** Məişət haqqında dastan.

**17. OTELLO İNAMI.** Otello inanmırdı ki, onu aldadarlar. Bu səbəbdən də Yaqo onu aldatdı.
*Otello özünə həddən artıq inandığı üçün aldandı.*

**18. İSGƏNDƏR ÖLÜMÜ.** – Mənə kömək edin, alimlər, filosoflar – qoymayın ölüm!
Xəzinədar, xəzinəmi yoxsullara payla – Allahlara dua oxusunlar – ölməyim!
Öldürməyi bacarırdı İsgəndər, *ölməyi bacarmadı.*

**19. SOKRAT "GÜNAHI".** – Cavanları yolundan azdırır.
– Allahları danır.
*Bütün filosoflara oxunan ittiham!*

**20. ARİSTOTEL "HƏQİQƏTİ".** – Platon mənə əzizdir, ancaq Həqiqət ondan da əzizdir.
*Nankor tələbələrin əzbərlədiyi kəlam.*

**21. JAVER HƏYATI.** Javeri yaşadan Jan Valjanın "cinayətiydi".
Həmin "cinayət" ölən kimi Javer də öldü.

**22. MƏHƏMMƏD – İSA.** Məhəmmədin Əbu-Bəkr kimi taciri, Xalid kimi sərkərdəsi vardı.

İsanın heç nəyi yox idi.
*Buna görə də İsa Məhəmməddən qüdrətliydi!*

**23. KOROĞLULUQ.**
Koroğlu Həmzəyə inanmasaydı – Koroğlu yox, Həmzə olardı.

**24. DİV ÜRƏYİ.** Divin ürəyi özündən kənardadır, bu səbəbdən də qəddarlığında sərbəstdir.

**25. UŞAQ GÖZÜ.**
Uşaq *kralın lütlüyünü* ona görə gördü ki, həyata öz gözüylə baxdı.

**26. ÇEXOV.** "Altı nömrəli palata".
*Mənəvilərin* yeri – dəlixanadır, qeyrilərin yeri – cəmiyyət!

**27. YAN QUS.** Məsumluğun müqəddəslik səviyyəsi.

**28. BAB.** Meyidini itlərə yem elədilər, itlər!

**29. HACI MURAD.**
Ölməliydi! Nə *Şamilə* silahdaş ola bildi, nə *Nikolaya* kölə.

**30. ROMANIN SÜQUTU.**
*Sezar ölən günü Romanın ölümü başlandı.*
Ancaq Roma imperiyası bu hadisədən sonra yarandı...

**31. OYUNA SƏCDƏ.** Aktyorlara səcdə – oyuna səcdədir.
İdmana səcdə – oyuna səcdədir.
*Müasirlər – oyuna tapınırlar.*

**32. KVAZİMODO.**
Əgər Kvazimodo sevilsəydi – qadınlar allaha bərabər olardı.

**33. NİZAMİNİN İSGƏNDƏRİ.** Fateh ola bilməyən.

**34. NİZAMİNİN BƏHRAMI.** Əyyaş ola bilməyən.

**35. BÜLBÜL GÖZƏLLİYİ.**
Bülbül gözəldir, ancaq gözəlliyi görünmür. Çünki Aşiqdir.
*Aşiqin gözəlliyi görünməz, eşqi görünər.*

**36. SPARTAK.**
Qul olmaq istəmirdi. Bu "cinayətdən" ötəri dara çəkdilər.

**37. PEYĞƏMBƏRLİK AQİBƏTİ.** *Peyğəmbərlər getdilər – natiqlər qaldılar, alimlər qaldılar, şairlər qaldılar.*
*Dağ uçdu – daşlar qaldı.*

**38. ALLAHLILAR.**
"Mənəm Allah!" – deyənlər əslində Allahı ən çox sevənlərdir.

**39. İSANIN ANASI.** Məryəm – adi qadın idi, ancaq İsanın anasıydı. Bu səbəbdən də isaçılar onu müqəddəsləşdirdilər.
*İsanın anası – adi qadın ola bilməzdi!*

**40. QƏRB UÇURUMU.** Kafka, Coys bədbinliyindən sonra Uçurum gəlir.
Ekzistensializm sitəmindən sonra Uçurum gəlir.
Qərb uçurumamı düşəcək, gerimi qayıdacaq, *yoxsa Şərqəmi üz tutacaq?..*

**41. MƏHKUM HAKİMLƏR.**
Kafka və Coys bəşəri Məhkəmə ayağına çəkdilər.
Ancaq hakim ola bilmədilər. Çünki İnamsız idilər, Amalsız idilər.
*Məhkumlardan artıq deyildilər.*

**42. QEYRƏTSİZLİK ÇEŞİDLƏRİ.**
İnsan təkcə ağlaya-ağlaya qeyrətsiz olmur.
O, həm də gülə-gülə qeyrətsiz olur.

**43. DON JUAN "QƏLƏBƏSİ".** Kişilər öz həmcinsləri üzərində qələbə çalmayanda qadınlar üzərində qələbəsiylə qürrələnirlər.
*Erkəklik – kişilik sayılır.*
*Dişilik – qadınlıq sayılır.*

**44. CƏMİYYƏT ZƏNCİRİ.** İnsanı zəncirləyən cəmiyyət sərsəridir. Sərsəri cəmiyyəti zəncirləyərlər.

**45. BİÇİM – MƏZMUN.** Adi Həyat – Biçim.
Ali Həyat – Məzmun.

**46. İTİ GÖZ.** Zülmətə düşənlərin Gözü daha iti olmalıdır.

**47. ZİNDANLILAR.**
*Zindanlılar üçün Zindandan başqa Dünya yoxdur.*
*Zindanlıların Ruhu kordur.*

**48. YAŞAMAMAQ!** Körpə yaşamır – *yerimək öyrənir.*
Cavan yaşamır – *yaşamaq öyrənir.*
Yetkin yaşamır – *yaşamaq uğrunda çarpışır.*
*Qoca yaşamır – yaşamaq üçün çalışır.*

**49. ÖLMƏZLƏRİN ÇOXU.** *Çiçək Qurusu – Herbari.*

**50. CƏMİYYƏT – ÜLVİYYƏT.**
Həyatda Ülvi nə varsa – Cəmiyyətdən üstündür.
Bu səbəbdən də cəmiyyət Ülviliklə əbədi müxalifdir.

**51. İKİLİ DÜNYA.** *Hamletçilik: Dünya Ali Mənasından ayrılıb.*
*Don Kixotçuluq: Mənadan başqa Dünya yoxdur.*

**52. ÖLÜMÜN QİYMƏTİ.** Sokratın Ölümü Dünyanı sarsıtmadı.
*Çünki Sokratın şəxsində Fikrə qıydılar.*
İsanın ölümü Dünyanı sarsıtdı.
*Çünki İsanın şəxsində Ruha qıydılar.*

**53. NERON – PAVEL.** Neron Paveli Cismən öldürməsəydi, Pavel Neronu mənən öldürəcəkdi.

**54. ALLAHLAR.** Homerin Allahı – Adam.
İsanın Allahı – İnsan.

**55. ŞƏRİN SƏYİ.**
Həqiqətçilərin sinələrinə dağ çəkdilər. *Sinə Dağı müqəddəsləşdi.*

**56. PEYĞƏMBƏR TALEYİ.**
Kimliyini çarmıxa çəkiləndən sonra bildilər. *Çarmıx müqəddəsləşdi.*

**57. HOMERİN DEMƏDİYİ.**
İnsan öz taleyini kənardakı qüvvəyə tapşıranda oyuncağa çevrilir.

**58. EDİPİN GÖRMƏDİYİ.**
İnsanın taleyini əvvəldən hazırlayırlar...

**59. HƏYAT – HƏYATDAKILAR – AMAL.**
Həyatdakı Ocaqlar gec-tez sönür.
Ancaq Həyat Ocağı daim yanır.
Həyat Ocağı başqa Ocaqları yandırıb kül eləyir.
Ancaq Amal Ocağına gücü çatmır.

**60. HƏYAT SAKİNLƏRİ.** Həyatı sevənlər.
Həyata yiyələnənlər. Həyata enənlər.

**61. QƏLƏBƏ – MƏĞLUBİYYƏT.** Qədim Roma əslində Karfageni yerlə yeksan edəndə yerlə-yeksan oldu.

**62. İNSAN OLMAYAN.** Qədim Romalı qulu insan saymadı, ona görə də özü İnsan olmadı.

**63. NİTSŞE.** Yırtıcılıq carçısı.

**64. HEGEL.** Məntiqli Dünya yaradıcısı.

**65. KANT.** Dünyanın Zəkada itməsi.

**66. SPİNOZA.** Mütləqləşən təbiət.

**67. PLATON.** Kölgələşən Həyat.

**68. BUDDA.** Öldürülən Həyat – Kamilləşən İnsan.

**69. ZƏRDÜŞTÇÜLÜK.** Əsatirdən yaranan Din.

**70. İSLAM.** Dindən yaranan əsatir.

**71. İSAÇILIQ.** Ölümdən yaranan dirilik.

**72. SUFİLİK.** *Ruhani kamillik İlahiliyi.*

**73. HÜRUFİLİK.** *İnsanın İlahi var olması.*

**74. ALLAH.** Əslində anti Mütləq.
*İnamın Xurafat Biçimi.*

**75. ATEİZM.** Allaha Şübhə pərdəsi altında – Mütləqə Şübhə.
Dinə Şübhə pərdəsi altında – Müqəddəsliyə Şübhə.

**76. KİLSƏ.** Maddiləşən "Müqəddəslik".

**77. MƏSCİD.** Mütiləşən "İnam".

**78. DİNİ BAYRAMLAR.** Kədərli Bayağılıq.

**79. DİNİ MATƏMLƏR.** Kütləvi Zarıma Səfaləti.

**80. ŞAXSEY – VAXSEY.** Vəhşi Ehtizaz.

**81. RƏSMİ NÜMAYİŞLƏR.** Sürüləşənlər axını.

**82. DÖVRAN MÜQƏDDƏSLƏRİ.** Nisbi Mütləqlər.

**83. MÜKAFAT LƏYAQƏTİ.** Maddi Ruhanilik.

**84. YUBİLEY SƏXAVƏTİ.** Rəsmiləşən şöhrətpərəstlik.

**85. RÜTBƏ "ÜLVİYYƏTİ".** İfaçılıq ölçüsü.

**86. VƏSİQƏ KƏRAMƏTİ.** Möhürlənən qabiliyyət.

**87. ZORLA SƏDAQƏT**. Xəyanət.

**88. DOĞMALIQ.** Cismani doğmalıq – cismin yaratdığı.
Ruhani doğmalıq – ruhun yaratdığı.
Birinci – təbiətin məhsuludur, ikinci – insanın.

**89. DÜNYA – MƏNA.** Dünya – cismanidir.
Dünyanın Mənası – ruhanidir.

**90. VƏTƏN.** Ruhun gördüyü.
Ruhun sevdiyi.
Ruhun inandığı.
Torpağın Ali Mənası.
Tarixin Ali Mənası.
Mütləqin yaxınlığı.

**91. VƏTƏNSİZLİK.** Doğulduğun yer sənə doğma deyilsə,
Doğmalar sənə doğma deyilsə,
Vətənsizsən!
Vətənsiz yaşamaq olmaz!
*Vətəni axtar – tap, tapmasan – yarat.*

**92. MÜQƏDDƏSLƏR.** Sel kimi axdılar Dünyaya.
Sel kimi çəkildilər Dünyadan!
Sel olmağı gözləyirlər – Təzədən axsınlar Dünyaya!
*Yusunlar Dünyanın Çirkabını.*

**93. UÇAN BİNALAR.** Qəddarlıq üzərində Bina ucaltdılar.
Qorxu üzərində Bina ucaltdılar.
Yalan üzərində Bina ucaltdılar.
İnsanlıq üzərində Bina ucaltmadılar.
Buna görə də Tarixi Binaların hamısı uçdu.

**94. GEDƏNLƏR – GƏLƏNLƏR.** İsa getdi – Borçia gəldi.
Şəhvət həqarətində qızına ərlik elədi.
Məhəmməd getdi – Yezid gəldi.
Şöhrət həqarətində dindaşını tikə-tikə doğradı.
*Müqəddəsçilər getdi – həqarətçilər gəldi.*

**95. BABƏKLİK.** Azmanla Döyüş Fərəhi.

**96. YAN QUS.** Həqiqi Yanan.

**97. NAPOLEON.** Tarixə yarayan xudbinlik.

**98. HİTLER.** Mistik qatil.

**99. STALİN.** Dahi kommunist Diktatoru.

**100. TOLSTOYÇULUQ.** Peyğəmbər müavinliyi.

**101. DOSTOYEVSKİ.** Xəstə bəşər haqqında hekayət.

**102. ŞEKSPİR.** *İdeal həyatilik.*

**103. BAYRON.** Möhtəşəm bədbinlik.

**104. BETHOVEN.** *Taledən üstün.*

**105. MOTSART.** *Sevincə tərəf qaçan körpə.*

**106. BAX.** *Müqəddəs Ruhani Hallar Ahəngi.*

**107. RAFAEL.** Səmalaşan Yer.

**108. MİKELANCELO.** Allahlaşan İnsan.

**109. LEONARDO DA VİNÇİ.** Əsrarlaşan qadınlıq.

**110. "KİTABİ – DƏDƏ QORQUD".** Qoçaq günlər həsrəti.

**111. BALZAK.** Üzdəkini görən.

**112. GÖTE.** Üzdəkinə inanmayan.

**113. CORDANO BRUNO.** Canından keçə bilən.

**114. QALİLEY.** Canını qurtara bilən.

**115. DARVİN.** Mahiyyətdən ayrılmış təbiət.

**116. KOPERNİK.** Yerin "yerində oturdulması".

**117. ŞOPEN.** İntim Ülvilik.

**118. FRANSA İNQİLABÇILARI.** Qırğın Şərinin qurbanları.

**119. MARKSİZM.** Mülkiyyətsizlik səadəti.

**120. HEYVANİLİK – İNSANİLİK.**
Ruh bədənə tabe olanda – Heyvanilik peyda olur.
Bədən Ruha tabe olanda – Ruhanilik peyda olur.

**121. MEDEYA.** Arvadlığın Analığı üstələməsi.

**122. ZEVS.** *Müqəddəs Hərcayi.*

**123. APOLLON.** *Zəkaya Allahlıq eləyən.*

**124. YUNAN İDEALI.** Çoxcəhətli Qeyri-Kamillik.

**125. HİND İDEALI.** Birtərəfli kamillik.

**126. YUNAN SƏMAVİLİYİ.** Yer.

**127. HİND YERİ.** Səma.

**128. VENERA.** Məhəbbətə İlahəlik eləyən.

**129. YUNAN XƏYALI.** Gerçəkliyə bərabər olan.

**130. HİND XƏYALI.** Mahiyyətə bərabər olan.

**131. HÜRMÜZD.** İşıqlılar.

**132. ƏHRİMƏN.** Zülmətlilər.

**133. İBLİS.** Adamda yaşayan – İnsanda ölən.

**134. MƏLƏK.** Anaya bənzəyən.

**135. TİLSİM.** Şübhə.

**136. SİMURQ QUŞU.** İnam.

**137. QUYU.** *Naşılıq.*

**138. CƏHƏNNƏM.** Qəbahətin yaratdığı.

**139. CƏNNƏT.** Səfalətin yaratdığı.

**140. ELM.** Cismani münasibətlər haqqında Bilik.

**141. FƏLSƏFƏ.** Ruhani münasibətlər haqqında Təlim.

**142. ALİM.** Bilən.

**143. FİLOSOF.** Görən.

**144. ELMİ CƏHALƏT.** Kainatı tanımayan.

**145. FƏLSƏFİ CƏHALƏT.** İnsanı tanımayan.

**146. PLATONİZM.** *Hindli təfəkkürü.*

**147. ŞUMER.** *Bəşərə yarayan – Özünə yaramayan.*

**148. FÜZULİ.** Məhəbbət Səhrasına çəkilən.

**149. NİZAMİ.** Şeirə sahib olan.

**150. NƏSİMİ.** *Özünü Tanıyan.*

**151. NƏİMİ.** *Mütləq Mömin.*

**152. ÇİNGİZXANLAR – TEYMURLƏNGLƏR.**
Heç nəyə Sahib olmayanlar.

**153. ƏRƏB SƏADƏTİ.** Məhəmməd.

**154. TÜRK FƏLAKƏTİ.** *Peyğəmbərsizlik.*

**155. ƏRƏB MƏĞLUBİYYƏTİ.** Xilafət.

**156. PAPAÇILIQ.** Murdarlaşan İsaçılıq.

**157. LÜTERÇİLİK.** Adiləşən İsaçılıq.

**158.RUS ÇARLIĞI.** *Qoyunlaşan əhali – Canavarlaşan Hakim. Əşyalaşan əhali – Harınlaşan Hakim.*

**159. KALİQULA.** Mütləq Hakimiyyət rəmzi.
*(Atını nazir təyin etmişdi).*

**160. İMPERİYA AQİBƏTİ.** İmperiyalar dəhşətli Vətənsizlik yaradır. Buna görə də məhv olur.

**161. ZÜLM.** *Mütiliyin Qiyməti.*

**162. İNQİLAB.** *Mütiliyin astarı.*

**163. İNTİBAH.** *İnsanlaşma...*

**164. İNQİLAB – İNTİBAH.** İnqilab Külək tək əsir.
İntibah – Ağac tək bitir.

**165. DƏRK OLUNMAMIŞ HƏQİQƏT.** Öldürən – ölür.
Yaşadan – Yaşayır.
Düşməni öldürərlər – Yəni Vətən yolunda ölərlər.
Dostu yaşadarlar – Yəni Vətən üçün yaşayarlar.

**166. NADİR ƏCAYİBLİK.** Döyüş – yırtıcılıq ehtizazı yaradır.
Döyüş – insandakı yırtıcılığa meydan açır.
Bu baxımdan o, Antiinsanidir.
*Döyüş – həm də qorxmazlıq, mətanət, iradə rəmzidir*.
Döyüşdə Mənəviliklə Yırtıcılıq birləşir.
*"Yırtıcı mənəvilik" yaranır.*
*Nadir əcayiblik yaranır.*
*Döyüş məcburiyyəti İnsanlığa baha başa gəlir.*

**167. FORMALAŞAN HƏYAT.**
*İdman* – Məqsədə çevrilmiş Vasitə.
*Rütbə* – Məqsədə çevrilmiş Vasitə.
*Vəzifə* – Məqsədə çevrilmiş Vasitə.
*Vəsiqə* – Məqsədə çevrilmiş Vasitə.
*İqtisadiyyat* – Məqsədə çevrilmiş Vasitə.
*Cəmiyyət* – Məqsədə çevrilmiş Vasitə.

**168. TƏVAZÖKARLIQ.** *Ləyaqətli Məğrurluq.*

**169. MƏĞRURLUQ.** *Müqəddəsliyə Səcdə.*

**170. TOLSTOY SÖZÜ.** *Mütləqin nişanələri necə gözəldir!*
*Həyat Mütləqlə müqayisədə necə sönükdür!*

**171. FLOBER ETİRAFI.**
Cəmiyyət heç madam Bovariyə də yaramır.

**172. DOSTOYEVSKİ FƏRYADI.** Allahsız İnsan – Yetimdir.

**173. MOPASSAN MƏLUMATI.**
Kişilər qadınlara bədənlərini satmağa başladılar.

**174. NİTSŞE YALANI.** “Pişik olmaqdansa, Şir olmaq yaxşıdır!”
*Nə pişikdən, nə də şirdən İnsan olmaz!*

**175. RUSSO XÜLYASI.**
“İnsan anadan xeyirxah doğulur – ancaq cəmiyyət onu pozur!”
İnsan anadan xeyirxah doğulsaydı – qəddar cəmiyyət yaratmazdı.

**176. ÜMUMİÇİLƏR.**
“Bütün bəlaların səbəbi – xüsusi Mülkiyyətdir!” – dedilər.
“İnsaniyyətdir” – demədilər.

**177. NOVRUZƏLİ.** Poçta qutusuna düşən!

**178. SABİR.** Gülə-gülə qamçılayan!

**179. FƏRHAD.** Xəyanətlə mükafatlanan.

**180. EKZİSTENSİALİZM CƏFƏNGİYYATI.**
“Dünya (İnsani Dünya) – cəfəngdir!” – deyirlər.
İnsanın günahını Dünyanın üstünə yıxırlar.
*Bəs Kamil İnsan bu cəfəng Dünyanı necə yaratdı?*

**181. MADDİYYATÇI YALANI.** “Maddi Tərəqqi Mənəvi Tərəqqinin əsasıdır!” – dedilər və maddiyyat yürüşündə İnsaniliyi itirdilər.

**182. NAİLİYYƏT.** Çarizmi məhv etdilər, ancaq Çar İmperiyasını qoruyub saxladılar.

**183. ÜMUMİÇİ MƏNTİQİ.**
*Heç kəs heç nəyə malik olmayanda hər kəs hər şeyə malik olacaq!*

**184. AZƏRBAYCAN.** *Türklərin əzəli Vətəni!*

**185. PYOTR RUSİYASI.** Antidemokratik Avropa.

**186. DEKABRİZM.** Demokratik Avropa uğrunda döyüş.

**187. KAPİTALİZM.** *Şəxsi Mülkiyyət və demokratiya.*

**188. SOSİALİZM.** İctimai Mülkiyyət və totalitarizm. (Mütləq Dövlət Hakimiyyəti).

**189. FAŞİZM.** Milli zadəganlıq, sosial-darvinizm (Güclünün gücsüz üzərində "haqqı"), fürerçilik (rəhbərçilik), terrorçuluq.

**190. SOSİAL-DEMOKRATİZM.**
*Təbii şəkildə sosialistləşən kapitalizm.*

**191. SİVİLİZASİYA VƏDİ.** *Şəxsiyyət Haqqı. Demokratiya, Maddi Tərəqqi, Elmlik.*

**192. İRQÇİLİK.** *Yırtıcı "Üstünlüyü".*

**193. TEXNİKİ MÖVHUMAT.** *Maşına tapşırılan Bəşər.*

**194. SƏNAYE CƏMİYYƏTİ.** *Maşınlaşan Həyat.*

**195. SƏNAYE ZƏRURİYYƏTİ.** *İnsaniliyə gərək olmaq.*

**196. RUHANİ NƏŞƏ.** Ruhu Hərcayi Nəşədən qorumaq.

**197. RUHANİ SEVİNC.** Ruhu Hərcayi Sevincdən qorumaq.

**198. RUHANİ MÜNASİBƏT.** *İnsanlaşdırmaq.*

**199. RUHANİ QƏLƏBƏ.** *İnsanlaşmaq.*

**200. RUHANİ LƏYAQƏT.** *İmtina.*

**201. RUHANİ DAVRANIŞ.** *Müqəddəslik.*

**202. RUHANİ CƏMİYYƏT.** *İnsanlar cəmiyyəti.*

**203. RUHANİ İNKAR.** İnsanlığın Təsdiqi.

**204. RUHANİ TƏSDİQ.** Heyvanlığın İnkarı.

**205. SƏCİYYƏLƏR.** Şah – Hökmlü.
Sərkərdə – Qılınclı.
Alim – Bilikli.
Şair – Sözlü.
Peyğəmbər – Ruhlu.
Şah başqa biçimdə bu gün də yaşayır.
Sərkərdə başqa biçimdə bu gün də yaşayır.
Alim başqa biçimdə bu gün də yaşayır.
Şair başqa biçimdə bu gün də yaşayır.
*Peyğəmbər yaşamalıdır, yaşatmalıdır.*

**206. ŞÖHRƏT – QÜDRƏT.**
Şöhrət olmasaydı – Qüdrət olardımı?
Şöhrət olmasaydı – Şöhrətdən böyük Qüdrət olardı.

**207. ŞÖHRƏT – HÖRMƏT.**
Şöhrət olmasaydı – Hörmət olardımı?
Şöhrət olmasaydı – Şöhrətdən böyük Hörmət olardı!

**208. MÜƏLLİMLƏR – FATEHLƏR.**
İsa həyatıyla öyrətdi.
Məhəmməd Harayıyla öyrətdi.
İsgəndər Qılıncıyla Fəth etdi – Öyrətmədi.
Napoleon Qılıncıyla Fəth etdi – Öyrətmədi.
Zorla Bəşəri Fəth etmək olar – Öyrətmək olmaz.

**209. SEZAR – POMPEY.**
Dost idilər. Hakimlik üstündə Düşmən oldular.
Hakimliyə yaradılar – Dostluğa yaramadılar.

**210. NERONUN ANASI.**
Neronu doğduğu üçün Neron tərəfindən öldürüldü.

**211. ARXİMED ƏRKİ.**
– Fatehə deyin gözləsin, məsələni həll edib qurtarım!
...Fatehə hörmətsizlik üstündə başını bədənindən ayırdılar...

**212. SEZARIN QATİLİ.**
Brut əslində Sezara əl qaldırmadı – Müstəbidliyə əl qaldırdı.
Ancaq Müstəbidliyi məğlub edə bilmədi.
Özü məğlub oldu.

**213. QƏDİM ROMALI.** Öldürməyi bacaran, ölməyi bacaran, hakimliyi bacaran, fatehliyi bacaran, İnsanlığı bacarmayan.

**214. İSANIN HƏMVƏTƏNLƏRİ.** – "İsanı öldürtməsən, İmperatora yazacağıq ki, İmperiya düşmənini qoruyursan!"
İsanın Həmvətənləri Əcnəbi Hakimini İsanı öldürtməyə məcbur elədilər...

**215. ROMA FƏLAKƏTİ.** Canavardan südəmmişlər.

**216. XALQ – XALQLAR.**
**I**. "Dünyaya Ağalıq eləməyən xalq – xalq deyil!" – deyirlər.
"Dünyaya Ağalıq eləyən xalq – xalq deyil!" – deyilməlidir.

**II.** "Ağalıq eləmirəm – Müəllimlik eləyirəm!" – deyirlər!
"Zorla Müəllimlik eləmək olmaz!" – deyilməlidir.
"Ağalıq eləmirəm – Qəyyumluq eləyirəm!" – deyirlər.
"Qəyyuma ehtiyacı olan xalq – xalq deyil!" – deyilməlidir.
"Ağalıq eləmirəm – Xilaskarlıq eləyirəm!" – deyirlər.
"Xilaskara ehtiyacı olan xalq – xalq deyil!" – deyilməlidir.

*Xalq varsa – Ağa Yoxdur, Zorakı Müəllim Yoxdur, Qəyyum Yoxdur, Xilaskar Yoxdur!*

**217. ÇAĞLAR.** Məhəmmədin Dəli sayılan çağı.
İsanın çarmıxa çəkilən çağı.
Sokratın zəhər içirtdirilən çağı.
Yan Qusun, Cordano Brunonun, Janna d'Arkın tonqalda yandırılan çağı.
Nəsiminin Dərisi soyulan çağı.
Naşılığın Məğlubiyyət çağı.

**218. ZƏRDÜŞT SÜRGÜNLÜYÜ.** Hürmüzd sürgünlüyü.

**219. XƏYYAM.** Həyatın Mütləq Dəyəri.

**220. FİRDOVSİ.** Qüvvətə Səcdə.

**221. SƏDİ.** Nəsihət şeriyyəti.

**222. HAFİZ.** Məhəbbətə sığınan.

**223. CƏLALƏDDİN RUMİ.** Şairanə Peyğəmbərlik.

**224. NİZAMİ GƏNCƏVİ.** Dünyalaşmaq qüdrəti.

**225. FÜZULİ.** Məhəbbətləşmək ülviyyəti.

**226. NƏSİMİ.** Mütləqə Yüksəlmək Müqəddəsliyi.

**227. XAQANİ.** *Zindanlanan – İnsanlanan.*

**228. ZÖHHAK.** Zülm Şəhvəti.

**229. MƏZDƏK.** Büt qıran.

**230. YUXU.** Qan tökənlər, zülm edənlər, ev yıxanlar, qəsd edənlər, qəsb edənlər çox yaşasaydılar, ayılardılar; görərdilər ki, yaşamayıblar.

**231. MUSA PEYĞƏMBƏR.**
Xalqını Misir əsarətindən qurtardı – Farisey əsarətinə saldı.

**232. HEROSTRAT.** Özünü şöhrətləndirmək istədi – yandırdığı Məbədin şöhrətini daha da artırdı.

**233. TARİXİN ÖYRƏTMƏDİYİ.**
Qul quldardan asılı olduğu dərəcədə **–** Quldar da quldan asılıdır.
Bu Həqiqəti tarix insanlara öyrətmədi.

**234. YADLIQ.**
Ruha xidmət edənlərlə bədənə xidmət edənlərin yadlığı – dəhşətdir!

**235. HENRİX İBSEN.** Cəmiyyət yalanının yaratdığı münaqişələr.

**236. MORİS METERLİNK.** "Tale səhv eləmir!" – fikrinin bədii ifadəsi.

**237. B. ŞOU.** Əcayibləşən Dünya.

**238. H. CAVİD.** Xəyalla Gerçəklik arasında Uçurumu görən.

**239. C.CABBARLI.** *Məhvərindən çıxan Dünya haqqında hekayət.*

**240. S. VURĞUN.** Çağlayan Təb!

**241. R. RZA.** Şair doğulmayan.

**242. V. MAYAKOVSKİ.** İnqilabın bağırtdığı...

**243. ŞİRİN.** Ləyaqətli, Sədaqətli Şah arvadı!

**244. LEYLİ.** Məcnunlaşan!

**245. İSGƏNDƏR – DİOGEN.**
İsgəndər: "İsgəndər olmasaydım, Diogen olardım!" – deyir.
*Diogen – İsgəndər olmağı heç ağlına belə gətirmir.*

**246. YAŞAMAYANLAR.** Fatehlər əslində yaşamırlar.
Assuriya Fatehləri – yaşamayıblar – zəbt ediblər, qarət ediblər, qırıblar, qırılıblar.
Roma Fatehləri – yaşamayıblar – zəbt ediblər, qarət ediblər, qırıblar, qırılıblar.
Ərəb Fatehləri – yaşamayıblar – zəbt ediblər, qarət ediblər, qırıblar, qırılıblar.
Fatehlik – yaşatmır və yaşamır.

**247. ATİLLA.** Dünyanı çaldı-çapdı, xalqına bir gün ağlamadı.

**248. DÖVLƏTSİZLİK.** Midiya Dövləti.
Şirvanşahlar Dövləti.
Şah İsmayıl Dövləti.
Heç birində Müstəqilliyimiz bütöv olmayıb!
Heç birində Taleyimiz öz əlimizdə olmayıb!

**249. DİN – TƏRİQƏT.** Rəsmiləşən Din Müqəddəsliyini itirəndə Təriqət peyda olur və Müqəddəsliyi yaşadır.

**250. ƏLAQƏ.** Zorla yaranan – Zor yaradır.

**251. YUNAN RƏMZİ.** Kentavr – yarıadam – yarıat.
Adam – yarıinsan – yarıheyvan.

**252. HURİLƏR-PƏRİLƏR.**
Çılğın Ərəb Xəyalına damızdırılan Şirni.
Şəhvətli Din Murdarlığı.

**253. O DÜNYA MÜKAFATI.** Bu dünya Təmənnası.

**254. XİLAFƏT.** Dinsizlik.

**255. SƏLİB YÜRÜŞLƏRİ.** İsanın ikinci edamı.

**256. BİRİNCİ DÜNYA MÜHARİBƏSİ.** Dünyanı bölə bilməmək.

**257. İKİNCİ DÜNYA MÜHARİBƏSİ.** Dünyanı qoruya bilməmək.

**258. RUZVELT.** Avropanı Stalinə bağışlayan.

**259. ÇÖRÇİL.** Ayılanda – ayıldan.

**260. NÜVƏ SİLAHI.** İnsandakı Yırtıcının təntənəsi.

**261. TƏZƏ MÜHARİBƏ QORXUSU.** İki Ağalıq Münaqişəsi.

**262. XRUŞŞOV.** Kommunist Həmzəsi.

**263. MAOÇULUQ.** Kommunist şiəçiliyi.

**264. DE QOLL.** Fransanı Müttəfiqlərin əlindən alan.

**265. İOSİP BROZ TİTO.** Yuqoslaviyanı Xilaskardan xilas eləyən.

**266. MUSSOLİNİ.** Hitlerin sonralaşdırdığı...

**267. BİSMARK.**
Od və qılıncla yaratdığı Almaniya Od və qılıncla parçalandı.

**268. HAKİMİYYƏT NÖVLƏRİ.** Şəxsi Monarxiya.
Xəlqi Monarxiya.
Partiya Monarxiyası.

**269. HAKİM NÖVLƏRİ:** Hökmdar. Sədr. Katib.

**270. İRAN İNQİLABI.** İranlıların Məhşər ayağına çəkilməsi.

**271. MÜASİR ƏRƏBLƏR.** Məhəmməddən əvvəlkilər.

**272. MÜASİR YƏHUDİLƏR.** İsadan əvvəlkilər.

**273. MÜASİR YAPONLAR.** Samuraylaşanlar.

**274. MÜASİR HİNDLİLƏR.** Buddadan əvvəlkilər.

**275. MÜASİR ALMANLAR.** Bismarkdan əvvəlkilər.

**276. MÜASİR FRANSIZLAR.** De Qolldan sonrakılar.

**277. MÜASİR İSPANLAR.** Frankodan sonrakılar.

**278. MÜASİR PORTUQALLAR.** Salazardan sonrakılar.

**279. MÜASİR ÇİNLİLƏR.** Maodan sonrakılar.

**280. MÜASİR ÇEXLƏR.** “Bahar”dan sonrakılar.

**281. MÜASİR POLYAKLAR.** “Həmrəylik”dən sonrakılar.

**282. MÜASİR MACARLAR.** İntibahdan sonrakılar.

**283. LATIN AMERİKASI.** Qaranlıqdan Məchulluğa yüyürən.

**284. AFRİKA.** Qəzəbli Möhtaclar.

**285. AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI.** *Sənayeləşən Roma.*

**286. KOMBOCA FƏLAKƏTİ.** Sabahkı səadət.

**287. MÜASİR AZƏRBAYCAN ZİYALISI.** *Səhlləşən.*

**288. MİR CƏFƏR BAĞIROV.** Sovet Malyuta Skuratovu.

**289. AZƏRBAYCAN DƏRDİ.** Yaranışından yaralanmaq!

**290. MÜASİR TÜRKLƏR.** Təklənmişlər.

**291. KÖNÜLLÜ BİRLƏŞMƏ.** Kölələşmə.

**292. TARİXİ DƏRS.** Müstəqil yaşaya bilmirsənsə – yaşama!

**293. ƏSRİN ƏVVƏLİ.** Fərəhli Sərməstlik.

**294. ƏSRİN SONU.** Kədərli Ayılma.

**295. LOKOMOTİVLƏR.** Əgər Tarixin Lokomotivi İnqilabdırsa – onda Təbiətin Lokomotivi Zəlzələdir!

**296. DƏBLƏR.** Cahangirlik dəbi vardı.
Quldarlıq dəbi vardı.
İnqilabçılıq dəbi düşüb!

**297. HAMILIQLA AKTYORLUQ.** Cəmiyyətdə Hamı Aktyordur. Aktyorluq eləməyəni cəmiyyətdən qovurlar.

**298. SƏNƏT.** Mənanın gözəllik səviyyəsi.

**299. SERVANTES.** Don Kixotu təsvir edən, ancaq dərk etməyən.

**300. FAUST.** İblisə küsənən.

**301. BƏDİİYYATA SƏCDƏ.** İdraki Şəhvət.

**302. ƏRƏBLƏR – TÜRKLƏR.** Ərəb – Eyşə qurşanan.
Türk – Döyüşə qurşanan.

**303. KAMAL ATATÜRK.**
Türkiyəni Avropanın caynağından qurtaran və Avropalaşdıran.

**304. TARİXİ FƏLAKƏT.**
Atası olmayan Xalq – yetişmir, körpə qalır.
Körpə Xalq sevilmir – çığnanır.

**305. TÜRK AQİBƏTİ.** Türk Dövləti yarandı.
Türk Ailəsi Dağıldı.

**306. AZƏRBAYCANLILAR.** Rusiyalılar. İranlılar.

**307. QLADİATOR DÖYÜŞÜ.** Öldürülən İnsanlıq.

**308. TOREODOR HÜNƏRİ.** Dirilən Heyvanlıq.

**309. GÜLÜŞ.** Özgələşən Həyat.

**310. GÖZ YAŞI.** Doğmalaşan Həyat.

**311. VƏCD.** Müqəddəsləşən mənəviyyat.

**312. VƏHY.** Müqəddəsləşən İdrak.

**313. SƏCDƏ.** Müqəddəsləşən Vüqar.

**314. AŞİQLİK.** Müqəddəsləşən İnsan.

**315. MUSİQİ.** Ruhun sədası.

**316. ŞEİR.** Təbin söylədiyi.

**317. RƏSSAMLIQ.** Təbin gördüyü.

**318. PEYĞƏMBƏRLİK.** Ruhun söylədiyi.

**319. ATƏŞPƏRƏSTLƏR.** Atəşlilər.

**320. SOKRATIN SƏHVİ.**
"Zəkaya uyğun olan nə varsa – əxlaqidir!"
Zəkaya uyğun olan əxlaqsız Hadisələr dünyada o qədərdir ki!

**321. PLATONUN SƏHVİ.**
"Cəmiyyətin başında filosof durmalıdır!"
Cəmiyyətin başında həqiqətçi dura bilməz.
Çünki cəmiyyət Həqiqət tanımır!

**322. VİCDANLI MATERİALİST – DEMOKRİT.**
Maddiyyatda Ruh hissəcikləri axtarırdı.

**323. ANTİQONANIN DEMƏDİYİ...**
Pis bacıdan Yaxşı vətəndaş olmaz...

**324. AQAMEMNON.** Hünərə Hökm edən.

**325. AXİLLES.** Hökmə baş əyməyən.

**326. TERSEY.** Sevilməyən.

**327. ODİSSEY.** Hadisələrin əyə bilmədiyi.

**328. TARİXİN DƏRK ETMƏDİYİ...**
Özünə çatmaq üçün özündən Yüksəyə qalxmalısan.

**329. SEVİL.** Ailəsizlər.

**330. ALMAZ.** Aldananlar.

**331. YAŞAR.** Tələyə düşənlər.

**332. NUH GƏMİSİNİN SƏRNİŞİNLƏRİ.**
Təzə Dünya yarada bilmədilər.
Çünki Təzə İnsan deyildilər!

**333. APOKALİPSİS.** Dünya məhv olacaq və təzədən yaranacaq!
İnsandakı heyvan məhv olacaq və Təzə İnsan yaranacaq!

**334. TİSİAN. "MÜQƏDDƏS MAQDALİNA".** Ruhlaşma ehtizazı.

**335. REMBRANDT.** Mənanın təsviri.

**336. ÜZEYİRİN "KOROĞLU"SU.** Qədim Səs.

**337. RODEN.** Düşünən Daş.

**338. İMTİNA YAŞI.** Budda Cavanlıqda İmtinaya yüksəldi.
Pavel Yetkinlikdə İmtinaya yüksəldi.
Tolstoy Qocalıqda İmtinaya yüksəldi.
Müqəddəslərin Yaşı – İmtina Tarixindən başlanır.

**339. İKİÜZLÜ YANUS.** Həyat – ölüm.

**340. ÖMÜR.** Cavanlıq – Yavanlıq.
Yetkinlik – Ötkünlük. Qocalıq – Ucalıq.

**341. YADLIQDAN DOĞMALIĞA.** Qeyri-Kamillik – özünə yad olmaq. Kamillik – özüylə Doğmalaşmaq.

**342. TARİXİ SƏCİYYƏLƏR.**
Dördüncü İvan – Qıra-qıra Birləşdirən.
Stalin – Qıra-qıra "Yetkinləşdirən".
Yekaterina – Sürə-sürə "Mədəniləşdirən".
Birinci Nikolay – Soldatlaşan Rusiya.
İkinci Nikolay – Rasputinləşən Saray.
Dördüncü Lüdovik – Fransa şahı.
Şah Abbas – İran Kralı.

**343. TARİXİ QULDURLAR.** Puqaçov.
Razin.
Qaçaq Nəbi.
Teymurləng.
Çingiz xan.

**344. ACİZLİK.** Ölümün öldürməkdən başqa əlindən heç nə gəlmir!

**345. YAQO FƏRƏHİ.** "Dünya mənimdir!"

**346. DEZDEMONA KƏDƏRİ.** “Otellonu da aldatmaq olarmış!”

**347. TARİXİN BAŞI.** Tarixin başında Qatil durub, Əyyaş durub, Sərsəri durub, Paxıl durub, Xudbin durub, Yırtıcı durub, Murdar durub!..

**348. TARİXİN ƏTƏYİ.** Tarixin ətəyindən tutan – yarımayıb!

**349. TARİXİN QANTARĞASI.**
Tarixin qantarğasını əlində saxlayan olmayıb.

**350. TARİXİN ƏKS-SƏDASI.** Sədadan ya artıq, ya əskik!

**351. TARİXİN DƏRSİ.** Mənimsənilməyən!

**352. ÇALDIRAN DÖYÜŞÜ.**
Türk – türkə qarşı vuruşanda həmişə məğlub olub...

**353. PİRR QƏLƏBƏLƏRİ.**
Əslində Qılınc qələbələrinin çoxu – Pirr qələbələri olub.
Hannibalın Kannı – Karfagenin məhvini hazırladı.
Napoleonun Austerlisi – Vaterloonu hazırladı.

**354. MƏĞLUBEDİLMƏZLƏR.** Müqəddəslər Məğlubedilməzdir. Məhəmmədin Dinindən əl çəkmək olar – ancaq Məhəmmədi məğlub etmək olmaz!
İsanın Dinindən əl çəkmək olar – ancaq İsanı məğlub etmək olmaz!
Buddanın Dinindən əl çəkmək olar – ancaq Buddanı məğlub etmək olmaz!
Zərdüştün Dinindən əl çəkmək olar – ancaq Zərdüştü məğlub etmək olmaz!
Yan Qusu tonqalda yandırmaq olar – ancaq məğlub etmək olmaz!
Nəsiminin dərisini soymaq olar – ancaq Nəsimini məğlub etmək olmaz!

**355. QURAŞDIRILAN.** Şairdən Müqəddəs quraşdırırlar – alınmır!

Hakimdən Müqəddəs quraşdırırlar – alınmır!
İnqilabçıdan Müqəddəs quraşdırırlar – alınmır!
İrticaçıdan Müqəddəs quraşdırırlar – alınmır!

**356. BALACA İTLƏR.** İtlərin də böyükləri gedib – kiçikləri qalıb!..

**357. DÖVLƏT KƏLƏYİ.** Səndən aldığının bir hissəsini sənə qaytarır və “Mənə minnətdar ol!” – deyir.

**358. NAİLİYYƏTƏ ÇATAN.** Rəqs edən sirk ayısı!

**359. GÖRMƏDİYİ GÜNƏ DÜŞƏN.** Gözü hər şey görən.

**360. DÜNYAYA TANITDIRILAN.** Özünü tanımayan.

**361. QƏRİBLİYİMİZ.** Füzulinin Bağdadı...
Nəsiminin Hələbi...

**362. AĞ GÜNƏ ÇIXARILAN.** Tarixdən çıxarılan.

**363. SÜLH UĞRUNDA MÜBARİZƏ.**
Dünyaya Hakim olmaq üsullarından biri.

**364. FƏTH OLUNAN KOSMOS.** Talanan Yer.

**365. NÜVƏ SİLAHI.** Maddiyyatçılığın Təntənəsi.

**366. XİROSİMA.** Düşmənçilik məntiqi!

**367. STALİNQRAD.** Şəxsiyyətə pərəstiş!..

**368. TƏZƏ ƏKİNÇİLİK.**
Bir torpaqda becərilməyən toxumun bütün torpaqlara səpilməsi...

**369. DÜNYƏVİ SƏLTƏNƏT.**
Dünyanın başı üstünü almış Təhlükə.

**370. SİYASİ ƏMƏKDAŞLIQ.** Gizli düşmənçilik.

**371. SİYASİ XİLASKAR.** Təcavüzkar.

**372. SİYASİ FƏALİYYƏT.** İnsanı nəzərə almamaq.

**373. İNTENSİV DAXİLİ SİYASƏT.** Qlobalizm – Dünyəvilik.

**374. SEPARATİZM.** Milli azadlıq hərəkatının başqa adı.

**375. UZADILAN KÖMƏK ƏLİ.** Əliuzunluq.

**376. SİYASİ HAVADAR.** Gizli Hakim.

**377. BARIŞDIRANLAR.** Döyüşdürənlər.

**378. MÜASİR TƏVAZÖKARLIQ.** Gizli Lovğalıq...

**379. SİYASİ HAMİLİK.** Yiyəsizlik.

**380. SİYASİ HƏMRƏYLİK.** Rəysizlik.

**381. SİYASİ ÇEVİKLİK.** Gizlənmək Məharəti.

**382. SİYASİ FƏDAKARLIQ.** Gizli Xudbinlik.

**383. SİYASİ HƏQİQƏT.** Gizli Yalan.

**384. SİYASİ YETKİNLİK.** Avamlıq.

**385. RƏSMİ ŞÖHRƏT.** Gizli Xəyanət.

**386. SİYASİ BİRLİK.** Yoxluq.

**387. RƏSMİ SƏMİMİYYƏT.** Gizli Riya.

**388. RƏSMİ QİYMƏT.** Gizli Əsarət.

**389. RƏSMİ HÖRMƏT.** Gizli Təhqir.

**390. RƏSMİ NÜFUZ.** Gizli Qəbahət.

**391. RƏSMİ TARİX.** Gizli Əfsanə.

**392. RƏSMİ BÖYÜKLÜK.** Gizli Kiçiklik.

**393. RƏSMİ İGİDLİK.** Gizli Qorxaqlıq.

**394. RƏSMİ SƏADƏT.** Gizli Fəlakət.

**395. RƏSMİ NAİLİYYƏT.** Gizli Məğlubiyyət.

**396. RƏSMİ DOĞRULUQ.** Gizli Əyrilik.

**397. RƏSMİ MƏHƏBBƏT.** Gizli Nifrət.

**398. RƏSMİ İNAM.** Gizli Şübhə.

**399. RƏSMİ BİLİK.** Gizli Naşılıq.

**400. RƏSMİ NİKBİNLİK.** Gizli Bədbinlik.

**401. RƏSMİ UCALIQ.** Gizli Bataqlıq.

**402. YUNAN ALLAHLARI.** Adamlar.

**403. MİSİR ALLAHLARI.** Hərislər.

**404. TÜRK TANRILARI.** Şəfqətlilər.

**405. HİND ALLAHLARI.** Kamillər.

**406. TOTEM.** Özünütanıma.

**407. CƏVAHİRAT.** Özünüaldatma.

**408. TARİXİ SƏCİYYƏLƏR.** Roma sərkərdələri – Qoçaq.
İran hökmdarları – Möhtəşəm.
Ərəb xəlifələri – asi.
Hind kahinləri – məsum.

**409. ŞUMER.** Midiyalılaşan, Hindliləşən – *Bəşərləşən.*

**410. BALACA XALQLAR.** Böyüklüyündən ayrılanlar.

**411. DÜNƏNKİLƏR.** Rumınlar – dünənki Romalılar.
Macarlar – dünənki Hunlar.
Özbəklər, qazaxlar, qırğızlar – dünənki türklər.

**412. ŞAMİL.** Şərqi Şərdən qoruya bilməyən.

**413. TÜRKÇÜLÜK.** Zərdüşt Müqəddəsliyi.
Babək Hünəri.
Səlcuq Cəngavərliyi.
Osman Möhtəşəmliyi.
Rumi Ruhaniyyatı.
Nəsimi Fədailiyi.
Füzuli Bədiyyatı.
İsmayıl Qüdrəti.
Kamal Xadimliyi.

**414. ALMAN FACİƏSİ.** Zəkalı Qəddarlıq.

**415. FRANSIZ ADƏTİ.** Dəb yaymaq.

**416. HİND ADƏTİ.** Ruhlanmaq.

**417. İNGİLİS ADƏTİ.** Dövlətlənmək.

**418. AMERİKAN ADƏTİ.** Texnikləşmək.

**419. TÜRK ADƏTİ.** Halallıq.

**420. USTADLAR.** Ruminin – Şəmsi.
Nəsiminin – Nəimisi...

**421. MÜƏLLİM.** Platonun – Sokratı.

**422. ƏN MƏŞHUR MƏHKƏMƏ XADİMLƏRİ.**
İsaya ölüm Hökmü yazan romalı Pilat!..
Sokrata ölüm hökmü yazan yunan Melit.

**423. ƏN LƏNƏTLİ TƏLƏBƏ.** Müəllimini bir ovuc gümüşə satan İuda! Sonradan özünü asmağısa da bacardı!

**424. İNSANİLƏŞMƏ MƏQAMLARI.**
Daranın meyidi üstündə ağlayan İsgəndər!
Pompeyə yas saxlayan Sezar!

**425. LAOKOON.** Balalarını ölümdən qurtara bilmədisə də, balalarıyla bərabər ölə bildi.

**426. BALACA ADAM.**
Böyük adam tərəfindən öldürülən, sürdürülən.
İnsan tərəfindən böyüdülən, insanlaşdırılan.

**427. BÖYÜK DÜNYA.** Mənəviyyat.

**428. DANIŞSAYDILAR...** Dəniz deyərdi ki, “Məcrama sığmıram!”
Dağ deyərdi ki, “Ucalıq mənə azlıq eləyir!”
Göy deyərdi ki, “Yer üçün darıxmışam!”
Yer deyərdi ki, “Göy olmaq istəyirəm!”

**429. MÜRƏKKƏB İNSANSEVƏRLİK.** Əsərlərində İnsana hədsiz lənətlər yağdıran Bayron insan naminə Mossolut döyüşündə canından keçdi.

**430. ÖLMƏZLİK.** Ölməzlər ölməyi bacarırlar.

**431. TƏBİƏT – İNSAN.** Təbiət – düşündürən, İnsan – düşünən.

**432. HEÇ KƏSƏ QALMAYAN DÜNYA.**
"Dünya mən topalla, sən kora qalıb!"
(Teymurləngin Bayazidə dediyi).
Dünya nə Teymurləngə, nə də Bayazidə qalmadı.

**433. DİOGEN – BUDDA.**
Budda Diogen kimi İnsan axtarmırdı – İnsan yaradırdı.

**434. RÜSTƏMİ-ZALIN SƏYAVUŞU.** Səyavuşu Rüstəmi-Zal öldürmədi – dünyanın Savaş Vəziyyəti öldürdü.

**435. "ANNA KARENİNA".**
Cinsi Məhəbbətlə İlahi Məhəbbətin Münaqişəsi.

**436. DÜNYALAR.** Homer: Döyüşən Dünya.
Şekspir: Düşünən Dünya.
Füzuli: Sevən Dünya.
Balzak: İnsansızlaşan Dünya.

**437. "ŞAHNAMƏ".** Pəhləvanlıq Dastanı.

**438. "İLİADA".** Qəhrəmanlıq Dastanı.

**439. "ODİSSEYA".** Fərasətlik Dastanı.

**440. "İLAHİ KOMEDİYA".** İnsanlıq Dastanı.

**441. SƏDİNİN "GÜLÜSTAN"I.** Əxlaq Dastanı.

**442. NİZAMİNİN "XƏMSƏ"Sİ.** Dünya Dastanı.

**443. "KİTABİ – DƏDƏ QORQUD".** Ləyaqət Dastanı.

**444. "QİTA".** Müqəddəslik Dastanı.

**445. "QİLQAMIŞ".** Ruhani Möhtəşəmlik Dastanı.

**446. "ROLAND".** Cəngavərlik Dastanı.

**447. "KOROĞLU".** Qeyrət Dastanı.

**448. "HƏRB və SÜLH".** Həyat Dastanı.

**449. "FAUST".** Həqiqət Dastanı.

**450. ARİSTOFAN.** Gülən.

**451. MOLYER.** Güldürən.

**452. MOTSART – BETHOVEN.** Motsart – Həyata qovuşan. Bethoven – Həyata qarşı duran.

**453. QÜDRƏTLİ – QÜDRƏTSİZ.** Əsərini yandıran Qoqol – Qüdrətli!
Oğlunu öldürən İvan – Qüdrətsiz!

**454. VÜQAR.** Kimvr qadınları döyüşdən qaçan ərlərini öldürürdülər.

**455. HƏQİQƏT.**
**I.** "Çox söz deyə bilərdim Sizə – Qorxuram Qavramayasınız!"
(İsanın dediklərindən).
"Çox şey deyə bilərdim Sizə – Qorxuram Ağlayasınız".
(Məhəmmədin dediklərindən).
Qorxan – Həqiqətə çatmaz!

**II.** “Piyalədə İnsanın qəbahətini gördüm – Dəhşətə gəldim”.
(İsanın dediklərindən).
Dəhşəti görməyən – Həqiqəti görməz!

**456. GÖRÜNMƏK – GÖRMƏK.** “Görüm sən Osanmı?”
(İoannın İsaya dediyi).
O, görünür.
Onu görən tapılır.

**457. UZAQLIQ – YAXINLIQ.** Allahı bizə göstər!
(Tələbələrin İsadan tələbi).
Allah yanınızdadır – görmürsünüz!
(İsanın tələbələrə cavabı).

**458. MÜTLƏQ TƏLƏB.**
“Sən o Leyli deyilsən!” (Məcnun). Yəni Sən O deyilsən.

**459. MÜTLƏQ QİYMƏT.**
“Mən Onu sevdim və O oldum”. (Mənsur Həllac).

**460. O GÜN.** Yəni Mütləq gün.

**461. O SAAT.** Yəni Mütləq saat.

**462. ANLAMAQ HƏDDİ.**
Əgər yəhudilər İsanı başa düşsəydilər, İsa İsa olmazdı – Musa olardı.

**463. HİNDLİ.** Buddanı öldürməyən.

**464. FƏLAKƏTLƏR.** Tarixin sonrakı ağlı.

**465. TARİXİN GÖRDÜYÜ.** Baş kəsilib, göz çıxarılıb.

**466. HANNİBAL ANDI.** Hannibal Aqibəti.

**467. HƏYATA UYĞUNLAŞMAQ.** Amaldan uzaqlaşmaq.

**468. ƏZAB.** Əzabkeş Nəşəsi.

**469. TƏQİB.** Düşmən Mükafatı.

**470. DÖZÜM.** İradə Saflığı.

**471. XƏSİSLİK.** Naşılıq.

**472. QƏDDARLIQ.** Zəlillik.

**473. TƏŞƏXXÜS.** Əskiklik.

**474. BƏZƏK.** Xülya.

**475. ÖLDÜRÜLƏNLƏR.** Puşkin – Dueldə ölmədi, Sarayda öldü!
Lermontov – Dueldə ölmədi, Məclisdə öldü!
Cavid – sürgündə ölmədi, Yurdunda öldü!

**476. DAHİ YARARLIĞI.** Dar ağacına yaradılar.
Çarmıxa yaradılar.
Dustaqxanaya yaradılar.
Dəlixanaya yaradılar.
Lənətə yaradılar.
Nifrətə yaradılar.
İşgəncəyə yaradılar.
Yarıdılar...

**477. QİLYOTİNA.** İrticanın başını kəsmək üçün yaranmışdı.
İnqilabın başını kəsdi.
Robespyerin başını kəsdi...
Dantonun başını kəsdi...

**478. DOSTLARIN HEYBƏTLİ DÜŞMƏNÇİLİYİ.**
Robespyerin Qilyotinaya göndərdiyi Danton.
Qilyotinaya göndərilən Robespyer.

**479. FRANSIZ MAARİFÇİLİYİ.** Zəkalı Cəmiyyət İdealı.
(Kamil İnsan yaratmadan!)

**480. VOLTER.** İstehzayla nəfəs alan.

**481. ROMANTİKLƏR.** İnqilabın ağlatdığı.

**482. ŞİLLER.** Ülvi Üsyançı.

**483. GÖTE.** Həyatın fövqündə yaşayan.
Amala çatmayan.

**484. PEYĞƏMBƏR TƏQDİMATI.**
Peyğəmbərlər öz Böyüklüyünü təqdim etməli olurdular.
Çünki Zamanlarından böyük idilər.

**485. SÖZ – ƏMƏL.** Söz – Müqəddəsləşən Əməl.
Əməl – Gerçəkləşən Söz.

**486. İSTEDAD – İNSAN.** İstedad – yaradanda Mütləqləşir.
İnsan – yaşayanda Mütləqləşir.

**487. DƏBDƏBƏ.** Boşdur – Dolu görünür.

**488. HƏRİSLİK.** Əsirlik.

**489. ZORBALIQ.** Gücsüzlük.

**490. MÜDRİK – SƏFEH.** Müdrik Səfehdən öyrənməkdən utanmır, Səfeh Müdrikdən öyrənməkdən utanır.

**491. İGİDLİK.** Müdrik Ehtiyatsızlıq.

**492. 20-ci ƏSR – 21-ci ƏSR.**
20-ci əsrin İnamıyla 21-ci əsrə getmək olmaz.
20-ci əsrin İdrakıyla 21-ci əsrə getmək olmaz.

20-ci əsrin Mənəviyyatıyla 21-ci əsrə getmək olmaz.
20-ci əsrin İradəsiylə 21-ci əsrə getmək olmaz.
Yoxsa 21-ci əsr elə 20-ci əsr olar!..

**493. ÜLVİ İRADƏLƏR.** Vəhy – Peyğəmbər İradəsi.
İdeya – Filosof İradəsi.
İlham – Sənətkar İradəsi.

**494. ÜLVİ FƏRQ.** İnsanın Dövrandan üstünlüyü!

**495. TƏNHALIQ.** Ruhsuzluq.

**496. ALİ HƏYAT.** Mütləqə çatmaq Vəzifəsi!

**497. DAXİLİ – ZAHİRİ.** Daxili – Mütləq; Zahiri – Nisbi.

**498. GÜCLÜ – ZƏİF.** Güclü – Ruhlu, Zəif – Varlı.

**499. BİCLİK.** Ağılsızlıq.

**500. QORXU.** Yırtıcılığın astar üzü.

**501. TOMAS MOR.** Utopiya Xülyası yaratdı.
Utopiya Ölkəsi yaratmadı.

**502. ALEKSANDR İVANOV.** Ömrünü İsanın Təsvirinə həsr etdi. Ayıldı gördü ki, İsadan ayrılıblar...

**503. C.SVİFT.** Cırtdanların yanında azman görünənin azmanların yanında cırtdan görünməsi.

**504. KAFKA.** Əsərlərini yandırmadılar. Özü Yandı.

**505. QOYYA.** Heybətli imtina!

**506. VAN QOQ.** Ölümü görən.

**507. JAN VALJAN.** Hüqodan böyük.

**508. DİKKENS.** "Qırmızıpapaqları canavarların pəncəsindən qurtaran Xeyirxahlar yenə də tapılır!"

**509. NATAŞA ROSTOVA.** Tolstoyun Nuru.

**510. TOLSTOY.** Buddalaşan.

**511. KARAMAZOV QARDAŞLARI.** Atasızlar.

**512. RUS ƏDƏBİ TƏNQİDİ.**
Fəlsəfəsi olmayan xalqın böyük təskinliyi.

**513. TURGENEVİN QADIN QƏHRƏMANLARI.**
Rus Məryəmləri.

**514. TURGENEVİN KİŞİ QƏHRƏMANLARI.**
Rus Hamletləri.

**515. RASKOLNİKOV.** Rus Napoleonu.

**516. HEMİNQUEYİN "FİESTA"SI.**
Amalsızların daxili qərarsızlığı.

**517. ƏN BÖYÜK KƏŞF.** İnsandakı Mütləqi görmək!

**518. ƏN BÖYÜK MƏNA.** Təzahürə sığmayan.

**519. ƏN DOĞRU YOL.** Əzablı.

**520. ƏN BÖYÜK DOĞMALIQ.** Ucalıq.

**521. ƏN BÖYÜK YADLIQ.** Alçaqlıq.

**522. ƏN BÖYÜK QƏTİYYƏT.** İmtina.

**523. ƏN BÖYÜK MƏSULİYYƏT.** İnsanlıq.

**524. QƏRB – ŞƏRQ.** Qərb – Yayılan, Şərq – Sayılmayan.

**525. DÜNYALAR.** Antik Dünya – Yerlə-Göyü birləşdirən.
Roma Dünyası – Yer.
Hind Dünyası – Göyləşən.

**526. BƏŞƏR DƏRDİ.** İctimai naqislikdən imtina edə bilir.
İnsani naqislikdən imtina edə bilmir.

**527. CƏMİYYƏT QİYMƏTİ.**
Nəyi yetirmisən yox – kimi yetirmisən!

**528. MÜSTƏQİLLİK.** Mütləq Məsuliyyət.

**529. ƏSARƏT.** Mütləq Məsuliyyətsizlik.

**530. A. KAMYU.** Yadlaşan Doğmalıq.

**531. JAN POL SARTR.** Total günahkarlıq.

**532. COYS.** Şərləşən Xeyir.

**533. ŞOPENHAUER.** Yaşamamaq Dərdi.

**534. EPİKÜR.** Ruhu təlaşdan qorumaq.

**535. HERAKLİT.** Dəyişkən Təzahür.

**536. DEMOKRİT.** Cisimləşən Dünya.

**537. FİXTE.** İnsanlaşan Kainat.

**538. ŞELLİNQ.** Mahiyyət Sonsuzluğu.

**539. UPANİŞAD.** Təzahür Yoxluğu.

**540. ŞVEYSER.** Müqəddəsləşən Həyat.

**541. A. BERQSON.** Aramsızlaşan Həyat.

**542. İONESKO.**
İnsanın Daxilindəki Vəhşinin İnsanı öldürməsi təhlükəsi.

**543. BƏŞƏR FACİƏSİ.**
Hər nəsil təzədən başlayır və əvvəlki nəslin səhvini təkrar edir.

**544. UYĞUNLUQ.** Həşərat – hay-həşir Ahəngi.

**545. VARLIQ – YOXLUQ.** Günahsız Adam Yoxdur!
Deməli, İnsan Yoxdur!

**546. YETİŞMƏK.** Məxluq – Yetişmir. Adam – Tez yetişir.
İnsan – Gec yetişir!

**547. "İNCİL".** "Allah Evladları" haqqında əsatir.

**548. "YEVANGELİYA".** İnsan oğlu haqqında Əsatir.

**549. "DXAMMAPADA".** İnsanlaşma Qaydaları.

**550. SƏYYAHLAR.** Dünyanı ağlıyla gəzənlər.
Dünyanı Ayağıyla gəzənlər.

**551. DİPLOMATİYA.**
Tələyə salmaq fərasəti və tələyə düşmək aqibəti.

**552. MİLLİ ŞÜUR.** Yetkinlərin qisməti.

**553. MƏHƏLÇİ.** Qəsdçi.

**554. MİLLİ İFTİXAR.** Ülvi Bəxtiyarlıq.

**555. MƏDƏNİ ƏLAQƏ.** Özümləşdirmək – Özümləşmək.

**556. BEYNƏLMİLƏLÇİ.** İnsançı.

**557. BAĞLILIQ.** Qonşunun Qonşuya Münasibəti necədirsə - Ölkənin Ölkəyə Münasibəti də elədir.

**558. ÇEVRİLMƏ.** İğtişaş – İctimai Həsəd.
İşğal – İctimai Yırtıcılıq.
Ticarət – İctimai Hərislik.
Siyasət – İctimai Rəqabət.

**559. BƏDƏN.** Ruh gəzdirən.

**560. ZƏKA.** Ağıldan yüksək.

**561. VƏHY.** Zəkadan iti.

**562. BƏDİİYYAT.** Xəyal sərbəstliyi.

**563. XURAFAT.** Xəyal sərməstliyi.

**564. EHTİZAZ.** Heyrət Hədsizliyi.

**565. SARDANAPAL PUÇLUĞU.**
– Dünya Puçdur. Ye, İç, Keyf elə!
(Assuriya hökmdarı Sardanapalın dediyi).
Yemək, İçmək, Keyf eləmək – elə Puçluqdur.

**566. SEZARIN ÖLÜMÜ.**
– Bu cür yaşamaqdansa – öldür məni! (Qulun Sezara dediyi).
– Məgər sən Ölü deyilsən?!
(Sezarın Qula cavabı).
Həmin Məqamda Sezar İnsan kimi öldü.

**567. QƏDDARLIQ HƏRİSLİYİ.** Düşməni Qula çevirirdilər, Qulu mallaşdırırdılar, qladiatorlaşdırırdılar, əşyalaşdırırdılar və hər məqamda heysiyyatını tapdalayırdılar.
Qul iztirabından həzz alırdılar – Quldarlar!

**568. HAKİMİYYƏT SƏRSƏRİLİYİ.**
Dənizi qamçılatdırmaq! (Kserks).

**569. ALLAHSIZLAR.** Misirlilər Allahlarına İnsan Qurbanı verirdilər və Allahsız olduqlarını bilmirdilər.

**570. QADİRSİZLİK.**
Tonqalda saysız-hesabsız Bədən yandırıldı, Ruh yandırılmadı.
Dar ağacından saysız-hesabsız cinayətkar asıldı – Cinayət asılmadı.

**571. ZÜLM.**
Roma əsgərləri Düşmənin sifətini qılıncla doğrayırdılar.
İran hökmdarları Düşmənin gözünə mil çəkirdilər.
İnsanlıq doğranılırdı.
İnsanlığın gözünə mil çəkilirdi.

**572. LƏYAQƏT.**
Roma Qalibləri əsir aldıqları hökmdarları at kimi yüyürtdürürdülər.

**573. ROMA QÜDRƏTİ.** Dünyaya Sahib oldu – İsaya məğlub oldu.

**574. TƏNTƏNƏ.** ...Dünyadan yığdığını, yığışdırdığını, taladığını, çapdığını Romaya təhvil verirdilər və ...həşəmətli İmperiyanın süqutunu hazırlayırdılar.

**575. İSA SÜKUTU.** Ölüm ayağında İsa susdu, dinmədi. Bu onun İnsanlara dediyi ən böyük Sözüydü.

**576. SENEKA.** Tirana dayaq olmaq istədi, tiran tərəfindən uçuruldu.

**577. CƏZA.** “Mən almanları Vicdan adlanan Kabusdan xilas etmək istəyirəm!” (Hitlerin dediyi...)
...Almanları Vicdan adlanan Ali Hakimin Cəzasına məhkum etdi.

**578. TALEYRAN.** Satqınlığa olan ictimai ehtiyac...

**579. ÖLDÜRÜLƏNLƏR.**
Düşməni cəbhədə öldürürdülər Romalılar, dostu Senatda.

**580. İCTİMAİ QURULUŞLAR.**
Hökmdarlıq (Çarlıq, Şahlıq, Krallıq) – Mütləq Monarxiya!
Respublika – Respublika Monarxiyası.
Demokratiya – Demokratik Monarxiya!
Sovet – Sovet Monarxiyası!

**581. TARİXİ YALANLAR.**
Teokratiya – Allah Hakimiyyəti Yalanı.
Demokratiya – Xalq Hakimiyyəti Yalanı.
Sovet – Fəhlə Hakimiyyəti Yalanı.

**582. XƏYALIN GÖRDÜKLƏRİ.** “Gələcəkdə Antişirlər, Antipələnglər, Anticanavarlar yaranacaq!”... (Furye).
“Gələcəkdə Ölənlər diriləcək!”... (Xristianlar).
“Ölənlər o dünyada əslən yaşayacaqlar!”... (Müsəlmanlar).
Dəhşətli Ruhsuzluq Fəlakəti.
Xəyalın kor vaxtı gördükləri!..
Müdhiş inamsızlıq!

**583. TALE.** Xarakter Məntiqi.

**584. HƏYATIN MƏNASI.** İnsanlaşmaq.

**585. SƏADƏT.** Ləyaqət.

**586. BABİL ƏSİRLİYİ.** Fəlakətlə Birləşənlər.

**587. BİZANS.** Bulanıq Roma.

**588. PLOTİN.** Avropalı Şərq Mütəfəkkiri.

**589. ƏSİL XRİSTİANLAR.** Sufilər!

**590. ƏSİL BUDDAÇILAR.** Sufilər!

**591. ƏSİL PANTEİSTLƏR.** Sufilər!

**592. AŞİQLƏR.** Allaha vurulan – Məhəmməd.
İnsana vurulan – İsa...
Müqəddəsliyə vurulan – Yan Qus...
Həqiqətə vurulan – C.Bruno.
Məhəbbətə vurulan – Füzuli.
Azadlığa vurulan – Babək.
Əqidəyə vurulan – Nəsimi...
Saflığa vurulan – Rumi...

**593. "DƏLİLƏR".** Daim ağlayan Heraklit!..
Daim gülən Demokrit!..

**594. BEKON.** Zəka sahibiydi – ona görə də cinayəti bağışlandı. Ruh sahibi olsaydı – cinayətini özünə bağışlamazdı.

**595. KROMVEL.**
Kralı taxtdan saldı – Diktatoru (Özünü) Başa çıxartdı.

**596. ŞARLOTTA KORDE.** (Maratın qatili). Maratda qan tökəni gördü – dərd çəkəni görmədi.

**597. GÜLÜSTAN MÜQAVİLƏSİ.** Canavara çevrilmişlərin quzuya çevrilmişlərə hökmü.

**598. MƏŞRUTƏ HƏRƏKATI.** Səttarxanın Böyütdüyü...

**599. 1918-ci il BAKISI.** Açıq Şəhər.

**600. 1937-ci il.** Şaqqalanan Ümid.

**601. MİLLİ DÖVLƏT.** Yiyəsiz xalq.

**602. 1920-ci il. AZƏRBAYCAN.**
Xalqın Qabaqcıl boyunduruğa salınması.

**603. QƏTİ TƏLƏB.** Ya xalq kimi xalq ol – ya da başqa xalqa qarış, yox ol!

**604. YALAN ÖLDÜRƏN.** Şairdən qorxmurlar.
Bəstəkardan qorxmurlar.
Rəssamdan qorxmurlar.
Filosofdan qorxurlar.
Filosof Həqiqəti görə bilər.
Filosof Həqiqəti deyə bilər.
Həqiqət Yalanı öldürə bilər.

**605. CƏMİYYƏT İCAZƏSİ.** Cəmiyyət Heyvan olmağa İcazə verir, İnsan olmağa İcazə vermir.

**606. DOSTLAR.** Müdrik Dostum – Dəniz.
Məğrur Dostum – Dağ.
Ülvi Dostum – Səma.

**607. YENİ DÖVR.** Barışmazlar – Barışdılar.
Qorxmazlar – Qorxdular.
Doğruçular – Yalan danışdılar.
Halallar – Haramlaşdılar.
Məğrurlar – Əyildilər.

**608. YENİ DÜŞÜNCƏ.** İclaslaşmaq.

**609. YENİ MƏNƏVİYYAT.** İflaslaşmaq.

**610. YENİ QOÇAQLIQ.** İntriqa.

**611. YENİ LƏYAQƏT.** Mütilik.

**612. YENİ FƏRASƏT.** Yaltaqlıq.

**613. YENİ XƏLQİLİK.** Rəsmilik.

**614. YENİ MÜSTƏQİLLİK.** Tabeçilik.

**615. AZƏRBAYCAN ÇARÇILARI.** Axundov.
Zakir.
Bakıxanov.

**616. ÖZGƏLƏŞMƏK.** Ögeyləşmək.

**617. BİRLƏŞDİRİLƏN.** Kölələşdirilən.

**618. TALEYİ GÜLDÜRÜLƏN.** Talesizləşən.

**619. TARİXİN ÖYRƏTDİYİ.**
Təmənnasız İnsanlar olub – Təmənnasız Ölkələr olmayıb.
Xilaskar İnsanlar olub – Xilaskar Ölkələr olmayıb.
Özünü xilas etməyəni – özgə xilas etməz.
Başı öz əlində olmayan – başsız qalar.

**620. TARİXİ "XİLASKARLAR".**
İngilis "Hindistana sivilizasiya gətirdi" – Hindistanı fəth etdi.
Napoleon "Avropaya azadlıq gətirdi" – Avropanı İşğal etdi.
Rus Çarı – Qafqaz xalqlarını "Ətalətdən qurtardı" – Əsarətə saldı...

**621. TARİX BAĞÇASI.**
Tarix bağçadır. Orada hər xalqın öz ağacı olmalıdır.

**622. XALQSIZLIQ.**
Ağac əkə bilmirsən, bağ sala bilmirsən – nəyin bağbandır?!

**623. AMERİKA GÜNAHI.** Neçə qədim xalqı Yer üzündən sildilər. Hansı maddi nailiyyət bu günahı yuya bilər?

**625. ŞƏRQ GÜNAHI.** Əvvəl özünə qapıldı – dünyanı unutdu. Sonra birdən-birə Dünyaya qapıldı – özünü unutdu.

**626. AVROPA GÜNAHI.** Ruhu unutdu – maddiyyatı tutdu.

**TÜRK GÜNAHI.** Böyük Hikmət yaratdı, Böyük Sənət yaratdı, Böyük Səltənət yaratdı – *Böyük Vəhdət yaratmadı.*

**627. QABAQCIL İTİRİLMƏ.** Sevilə-sevilə, sığallana-sığallana, təriflənə-təriflənə, irəliləyə-irəliləyə – İtmək!

**628. İMPERİYA FƏNDİ.**
Roma İmperatorları İudeya Allahına Məbəd tikirdilər.
Bununla da İudeya daha da Romalılaşırdı.

**629. BÖYÜYƏNLƏR – KİÇİLƏNLƏR.**
**I.** Rəsul Həmzətov böyüdükcə – Ləzgi kiçilir.
Çingiz Aytmatov böyüdükcə – Qırğız kiçilir.
Mustay Kərim böyüdükcə – Başqırd kiçilir.
**II.** Ləzgi gözünü açıb görəcək ki, Rəsul Var – Ləzgi Yoxdur!
Qırğız gözünü açıb görəcək ki, Çingiz Var – Qırğız Yoxdur!
Başqırd gözünü açıb görəcək ki, Mustay Var – Başqırd Yoxdur!

**630. DOĞMALAŞMAQ – YADLAŞMAQ.** Rəsul Həmzətov "Mənim Dağıstanım!" deyə bağırır və Dağıstan tədricən Yadlaşır.
Çingiz Aytmatov "Mənim Qırğızıstanım!" deyə bağırır və Qırğızıstan tədricən Yadlaşır.
Mustay Kərim "Mənim Başqırdıstanım!" deyə bağırır və Başqırdıstan tədricən Yadlaşır.

**631. ZAHİRİ – DAXİLİ.**
Təzə Konservatoriya tikilir – Milli Sütun qırılır.
Təzə Akademiya açılır – Milli Sütun qırılır.

Təzə Metro işə salınır – Milli Sütun qırılır.
Milli Dahilərə heykəl qoyulur – Milli Sütun qırılır.
Qədim Əlyazmalar Fondu açılır – Milli Sütun qırılır.
Milli Muzeylər yaradılır – Milli Sütun qırılır.
Milli Yubileylər keçirilir – Milli Sütun qırılır.
Göz üzdəkini görür – Daxildəkini görmür.
*Daxildəkini Zəka görür.*
*Bu səbəbdən də Zəka görünmür!*

**632. ÜÇ ÇEŞİD İMPERİYA FƏALLARI.**
İmperiya havasını çalanlar!
İmperiya havasına oynayanlar!
İmperiya havasını həm çalanlar, həm oynayanlar!

**633. ÇOXMİLLƏTLİ XALQ.**
Bir Millətə çevrilmiş "çoxmillətlilik".

**634. İDEOLOJİ NİKBİNLİK.** Panqlos nikbinliyi: "Ən gözəl Dünyamızda nə baş verirsə – o, ən gözəldir!"

**635. BEŞİNCİ KOLONNA.** Yadbaşlılar.
Yadürəklilər.
Yadmənəviyyatlılar.
Yadiradəlilər.

**636. QİYMƏTLƏR.** Maddi Qüdrətin Böyükdür – Mənəvi Qüdrətin kiçik. Maddiyyatı seçirəm, Mənəviyyatdan keçirəm. Sənə baş əyirəm.
Mənəvi Qüdrətin Böyükdür – Maddi Qüdrətin kiçik.
Mənəviyyatı seçirəm – Maddiyyatdan keçirəm.
Sənə baş əyirəm.
Birinci – adamların verdiyi Qiymətdir, ikinci – İnsanların.
Adamlar İnsanlardan çoxdur.
Ona görə də müasirlər əksər hallarda maddiyyatı seçirlər – Mənəviyyatdan keçirlər.

**637. QANANLAR...** Motsartı basdırmağa adam tapılmadı.

Kyerkeqor küçədə gücsüzlükdən öldü.
Kino-aktyor Valentinonun ölümü qadın pərəstişkarlarını öldürdü.
Estrada xanəndələrinin libasından qoparılan parça Mirvariləşdi...

**638. FELLİNİ.** Şirin Antihəyat haqqında hekayət.

**639. ANTONİONİ.** Ölümaxtaranlar sərgüzəştləri.

**640. BERQMAN.** Divarlaşan İnsanlar.

**641. MARSEL PRUST.** Mistikləşən Məişət.

**642. ŞUKŞİN.** Təbiilik Yükü.

**643. SİYASƏT – MƏDƏNİYYƏT – XALQ.**
Mədəniyyət Hakim Siyasətin əleyhinə olub!
Xalqın Hakim Siyasətdən xəbəri olmayıb!

**644. İDEOLOJİ İSTİQAMƏT.**
Birinci Mərhələ: İmperiya daxilində Ümumiçilik.
İkinci Mərhələ: Dünya Daxilində Ümumiçilik.

**645. YALANÇI HƏYAT.** Əksər adamlar Başqalarıyla döyüşürlər, əslində adam özüylə döyüşməlidir.

**646. MÜASİRLƏŞƏN ADLAR.** Gönüqalın Hamlet.
Qorxaq Nəsimi.
Küt Nizami.
Əyyaş Füzuli.
Xəbis Məhəmməd...

**647. ÖLDÜRÜLƏN RƏMZLƏR.** Ağsaçlı Lotu.
Qarasaqqal Səfeh.
Ağsifət Fitnəkar.

**648. HƏMİŞƏCAVAN TARİX.** Tarix qocalmır.
Çünki dəyişmir.

**649. DÜNYASIZLAR.** Ev-eşikdən Dünya yaradırlar.
Varidatdan Dünya yaradırlar.
Rütbədən Dünya yaradırlar.
Vəzifədən Dünya yaradırlar.
Vəsiqədən Dünya yaradırlar.
Şöhrətdən Dünya yaradırlar.
İşrətdən Dünya yaradırlar.

**650. TƏSKİNLİK.** Xanəndəylə tanınmaq.
Şairlə tanınmaq.
İdmançıyla tanınmaq.
Başqası Dövlətiylə Dünyanı oynadır – sən isə oynamağınla qürrələnirsən!

**651. UZAQLIQ – YAXINLIQ.**
Kimsə Evində çıraq yandırır. Romantika yaranmır.
Kimsə həmin çırağa uzaqdan baxır. Romantika yaranır.

**652. MÜƏYYƏNLƏŞDİRİLƏN SABAH.**
Dünyanın Sabahını indidən müəyyənləşdirirlər.
Sabahı bugünləşdirirlər.

**653. MÜASİR ŞEYX NƏSRULLAHLAR.** Öldürəndə – dirildirlər.
Dirildəndə – öldürürlər.

**654. ÇƏTİN SUAL.**
4 milyard adamın içində neçə İnsan Var görəsən?

**655. RUHANİ İŞIQ.** Kainatın qaranlığında Ruhani İşıq var.

**656. CANAVAR KƏLƏYİ.** Canavarı quzudan qorumaq!

**657. DÜNYANIN TANIDIĞI...**
"Dünya məni tanısın – onda özümü tanıyaram!"
Özünü tanımasan – Dünya səni tanımaz!

**658. OYUNCAQ.** Dünyanı bir günün içində məhv etmək olar. Dünya oyuncağa çevrilib ki!..

**659. GÜLÜŞ.** O qədər güldü ki, gülünc oldu!

**660. QIZ QALASI.** Doğma Qərib.

**661. SÜNGÜDƏ GƏTİRİLƏN SƏADƏT.** İlan Ağusu.

**662. ŞƏXSİ HƏYAT – İCTİMAİ HƏYAT.**
Amal – hər ikisindən artıq!

**663. HƏYAT SƏDƏQƏSİ.** Yemək sevinci!
Geyim sevinci!

**664. UYĞUNSUZLUQ.**
Ruhani gözəllik cismanidə tam aşkara çıxmır.
Cismani gözəllik ruhani gözəlliyi tam ifadə etmir.

**665. ÖZÜNƏ XİDMƏT ELƏYƏN.**
"Son nəticədə Xalqa xidmət edirəm!"
"Obyektiv olaraq xalqa xidmət edirəm!"
Xalqa xidmət etmirsən!
Özünə xidmət edirsən!
Şöhrətə xidmət edirsən!
Varidata xidmət edirsən!
Rütbəyə xidmət edirsən!
Vəzifəyə xidmət edirsən!
Vəsiqəyə xidmət edirsən!

**666. MUĞAM OPERALARI.**
Səhnələşən, Hadisələşən, Səthiləşən Muğam!

**667. OBLOMOV.**
Divana pərçimlənəni də var, Zamana pərçimlənəni də!

**668. CƏLİLİN "ÖLÜLƏR"İ.** İsgəndərin müasirləri.

**669. QOQOLUN "ÖLÜ CANLAR"I.** Qoqolun müasirləri.

**670. AMAL HƏQİQƏTİ.**
Həqiqi İnsan – Həyatda olmayıb, Amalda olub.
Həqiqi Cəmiyyət – Həyatda olmayıb, Amalda olub.
Həqiqət – Amaldır.

**671. HƏYAT HƏQİQƏTSİZLİYİ.**
Həyat Həqiqi insan tanımır.
Həqiqi cəmiyyət tanımır.
Həyat Həqiqət tanımır.

**672. HƏQİQƏTİ GÖRƏN.**
"Gözümü çıxardın – Həqiqəti görüm!" (Filosof arzusu).
Həqiqəti gözlə görmək olmur – Ruhla görmək olur!

**673. FƏRQ – FƏRQSİZ.**
"Şahla arabaçı arasında Fərq Yoxdur!" (Filosof kəlamı).
Şahla arabaçı arasında İctimai Fərq çoxdur, İnsani Fərq yoxdur.
Varsa da o, arabaçılıqda aşkara çıxmır.

**674. HƏQİQİ MÜQƏDDƏSLİK.**
"Yalnız Həqiqət Müqəddəsdir!" (Filosof Sözü).
Müqəddəslik Həqiqi İnsanilikdir!
Buna görə də o, – Ruhani Həqiqilikdir!

**675. ÖZÜNDƏKİNİ SEVƏN.**
"Özünü sevənin rəqibi olmur". (Siseron).
Özündəki Mütləqi sevənin Xudbinliyi olmur.

**676. İNSAN DƏYƏRİ.**
"İnsanlar ən çox Məhəbbətə layiqdirlər!" (Göte).
İnsanlar ən çox İnsan olmağa layiqdirlər.

**677. ADAMLIQDAN ARTIQ...**
"İnsan Əməlindən artıqdır!" (Hind kəlamı).
İnsan Adamlığından artıqdır.

**678. VİCDAN QANUNU.**
*Vicdan – daxilimizdə yaşayan Qanundur!" (İ. Kant).*
Vicdan – Qanuna sığmayan Mütləq Ruhani Tələbdir!

**679. DAHİLİK – KAMİLLİK.**
"Dahilər kamil olduqları üçün xoşbəxtdir". (Şiller).
Kamillik – dahilikdən üstündür!

**680. AZADLIQ KÖLGƏSİ.**
"Azadlıq, mən səni Allah sayırdım, sən isə kölgəymişsən!" (Brut).
Azadlıq gerçəkləşdikcə kölgələşib...

**681. ÖZÜNÜ DƏRK ETMƏK.**
Quyuya düşmək və Quyudan çıxmaq!

**682. BİLİNƏN HƏYAT.** Həyatın daxilində Həyat bilinmir.
Həyatın kənarında Həyat bilinmir.
Həyatdan Yüksəkdə Həyat bilinir.

**683. BOY-BUXUN.** Ruhun boyu görünmür.

**684. NAZİM HİKMƏT.**
"Vətən!" deyə bağırdı, Vətən – qaçqını eşitmədi!

**685. ƏCNƏBİLİK.** Əcnəbi də insandır – Əcnəbilik yaratmasa!

**686. BUGÜN – SABAH.** Bu gün beş sözümün biri əcnəbi sözüdürsə, sabah beş sözümün biri doğma sözüm olar.

**687. DÜNYƏVİLİK.**
**I**. Bütün Dünya – Vətənimdir! Deməli – Vətənsizsən!
Bütün Atalar – Atamdır! Deməli atasızsan!

Bütün Analar – Anamdır! Deməli anasızsan!
Bütün Övladlar – Övladımdır! Deməli övladsızsan!

**II.** Dünya – Vətənlinindir – Vətənsizin deyil!
Dünya Atalınındır – Atasızın deyil!
Dünya Analınındır – Anasızın deyil!
Dünya Övladlınındır – Övladsızın deyil!

**688. ALÇALDAN YÜKSƏLİŞ.**
Yüksələn alçaqla bərabər – Alçaqlıq da yüksəlir!
Yüksələn satqınla bərabər – Satqınlıq da yüksəlir!
Yüksələn alçaqla bərabər – Ucalıq da alçalır!
Yüksələn satqınla bərabər – Sədaqət də alçalır!

**689. GİZLƏNƏNLƏR.**
Adamlar Ağıllarında naşılıq daşıyırlar! Ona görə gizlənirlər!
Ürəklərində xəbislik daşıyırlar! Ona görə gizlənirlər!
İradələrində Zəlillik daşıyırlar! Ona görə gizlənirlər!
*İnsan gizlənmir!*

**690. GİZLƏDİLƏNLƏR.**
Cəmiyyət Tarix boyu Müqəddəsləri İnsanlardan gizlədib.
Tarix Boyu İnsanlar Müqəddəsləri Ürəklərində gizlədiblər.

**691. BALTALANANLAR.** Cəllad Baltası bədəni başsız qoya bilib – Bəşəri Başsız qoya bilməyib.

**692. İNSAN YARANIŞI.** “İnsanı Əmək yaradıb!” – deyirlər.
“İnsanı Ruh yaradıb!” – deyirik.
“İnsan meymundan əmələ gəlib!” – deyirlər.
“İnsan İnsandan əmələ gəlib!” – deyirik.
“İnsan Heyvanat aləminin Təkamülü sayəsində yaranıb!” – deyirlər.
“İnsan Heyvanat aləmiylə yanaşı yaranıb!” – deyirik.
Biliyə əsaslanırlar.
Ruha əsaslanırıq.

**693. TƏKAMÜL XURAFATI.** İnsan meymundan əmələ gəlib, meymun canlı aləmdən əmələ gəlib, canlı aləm cansız aləmdən əmələ gəlib...
Bəs cansız aləm nədən əmələ gəlib?
Allahdan?!
Təkamülçülük Dini Xurafat yaradır.

**694. BİLİK QORXUSU.** "Həvva Bilik Üzümündən daddı və günaha batdı". (Bibliya Əsatirindən).
Əslində Bilikdə Qorxulu bir şey yoxdur!
Bilik Adamın Dostudur.

**695. ADAM – ADƏM.** Adam sözü – Adəm sözündəndir.
Adəm birinci günahkar sayılır – Adam əbədi günahkar!

**696. FƏDAİLİK – MÜQƏDDƏSLİK.**
Həyatdan əl çəkməyi bacarmayan – Müqəddəsliyi bacarmaz!

**697. HEKTOR KİŞİLİYİ.** Andromaxaya ölümdən qorxan Kişi layiq deyil!

**698. ANDROMAXA QADINLIĞI.**
Hektora ərini ölümə sevinclə yola salan Qadın layiq deyil!

**699. YANLIŞLIQ.**
Aqamemnon elə bilirdi ki, Axillesin Hökmdarıdır!
Axilles elə bilirdi ki, Aqamemnonun Dostudur!

**700. YELENA BƏHANƏSİ.** Troya döyüşündə Yelena bəhanəydi!
Yunanlar və Troyalılar Döyüş Qəhrəmanlığı üçün meydan arayırdılar!

**701. YELENAYA EVLƏNƏN FAUST.** Gözəlləşən Zəka.
Zəkalaşan Gözəllik.

**702. BİC ALLAHLAR.** Bic Şahlar olur – Bic Allahlar olmur! Ona görə də Yunan Allahları – Şahlardır!

**703. AFİNA PALLADASI.** Afinanın başından hazır vəziyyətdə çıxdı. Çünki artıq tam Yetişmişdi!

**704. ZƏMANƏ SƏHVİ.**
Klavdio – Hamletin Düşmən olduğunu anladı, Zəmanə anlamadı!

**705. RUHANİ "QİSAS".** İnsanı Zamandan xilas eləmək.

**706. İLK İSAÇILAR.** "Ruhani Qisasçılar".

**707. QAMÇI.** Sinəyə çatır – ürəyə çatmır.

**708. BAŞLARA İLDIRIM ÇAXDIRANLAR.**
Başlarına ildırım çaxılanlar.

**709. QƏLƏBƏNİN SİRRİ.** İsa ölməsəydi – dirilməzdi!

**710. HAMLETİN OFELİYASI.** Dahi sevgilisi!

**711. İYİRMİNCİ ƏSR ŞAHLARI.**
Prezident olmaq istəməyənlər!

**712. KYERKEQOR – REQİNA OSTEN.**
Dəhşətli İmtina Qətiyyəti!

**713. PAQANİNİ.** İnsanın Təbiətin Dilində danışması.

**714. MONTEN.** Həyatdan Yüksəyə qalxmayan...

**715. TƏBİƏT RƏMZLƏRİ.** İlan – Zəhərli sürünən.
Öküz – Təpərli sürülən.

**716. FİL DAVRANIŞI.** Alabaşa diqqət yetirmək Filə yaraşmaz!

**717. BAYRON SƏRGÜZƏŞTLƏRİ.**
Dünyanın hayıfını qadınlardan çıxmaq!

**718. BAYRON ŞƏRQİ.** Antiqərb.

**719. VAXTSIZ ÖLÜM.** Əsatirləşmək.

**720. AKADEMİYA.** Platonun Fikir Bağçası.

**721. ARİSTOTEL.** Mahiyyətlə Gerçəkliyi barışdıran.

**722. NARAHAT ULDUZLAR.** Biri-birinin başına yığılan ulduzlar!
Narahatsınız, həyəcanlısınız!
Adamların əlinə düşmək Təhlükəsi var!
Avamların əlinə düşmək Təhlükəsi var!..

**723. İNSANLAR – ALLAHLAR.** Hera əri Zevsi qısqanırdı...
Zevs arvadına hər addımda xəyanət edirdi...
Allah İnsanlara oxşayırdı...
Çünki İnsanlar İnsana oxşamırdılar...

**724. ÖZÜNLƏ OLMAQ.**
Yalqızlıq nə olan şeydir – Əgər Ruhun Səninlədirsə!
Yoxsulluq nə olan şeydir – Əgər Varın Səninlədirsə!
Əzab nə olan şeydir – Əgər Sevincin Səninlədirsə!
Təhqir nə olan şeydir – Əgər Vüqarın Səninlədirsə!

**725. SON MAHNI.**
Son Mahnını sən oxumursan – səndən sonra gələnlər oxuyurlar!

**726. ŞAİRLİK.** Şair özündəki heyvanı öldürmür.
Onda o, Şair olmazdı, Peyğəmbər olardı!
Şair heyvanlığıyla dil tapır, onunla birgə yaşayır, hətta qürrələnir...

**727. ANLAQ YÜKSƏKLİYİ.**
Elə Anlaq Yüksəkliyinə çata bilərsən ki, heç kəs səni anlamaz!
Anlamazlara nə anladacaqsan, necə anladacaqsan?!
Anlamazları anlayacaqsan!..

**728. MÜASİRLƏŞMƏK.** Mənəvi Əsirləşmək!

**729. FƏRQLƏNƏN.** Qoyun üçün Otdan gözəl Yem yoxdur!
Öküz üçün arabaya qoşulmaqdan başqa Həyat yoxdur!
Heyvan olanla kifayətlənir.
İnsan Qoyundan fərqlənir...
Öküzdən fərqlənir...

**730. İŞIQLAR.** Süni işıqlar o qədər çoxalıb ki, təbii işıq görünmür...

**731. BİRLƏŞƏNLƏR.** Biriylə təmasda oldun,
Onuyla təmasda oldun,
Yüzüylə təmasda oldun,
Miniylə təmasda oldun – Birdir!
Elə Birləşiblər ki, birini o birindən ayırmaq olmur!

**732. MÜASİR İCTİMAİYYƏT.**
Üfunətli, murdar leşin üstünə cumurlar, onu hərarətlə parçalayırlar.

**733. CƏMLƏŞMƏK – VƏHŞİLƏŞMƏK.**
Cəmləşirlər ki, birgə vəhşiləşsinlər...

**734. NƏŞƏ QOPARANLAR.** Bulvarda, skamyalarda, avtobuslarda, harda gəldi, nə qədər bacarırlar – nəşə qoparırlar!

**735. GÖRÜNƏN – GÖRÜNMƏYƏN...** At görürəm.
Xoruz görürəm.
Donuz görürəm.
İnsan görmürəm.

**736. MÜASİR HƏYAT.** Kənd – Şiddətli Zəhmət.
Şəhər – Hiddətli Qəbahət.
İtmiş kəndli.
Aldanmış fəhlə.
Satılmış ziyalı.

**737. TƏZƏ FƏRƏH.** Miskin Fərəh.

**738. COŞANLAR – DAŞANLAR.** Coşurlar – daşırlar.
Sonra coşğunluqdan uzaqlaşırlar,
Təzə coşğunluqla savaşırlar.

**739. YAŞAMAYANLAR.** "Yaşadığım üçün xoşbəxtəm!"...
Yaşayırsan ki?!.

**740. ALDANANLAR.**
Sezar elə bildi – Sezar imperiyası yaradıb – Öldürdülər.
Napoleon elə bildi – Napoleon imperiyası yaradıb – Elba adasına qovdular.
Stalin elə bildi – Stalin imperiyası yaradıb – İmperiyanı əlindən aldılar.

**741. SÜNİ PAFOS.** Pis günə vurulmaq.

**742. HƏYAT – RUH.**
Həyatın gözü bəbəyindən çıxanda belə – Ruhun kirpiyi qımıldanmır!

**743. BACARIQ.** Murdarlığı bacarmayan adama rast gəlmədim.

**744. BƏRABƏRLİK.**
Yaşamaq – Biri-biriylə dalaşmağa bərabər olub.

**745. İDEALSIZLIQ.**
"Hər kəsdən bacarığına görə – hər kəsə Ehtiyacına görə!"
Maddi Ödənilməyə əsaslanan İdeal – Ruhani Yüksəlməyə əsaslanmayan!..
Ən yaxşı halda qarnıtoxlar cəmiyyəti!
İdealsızlıq!

**746. VAXTSIZLIQ.** Vəhşiliyə vaxt tapır – yaxşılığa vaxt tapmır.

**747. YATAN – AYILAN.** Yatan – ayılır.
Ayılan – Yatan sayılır.

**748. EVDƏN EŞİYƏ ÇIXMAQ.** Dağdan dərəyə düşmək.

**749. CƏMİYYƏT – ADAMLAR.**
Cəmiyyət adamların üstünə uçub tökülür.

**750. MƏRHƏLƏLƏR.** Əvvəl – Yarımyadlıq.
Sonra – Tam yadlıq.

**751. QULDAR YALANI.**
"Yalan – Qulun qismətidir!" (Apollini).
İnsanı Qul saymaq – Yalandır.
Bu baxımdan ən böyük Yalançı – Quldardır.

**752. MÜDRİK FƏRQ.**
"Müdrikliyin vəzifəsi – Xeyiri Şərdən Fərqləndirməkdir!" (Sokrat).
Müdrik Xeyirləşir.
Naşı Şərləşir!

**753. XEYİR MÜƏYYƏNLİYİ.** "Xeyir – müəyyəndir.
Şər – Qeyri-müəyyəndir" (Pifaqor).
Xeyir – Həqiqətdir, Şər – Yalan.
Yəni Həqiqi Şər – Antihəqiqətdir.

**754. ÖLÜMÜN ÖLÜMÜ.** "Ölmək və Yaşamaq bir şeydir!" (Fales).
Yaşamaq – Ölümü öldürməkdir.

**755. FİLOSOF TAXTI.**
"Empedokl Taxtdan imtina etmişdi!" (D.Layerti).
Empedokl Həqiqət Taxtını Zor taxtına dəyişmədi...

**756. FƏDAKAR MÜDRİKLİK.**
"Özü üçün müdrik olmayana nifrətim var!" (Yunan Sözü).
Özündən keçməyənə nifrətim var!

**757. ADAMLIQ ELMİ.**
"Alimlər peyda olandan sonra yaxşı adamlar azalır". (Latın Sözü).
Adamlar çoxalandan sonra İnsan azalıb.

**758. HƏM CAVAN – HƏM QOCA.** “Nə cavan ondan qaçır, nə qoca ondan usanır”. (Fəlsəfə haqqında Qədim Atalar sözü).
Fəlsəfə Ruhlandırandır!
Ruh həm daim cavandır, həm daim qoca.

**759. ATƏŞDƏN ARTIQ.**
Ruh sönməyən atəşdir – bu səbəbdən də atəşdən artıqdır.

**760. MÜDRİKLİK ÖLÇÜSÜ.** “Həddən artıq müdrik olmayın – ölçü daxilində müdrik olun!” (Qədim Atalar sözü).
Müdrikliyin Mütləqilikdən qeyri ölçüsü yoxdur!

**761. QEYRƏTSİZ OLMAYAN.**
Hannibal başı açıq döyüşürdü, ancaq Papaqsız deyildi.

**762. PEYĞƏMBƏR ÖZLÜYÜ.**
“Danışanda Peyğəmbərlər özlərində olmurlar” (Monten).
Danışanda Peyğəmbərlər Özləri olurlar.

**763. OLMAQ – OLMAMAQ.**
“Ölmək istəyirəm ki, İsayla bir yerdə olum!” (Pavel).
İsayla bir yerdə olmaq üçün Yaşamaq lazımdır.

**764. QLADİATOR TAMAŞAÇILARI.**
Qladiatorun ölümünü istəyənlər...

**765. SAĞALMAQ SEVİNCİ.**
“Fəlsəfə bizi həm sevindirir, həm də sağaldır” (Seneka).
Çünki Fəlsəfə bizi Ruhlandırır.

**766. RUH – BƏDƏN.** “Daxili eybəcərliyimdən qurtara bildim – Zahiri eybəcərliyimdən qurtara bilmədim!” (Sokrat).
Çünki Ruh Sənindir – Bədən Sənin deyil!

**767. ADAMLAŞMAQ.**
“Özlərini müdrik saya-saya İnsanlar ağıllarını itirdi” (Pavel).
Özünü İnsan saya-saya bəşər adamlaşdı!

**768. GÖZ YAŞI.**
"Göz yaşımı faydasız və gücsüz saydığım üçün ağlayıram" (Solon).
Göz yaşını faydasızlaşdırırsan və gücsüzləşdirirsən!

**769. MÜTLƏQƏ LAYİQ.**
"İnsandan artıq olmayan İnsan – nifrətə layiqdir" (Monten).
Mütləqə layiq olmayan İnsan – Adama layiqdir.

**770. NADİR QƏLƏBƏ.** Başqası üzərində Qələbə çalan çox olub, Özü üzərində Qələbə çalan az!

**771. HAKİMLƏR.**
Dünyaya hakim olanlar Özünə hakim olanlardan çoxdur.

**772. SOKRATIN SİFƏTİ.**
"Sokratın sifətinin ifadəsi həmişə eyniydi!" (Monten).
Sokratın sifəti həmişə Bir idi.

**773. BUYNUZLU QƏHRƏMANLAR.**
Sezar, Lukull, Pompey, Antoni, Katon...
Buynuzu arvadlarının sığalından qazanmışlar!..

**774. QADIN.** Analıqda Yetişən, Saflaşan.

**775. YARADAN.** Bizi Allah yaratmayıb – bəs kim yaradıb?
Bizi Əvvəl Təbiət yaradıb – sonra Özümüz yaratmışıq!

**776. FƏRHAD QAYASI.**
Fərhad qayanı Qoluyla çapmırdı, Ürəyiylə çapırdı!

**777. MÜNASİBƏTLƏR.** Duz kimi yalanmaq...
Buz kimi qırılmaq...

**778. QOBUSTAN YAZILARI.** Türk Möminliyi.

**779. SABAHI SALAMLAMAQ.** "Biz Dünyadan gedər olduq – Qalanlara Salam olsun!" (Yunus Emre).
Həyatımız, istəyimiz Qalanlara Qalan olsun!

**780. SUFİ RƏMZLƏRİ.** Həqiqət – Mey: İçdikcə Kamilləşdirən!
Yar – Allah: Sevdikcə Mütləqləşdirən.

**781. HƏQİQƏT XEYRİ.** "Həqiqəti deyən xeyir görməyib!"
Həqiqətdən böyük xeyir varmı?!

**782. AT – QANAD.** At kimi yüyürmək asandır!
Qartal kimi qanad çalmaq çətindir!

**783. YAŞAYAN VARLIQ.** Var olandan Əl çəkmək olmaz.
Yox olana Sahib olmaq olmaz.
Həyatda Var olan nə varsa – İnsanda Var olur.
Həyatda Yox olan nə varsa – İnsanda Yox olur.

**784. İNSANLIQ.** Adamlıqdan çıxmaq!

**785. GƏRƏKSİZLƏŞƏN SÖZ.** İnsanlaşdırmayan Söz gərəksizdir...

**786. ZƏMANƏMİZİN QƏHRƏMANLARI.**
Cəmiyyəti dəyişdirəcəkdilər – cəmiyyətləşdilər!

**787. ZƏMANƏMİZİN MÜƏLLİMLƏRİ.** Qanla qandıranlar.

**788. ZƏMANƏMİZİN HƏYALILARI.**
Utanmaqdan utananlar.

**789. İRADƏ – ÜRƏK.**
Qaya iradəli olmadılar – Daş ürəkli oldular.

**790. MÜASİR SƏNƏTKARLIQ.**
Mənfi Qəhrəman – Sənətkarın daxilində yaşayır.
Müsbət Qəhrəman – Sənətkardan xaricdə yaşayır.

**791. MÜASİR HƏMRƏYLİK.**
Bir yerdə düşünmək yox – Yemək!

**792. MÜASİR DÖYÜŞ.** Qıra-qıra qırılmaq!

**793. KÜTLƏVİ YARADICILIQ.** Özünü uydurma.

**794. KÜTLƏVİ HAFİZƏSİZLİK.** Başqasını unutma.

**795. KORLUQ.** “Varidat Allahı kordur!” (Likurq).
Varlı – Kordur, Var olanı görmür.

**796. QÜVVƏT – ƏDALƏT.**
“Qüvvət danışanda Ədalət susur!” (Romalı Sözü).
Ədalət – Qüvvət tanımır!

**797. ŞÖHRƏTİ SEVƏN.** Mütləqi sevməyən!

**798. SPARTA TƏRBİYƏSİ.** Kamil Döyüşçü – Qeyri-kamil İnsan!

**799. QUL – QULLUQ.** Qulluqda Qul yaşayır.
Vətənə qulluq eləmirlər, Evladlıq eləyirlər!
Mütləqə qulluq eləmirlər, İnsanlıq eləyirlər.
Cəmiyyətə qulluq eləyirlər...

**800. ÖLÜM – XOŞBƏXTLİK.**
“Ölüm xoşbəxtliyin zirvəsidir”. (Sparta təsəvvürü).
Xoşbəxtlər – Ölümün qənimidir.

**801. ÖLÜM – ALİ HƏYAT.**
Ölümdən qorxmurlar – çünki Həyatı sevmirlər!” (Plutarxdan).
Ölümdən qorxmurlar, çünki Ali Həyatı sevirlər.

**802. SAHİB – PUL.** “Pulunun qulu yox, Sahibiydi! (Plutarxdan).
Pulun Sahibi olmur – Qulu olur.

**803. KASIBLIQ – KİŞİLİK.**
"Kasıblıq Kişini heç eləyir!" (Pelopid).
Kişilik – kasıblığı!

**804. ÖZ HALINA AĞLAMAQ.** "Roma sərkərdələri tar-mar etdikləri şəhərlərin halına göz yaşı tökürdülər". (Plutarxdan).
İnsan ola bilmirdilər...
Heyvan ola bilmirdilər...

**805. ZEVSƏ OXŞAYAN...** "Herakl Dəli Qəzəb məqamında dostunu məhv etdi". (Yunan əsatirindən).
Həmin məqamda Herakl atası Allahlar Allahı Zevsə bənzədi.

**806. XALQIN GÖZÜ.** "El üçün ağlayan Kor olar!" (Atalar sözü).
Kor olar və həqiqəti görər.

**807. DON KİXOT.** Zəmanəsinin Dünyalığına inanmayan.

**808. SANÇO-PANSA.** "Ayıq" Don-Kixot!

**809. DULSİNEYA.** Don Kixotun yaşatdığı!

**810. HOFMAN.** Dünya ciddi olmayan dərəcədə ciddidir!

**811. HAMLETİN ANASI.** Hamletin yarası.

**812. FAUSTUN MARQARİTASI.** Sevməyi bacaran!

**813. ŞEYX SƏNANIN XUMARI.**
Şeyx Sənanın Peyğəmbərlik Səhrası!

**814. AYDININ GÜLTƏKİNİ.** Sevinməyən!

**815. OQTAY ELOĞLU İNTİQAMI.** İntihar.

**816. SABİRİN FƏHLƏSİ.** Sayılmayan.

**817. SALYERİÇİLİK.**
Paxıllıqla Qatillik arasında məsafə çox qısadır!

**818. BÖYÜKLÜK – GÜLÜNCLÜK.**
"Böyüklüklə gülünclük arasında bir addım məsafə var". (Napoleon)
Gülünc olan Böyüklük – Yoxdur.

**819. TOLSTOYUN NAPOLEONU.** Həşəmətli Boşluq.

**820. TARİXİ GÜNAHLAR.**
Afina Demokratiyası – Sokratı öldürən!
Roma İmperiyası – İsanı öldürən!
İngilis Krallığı – Janna d'Arkı öldürən!
Papaçılıq – Yan Qusu öldürən, C.Brunonu öldürən!
Müsəlmançılıq – Nəsimini öldürən!

**821. TÜRK HEKAYƏTİ.**
**Oğuz**
Biri-birindən ayrı düşmüş Evlad Atası.
**Səlcuqlar**
Türkiyə yaradan – Türk Birliyi yaratmayan.
**Osmanlar**
İmperiya yaradan – Fatehliyə yaramayan.
**Cavan Türklər**
Daxildəki Yırtıcını parçalayan – xaricdəki Yırtıcıya parçalanan!..
**Xırdalanmaq**
Türk əvəzinə – Azərbaycan türkü, osmanlı türkü, özbək, qazax, qırğız, türkmən, əfşar, qacar...
Vahid dəniz əvəzinə – müxtəlif səmtə axan çaylar, arxlar, gölməçələr...
Mətanətli, dəyanətli, qoçaq, məğrur, ancaq dağınıq, bu səbəbdən də dağılan, dağıdılan...
Var olmağı bacaran – Bir olmağı bacarmayan!

**822. İNSAN GÜCÜ.** "İnsan yalnız Tək olanda Güclü olur" (İbsen).
İnsan yalnız Özü olanda Güclü olur.

**823. CƏHƏNNƏM – CƏNNƏT.**
“Başqası – cəhənnəmdir!” (Kafka).
Hər kəs cəhənnəmini də – cənnətini də özündə gəzdirir.

**824. DÜNYAYA BAXIŞ.** “İnsanlara başqa göz vermək!” (Coys).
Dünyaya Ruhun gözüylə baxmaq!

**825. KEÇİCİ – YALAN.**
“Keçici olan nə varsa, Yalandır”. (L. Tolstoy).
Yalan – keçicidir.

**826. XEYİRDƏN və ŞƏRDƏN YÜKSƏK.** (Nitsşe idealı).Şər.

**827. BƏDBƏXT GÜLÜNC.**
“Dünyada bədbəxtlikdən gülünc heç nə yoxdur!” (Bekket).
Dünyada Gülüncdən bədbəxt heç nə yoxdur.

**828. MƏRD QULAQ.**
“Həqiqəti eşitməkdən Şirin heç nə yoxdur!” (Platon).
Həqiqəti eşitməyə mərd qulaq gərək!

**829. QORXAQ GÜLÜŞ.**
“Gülürəm – çünki ətrafımda heç kəs yoxdur!” (Mison).
Gülüşün qorxaqdır.

**830. DOĞULMAQ – ÖLMƏK.**
“Ölmək üçün doğuluruq!” (Yunan Sözü).
Ölü Doğulmuruq.

**831. ADAM HAKİMİ.**
“Sənətim İnsanlara hökm eləməkdir!” (Diogen).
İnsana hökm eləmək olmaz – Adama hökm eləmək olar!

**832. İYİRMİNCİ ƏSR SƏNƏTİ.** Vəhşiləşmək istədi, sərsəriləşmək istədi – bacarmadı.
Sənətkar özündəki İnsanı öldürə bilmədi.

**833. İSTEHZALI İSTEDADSIZLIQ.**
“İstehzasız olanda – istedadsız oluram!” (Yaqo).
İstehza Yaqolarda istedadı əvəz eləyir.

**834. TANIMAQ – TANIMAMAQ.**
Çox tanınan əslində Tanınmır.

**835. ZƏKALI – ZƏKASIZ. I.** Dünyada Zəkanın məhsulundan başqa heç nə görmürəm!” (Kantçılıq).
Deməli, Dünyada Zəkalıdan başqa heç nə görmürsən.
Dünyada Zəkalı çox azdır!
Deməli, Azı görürsən – Çoxu görmürsən!

**II.** “Dünya Zəkanın süzgəcindən keçir, Zəka tərəfindən dəyişdirilir”. (Kantçılıq).
...Ancaq Zəkasızlığını itirmir.
Deməli, ya Zəka Dünyanın ifadəçisindən başqa bir şey deyil, ya da Dünya o dərəcədə Zəkasızdır ki, Zəkanın təsirindən bəhrələnə bilmir.

**III.** Mövcudluq – Zakalılıq.
Mövcudluq – Zəkalılıqdır!” (Rasionalizm).
Adi Mövcudluq – Həyatilikdir.
Həyat – Zəkadan aşağıdır.
Ali Mövcudluq – Ruhanilikdir.
Ruhanilik – Zəkadan Yüksəkdir.
Deməli, Mövcudluq – əslində ya Zəkadan aşağıdır, ya da ondan Yüksəkdir.
Hər iki vəziyyətdə o, Zəkalıya bərabər deyil!

**836. BİZİM ÜÇÜN OLAN – ÖZÜ ÜÇÜN OLAN.**
Biz yalnız “Bizim üçün olanı” görürük, “Özü üçün olanı” görmürük. (Kantçılıq).
Biz Təzahürü görürük – Mahiyyəti görmürük, yəni Mahiyyətdən başqa hər şeyi görürük!
Mahiyyət isə Hadisə deyil! (Şey deyil).
Deməli, əslində biz Bütün olan Hadisələri (Şeyləri) görürük.
Bizim görmədiyimiz Xüsusi Özündə Şey (Hadisə) yoxdur!

**837. HİSSİYYAT – DÜNYA.**
"Duyğularımızdan kənarda Dünya yoxdur!" (Subyektivçilər).
Duyğularımıza bərabər olan Dünya Yoxdur.
Dünyada duyğularımıza uyğun olan hadisələr çox azdır.
Dünya duyğularımızdan kənardadır.

**838. ÖZÜNDƏN YARANAN.** "Dünyanı Allah yaradıb – çünki Dünyada Özündən yaranan Yoxdur – Başqasından yaranan Var!" *(Dinçi Məntiqi).*
Dünyada hər şey Özündən (Öz Daxili Mahiyyətindən) yaranıb. Dünyada Başqasından yaranan Yoxdur!

**839. KİÇİK BÖYÜKLÜK.**
Böyük Söz deyilib – Mütləq Söz deyilməyib.
Böyük Əməl görülüb – Mütləq Əməl görülməyib!
Mütləq Mənada kiçik Söz deyilib!
Mütləq Mənada kiçik Əməl görülüb!

**840. GƏRƏKSİZLƏŞƏN ZƏKA.**
"Dünya görünəndən artıq deyil!" (Maddiyyatçı təsəvvürü).
Əgər Dünya təkcə gözlə görünəndirsə – onda bəs Zəka nəyə lazımdır?
Maddiyyatçılar Zəkanı gərəksizləşdirirlər.

**841. RUHSUZLAŞDIRILAN RUH.**
Ruhu bədəndə axtarırdılar.
Ömür tükənəndə Ruh göyə çəkilirdi.
Ruhun o dünya sərgüzəştləri olurdu.
Ruhu – Ruhsuzlaşdırırdılar.

**842. VARLIĞIN MEYARI.**
"İnsan Həqiqətin meyarıdır!" (Sofistlər).
Həqiqət – Varlığın Meyarıdır!
Yalnız həqiqi olan Var olandır!

**843. HƏQİQİ TƏCRÜBƏ.**
"Həqiqət Təcrübədə Yoxlanılır!" (Praqmatizm).
Təcrübə Həqiqətdə yoxlanılır.

**844. ŞÜBHƏ ŞƏRİ.** Şübhə Mütləqləşəndə – Şərləşir.

**845. NİSBİ İNAM YOXLUĞU.**
Mütləq olmayan İnam – İnam deyil!
Nisbi İnam Yoxdur!

**846. ÇEVRİLMƏK – YÜKSƏLMƏK.**
Həyat Ali Həyata çevrilmir – Yüksəlir!

**847. MÜASİR TƏZAD.** Saçı ağardı – Üzü Qaraldı!

**848. YALANÇI HƏQİQƏT.** "Mücərrəd Həqiqət yoxdur, yalnız konkret həqiqət var". (Müasir Ehkam).
Sabah yalan ola biləcək həqiqət – yalançı həqiqətdir!
Ehkam yalnız yalançı həqiqət tanıyır!

**849. ZİDDİYYƏTLİ HƏYAT.**
"Ziddiyyət – Həyatın əsasıdır". (Müasir Ehkam).
Ziddiyyət – Həyatın kəsiridir.
Həyatın əsası – Mütləq Mahiyyətdir.

**850. İNSAN – DÜNYA.**
"Sinfi Mübarizə əsasında – yeni Dünya yaranacaq!" (Müasir Ehkam)
Sinfi mübarizə əsasında Kamil İnsan yaranmır.
Kamil İnsan yaranmırsa – Yeni Dünya da yaranmır.
Kamil İnsan İnsanın daxilində yaranır!

**851. GÖRÜNƏN – OLMAYAN!**
Daxildə Yetişməyən nə varsa – Yoxdur!

**852. SIÇRAYIŞ. I.** Bəşər sıçrayanda əksər hallarda şikəst olub və şikəst ayaqla irəliləməyə başlayıb.

**II.** Bəşər bəzən əsrlərlə düşünmür – birdən əsrləri düşünür, dəhşətə gəlir və başı alovlu halda sıçrayışa əl uzadır!

**III.** Sıçrayış Məcburiyyətini aradan qaldırmaq üçün, əvvəldən düz addımlamaq lazımdır!

**IV.** Sıçramaq istəmirsənsə – Əvvəldən düz yeri!

**853. RUHANİ – MADDİ.**
"Ruhani Tərəqqi maddi Tərəqqiyə əsaslanır". (Müasir Ehkam).
Maddi Tərəqqi İnsanı Maddi Əsarətdən qurtarır, mənəvi əsarətdən qurtarmır.
Ruhani Tərəqqi insanı Maddiyyat Əsarətindən qurtarır!

**854. BAŞ-AYAQ SALINMA.**
"Əvvəl ayaq – sonra baş!" – Məntiqi cəmiyyəti baş-ayaq salıb!

**855. SİNFİ MÖVQE.** Dünyaya Ehkamın gözüylə baxmaq.

**856. SİNFİ QİYMƏT.** Dünyanı Ehkamla Qiymətləndirmək!

**857. SİNFİ SƏNƏT.** Ehkamlaşmış.

**858. SİNFİ İDRAK.** Ehkam.

**859. SİNFİ MƏNƏVİYYAT.** Ümumiçilik.

**860. SİNFİ HƏQİQƏT.** Nisbi olan.

**861. ROMA ALLAHLARI.**
"Allahlar Sərkərdələrin paxıllığını çəkirlər". (Roma təsəvvürü).
Çünki sərkərdələrdən seçilmirlər.

**862. İNSANLARDAN ŞİKAYƏT.**
İnsanlar biri-birlərinə Həyatdan şikayət edirlər.
Unudurlar ki, əslində onlar biri-birindən şikayət edirlər.

Çünki Həyat elə İnsanlardır!
Həyatdan şikayət etmək – əslində İnsanlardan şikayət etməkdir!

**863. TƏBİƏT – İNSAN.** İnsanın ölümü – Təbiətin işidir.
İnsanın Yaşamağı – İnsanın işidir!

**864. BƏDƏN – RUH.**
"Bədən mövcud olmur – yalnız doğulur". (Platon).
Bədən yaşamır – Ruhu yaşadır.

**865. HÜNƏR YOXLUĞU.**
Şöhrət naminə göstərilən hünərdə Müqəddəslik yoxdur.
Müqəddəslikdən Məhrum olan Hünər – Hünər deyil!
Şöhrət naminə göstərilən Hünər – Yoxa bərabərdir!
Deməli, əslində Hünər Yoxdur.

**866. ƏMƏL YOXLUĞU.**
Şöhrət naminə görülən əməldə Müqəddəslik Yoxdur!
Müqəddəslikdən Məhrum olan Əməl – Əməl deyil!
Şöhrət naminə görülən Əməl – Həyatda Yoxa bərabərdir!
Deməli, əslində Əməl Yoxdur!

**867. YAŞAMAQ – YAŞAMAMAQ.**
Bəşər nisbi mənada yaşayıb, Mütləq Mənada Yaşamayıb.

**868. NAQİSLİK.** Xalis Hünəri sevən az tapılır.
Xalis Əməli sevən az tapılır.
Hünərin ölməzliyinə inanmırlar.
Əməlin ölməzliyinə inanmırlar.

**869. SƏDASIZLIQ.** Sadalanırlar – Sədalanmırlar.

**870. YAŞAMAMAQ MURDARLIĞI.**
"Yaşayışımız Murdardır!" *(Monten).*
Yaşamamağımız murdardır!

**871. ÖLDÜRƏN – YAŞADAN.**
Adam xaricdəki vəhşini öldürdü, daxildəkini yaşatdı.

**872. TOLSTOYUN NEXLÜDOVU.**
İnsanlaşdıqca Mühitiylə Yadlaşan!

**873. TOLSTOYUN KATERİNASI.**
Çirkaba atılan – bulaşmayan.

**874. ANNA KARENİNA.**
Çinovniki görməyi bacaran – İnsanı görməyi bacarmayan.

**875. KARENİN.** Çinovnikliyində İnsanı tam itirməyən.

**876. CAVİDİN İBLİSİ.** İnsanın əzəli daxili düşməni!

**877. NİSBİLİK GÜNAHI.**
Cavanlıqda sevdiyin Qızı indi sevə bilmirsən!
Çünki Məhəbbətin Mütləq deyildi!
Çünki sevgilin Mütləq məziyyətlərə malik deyildi!
Cavanlıqda dost saydığını indi dost saymırsan!
Çünki Dostluğun Mütləq deyildi!
Çünki Dostun Mütləq məziyyətlərə malik deyildi!
Duyğular payız yarpaqları kimi tökülür və burada heç kəsin təqsiri yoxdur!
Günah – Nisbilikdədir!

**887. AZALAN DOĞMALIQ.** Gözəl Sifət çoxdur, cazibədar Sifət çoxdur, cəlb edən Sifət çoxdur, Doğma Sifət azdır!..
Doğmalıq azalır!..

**879. MÜTLƏQLƏŞƏN YER.**
Doğulduğun Yer sənin üçün möcüzə, sirr, titrək duyğular dünyasıdır!
O, sənin qəlbində, ağlında təzədən yaradılıb, Mütləqləşib!

**880. ÜRƏK AĞRISI.** Ürək ağrıyır – ancaq titrəmir!

**881. ÇARLİ ÇAPLİNİN BALACA ADAMI.**
Məsumlara qalmayan Dünya!

**882. İTİRİLMİŞ NƏSİL.** Qərbin Qəribləri.

**883. "SEKSUAL İNQİLAB".** Əxlaqı "devirənlər".

**884. SÜRREALİZM.** Təcavüzkar İnstinktpərəstlik!

**885. QƏRB RUHU.** Sarsılmış!

**886. ŞƏRQ RUHU.** Çaşqın.

**887. MÜASİR GEDİŞAT.** Azğınlaşan Ruhsuzluq.
Amalsız yaşamaq bacarığı...

**888. İNSANİ İFLAS.** Şəhvətə Səcdə.

**889. İCTİMAİ ÇİRKAB.** Kütləvi sünilik.

**890. MÜASİR ANTİHƏYAT.** Yalanlaşan Həyat.

**891. MÜASİR YETİMLİK.** Böyüksüzlük.

**892. MÜASİR FƏALLIQ.** Yamanlıq.

**893. BƏŞƏR TARİXİ.** Çirkli, Ləkəli, Qaralama!..
Çirki silən gərək, Ləkəni pozan gərək, Ağı Qaraya yazan gərək!

*7-ci ilin Xəzan Ayı, Bakı.*
*(Oktyabr, 1985-ci il).*

# 𐰢𐰀𐰤𐰀𐰞𐰀𐰺

# MƏNALAR

**(Onuncu Qutsal Kitab)**

## *Qar Ayı, 7-ci il*

***
Cibimdə İdeya qəpik-quruşu gəzdirirəm.
İdrak dilənçilərinə paylamaq üçün.

***
Cavanlıqda balaca qazançalar qaynadardım.
İndi Böyük Qazan qaynadıram.

***
Vəsiqələrlə yarpaqlananlar.

***
Bağçasında meyvə bitmir dahi bağbanın.

***
Avgi tövləsindən cənnət törəyəcək!..

***
Fəal olduğu dərəcədə fəaliyyətsiz!

***
Özgəsinin gözünə girmək üçün öz gözünü çıxardanlar!

***
Kölə məğrurluğu!

***
Beyinlərini Həqiqətin üzünə bağlayanlar!

***
Azanların azğınlığından olmaz!

***
Dartışanlar cəmiyyəti!

***

Yaşamamaq üçün yaşayanlar!

***

İdrak yalına o qədər alışıb ki, idrak çörəyinə ehtiyac hiss eləmir.

***

Başı qapazlı qadınlar başı qapazlı kişilərlə əvəz olundu.

***

Sünilik o qədər çoxalıb ki, təbii görünür.
Təbiilik o qədər azalıb ki, süni görünür.

***

Doğruluq oğurlandı!

***

"Düz gedən – düz gedir". (Qorxaq fikir)
"Düz gedən – düz görür". (Müdrik fikir)

***

Bir vaxt Ziyalının başını kəsirdilər, ***çünki Baş var idi.*** İndi Ziyalının başına sığal çəkirlər, ***çünki Baş yoxdur, saç var.***

***

"Xarici Dili bilirəm!" – deyib lovğalanır.
"Xaricilər Dilimi bilirlərmi?" – bunun qeydinə qalmır.

***

Zurna bağırır ki, "Sağ qalmışam!"
Saz çığırır ki, "Sağ qalmışam!"
Tar səslənir ki, "Sağ qalmışam!"
Kaman dillənir ki, "Sağ qalmışam!"
***Sağ qalmalarına heyrətlənirlər.***

## *Köçəri Ayı, 7-ci il*

***

***İyirminci əsr:*** Xalqın keçid dövrü – ya özü olacaq, ya məhv olacaq.

***

Rəngim – İşıq, Rəmzim – Ocaq, Bayrağım – Vicdan, Yarağım – İnam.

***

Təlxəklərin dilində Həqiqət təlxəkləşir.

***

Yuxu – təxəyyülün sərgüzəştləri.

***

Həvəs – qabiliyyətin qasidi.

***

Mütləqilik – Xeyirlikdir. Mütləq Şərdə – Mütləqilik yoxdur.

***

***Zor həddi:*** Zorla İctimailəşdirmək olar, İnsanlaşdırmaq olmaz!

***

***Dövlət hipnozu:*** Tikdirir – tikən görünür.

***

Müəllimlər: ***Varidat*** – kasıblıq ləyaqətini qandırır,
***kasıblıq*** – varidat ləyaqətsizliyini qandırır.

***

Bəşər Təkallahlıqdan Bütpərəstliyə yuvarlandı.

***

Ədəbiyyatın tərbiyə etdiyi nəsil ədəbsiz olur.

***

Bəşər hələ də İdrak Zirvəsinə Dərədən baxır.

***

Bəşəri Dilbirlik Bəşəri Birdillik deyil!

***

Sənəklərinin suyu axır.

***

***Marksın görmədiyi:*** Heç şey heç kəsin olmayanda hər kəs heç şey olur.

***

"İctimai dəniz"in beyni köpükmüş!..

***

Yaralı başda təzə dəlləklik.

***

Fil yüyürmür – yeriyir. Dovşan yüyürür.
Fil cəmdəkli dovşan – gülüncdür.

Yeriyəndə geri qalan, yüyürəndə quyuya düşən.

***

Yad iqtisadiyyat bəhrə vermir.
Yağı dövlət sevilmir.

***

***Təzə xətt:*** Qoyunlaşmanın dovşanlaşması.

***

***Təzə İnam:*** Yad iqtisadiyyat doğmalaşacaq.
Yağı dövlət seviləcək!

***

Rəsmi Allah olmur, rəsmi Şah olur.
Allah qeyri-rəsmi olur.

***

Yuxarının iti olur ki, Aşağının canavarı olsun.

### *Günəş Ayı, 8-ci il.*

***

Sürüdən çıxmaq.

***

***Mütləq Sual:*** “Özünlə öz Evinə nəyi aparacaqsan?”
Nəyi saxlamısan ki, aparasan.

***

***Qadağanlar:*** Qabağa baxma – Uçurumu görərsən!
Yuxarıya baxma – Alçalmağını görərsən!
Geriyə baxma – Özgələşməyini görərsən!

***

***Zəmanəylə Təmas:*** Əlçatmazlıq, Müstəqillik, Bənzərsizlik.

***

***Təzə Zenonçuluq:*** Axillesin çata bilmədiyi Tısbağa Addımı.

***

Amal Həyatiləşmir, Həyat Amallaşır.
Amal – Həyatdan yüksək, Həyat – Amala yüksələn.

***

***Keçirirlər!*** Bəşər böhran keçirir, ölkə böhran keçirir, elə bu səbəbdən də hərcayi yubileylər keçirir!

***

Saray Xəlqaniləri!

***

***Çevrilmələr:*** Humanizm – ***Total*** Yadlaşma. Kollektivizm – Yad Birlik. Beynəlmiləlçilik – Ardıcıl Özgələşmə.

***

***Təklik Zəruriliyi:***
Müasir Söhbət – Qeybətə bulaşmaq.
Müasir Dostluq – Xəyanətlə üzləşmək.
Müasir Məhəbbət – Cinsi Təmasla girələnmək.

***

***Naşılıq:*** Sükutun dilini bilmirlər.

***

***Yalan:*** "Möhtəşəm Maddiyyat yaradıram ki, möhtəşəm Mənəviyyat yaransın!"
***Doğru:*** "Möhtəşəm Maddiyyat yaradıram ki, möhtəşəm Hakimiyyət yaransın!"

***

***Yalan:*** "Son nəticədə İnsana xidmət edirəm!"
***Doğru:*** "Son nəticədə İnsana xəyanət edirəm!"

***

***Fərq:*** Demokratik cəmiyyətdə davranış sərbəstliyi alınır, totalitar cəmiyyətdə heyvərəliyə çevrilir.

***

İctimai Həyat – adamları Ruhani Həyatdan ayırır.

***

***Yadlaşma səviyyəsi:*** Cəmiyyətdən oğurladığını haram saymır.

***

***Nəticə:*** Kütləvi Azadlıq əvəzinə – kütləvi oğurluq.
Azad Qadın əvəzinə – yarımqadın.
Yeni İnsan əvəzinə – köhnə adam.

***

Həyat – ucalıqdan endirən.
Amal – ucalığa qaldıran.

***

***Vəziyyət:*** Adamı sevmirlər, insanı tapmırlar.

***

***Təhlükə:*** Bir nəfər təzə adam yaratmadıqları halda, təzə bəşəriyyət yaradacaqlar!..

***

***Platonizm:*** Bu gündə yaşayan Mən deyiləm, mənim kölgəmdir.

***

İnsanı görmək üçün hamını görmək lazım deyil, daxilindəki Mütləqi görmək kifayətdir.

İnsanı sevmək üçün hamını sevmək lazım deyil, daxilindəki Mütləqi sevmək kifayətdir.

***

***Tarixi yadlıq:*** Ərəb havasına yatdı, Qərb havasına oyandı, öz havasını çalmadı.

***

"Ürəklərdə ruhaniyyat odu sönüb" – deyirsən.
Sönmüşlərin halına yanmısanmı?

***

Həyat bağçasında Mütləq Ağacı bitməyib.

***

Yadlaşan yaddaş.

***

***Səciyyələr:*** İtaətkar Xalq – İradəsizləşən Xalq, İntizamlı Xalq – İradəli Xalq, Azad Xalq – Qüvvətli Xalq.

### *Çiçək Ayı, 8-ci il*

***

***Görünmə:*** Mənfi adi görünür, müsbət – əcayib.

***

***Utanmamaq dərsi:*** Özgə Dilini bilmir – utanır, öz Dilini bilmir – utanmır.

***

***Atasızlar – anasızlar:***

Atasız olmurlar, çünki Atalı deyillər.
Anasız olmurlar, çünki Analı deyillər.

***

***Münasibət:*** Kiçiyi kiçildir – kiçik görünməmək üçün.

***

Ucalan alçalmır. Alçalan ucalmır.

***

Böyüklüyə əyilməyən – kiçikliyə əyilir.

***

Yoxlar nə çoxdur!

***

Həyat məhəbbəti öldürür, Amal – yaşadır.

***

Romantik həyat olmur, Romantik Xəyal olur və Amala çevrilir.

***

Həyat çirkabını Amal suyuyla Yumaq olar, həyat suyuyla yox.

***

Məzlum Xalqa Məğrurluq daha çox gərəkdir.

### *İşıq Ayı, 8-ci il*

***

Hər bir Fabrik – Antiinsanidir.
Hər bir Zavod – Antiinsanidir.
İri Sənaye – Quldarlıqdır.

***

"İctimaiyyətçi" cəmiyyətdə hamı cəmiyyətin kirayəçisi olur.

***

Realist xətt – təslimçilik.

***

İdealist dərinliyi, materialist dayazlığı.

***

Nisyədən böyük nəqdi yoxdur!

***

Asan yol – Yalan Yol.
Çətin yol – Doğru Yol.

***

***Nəqdi – Nisyənin kölgəsi.***
***Nisyə – Nəqdinin canı.***

***

İmkansızlıq böyüklük imkanı yaradır.

***

Ruhani Təcrübə – Saflıq.

***

Uzağı görən – Amalı görür.
Yaxını görən – Həyatı görür.

***

Əyildikcə əyrilir.

***

Öküz kimi Sürüldü, Qoyun kimi Qırıldı, Dovşan kimi Yüyürür.

***

Korlar, karlar, lallar arasında görmürlər, eşitmirlər, dinmirlər.

***

Ətalətin ölümü – Sabitlik.

***

Gədalıq çoxalanda Ədalıq da çoxalır.

***

***“Cəsarət”.*** Oynadılır, oynadan görünür.

***

Qorxu qorxağın qənimidir, Cəsurun quludur.

***

Yalanlar: Rəyasətpərəstin milli Qüruru,
Şöhrətpərəstin Məğrurluğu,
Kolxozçu Mülkiyyəti,
Fəhlə Hakimiyyəti.

***

Antihumanizm – hamı İnsandır!

***

Humanizm – hamıda İnsan var.

***

***Özümlük:*** İnsanla məşğulam, Xalqla məşğulam, Sabahla məşğulam, Amalla məşğulam.

***

***Meyar:*** Olanlardan Yüksək, Olmayan dərəcədə.

***

Şairdən Peyğəmbər düzəldən Xalq Məzlumdur.
Aşıqdan Peyğəmbər düzəldən Xalq Məzlumdur.
Məzlum Xalqa Məğrur Ata gərəkdir!

***

Heçlik çoxdur və bu səbəbdən də hər şey olmaq lazımdır!

***

***Hər şey ola bilmirsənsə – heç şey olduğunu dərk elə!***

***

Zora əyilirlər – Zoru əymirlər!

***

***Zəruri çağırış:***

Qorxaqlığınızdan qorxun!
Naşılığınızdan daşının!
İnamsızlığınıza inanmayın!
Məzlumluq zülmündən qurtarın!

***

***Mülkiyyətdən məhrum olan adam cəmiyyətin pişiyinə çevrilir.***

***

***Fərq:*** Həyat – yaradır ki, öldürsün.
Amal – yaradır ki, diriltsin.

***

Zəruriyyəti Tarix yaratmır, Şəxsiyyət yaradır. ***Şəxsiyyət təkcə hərəkat yaratmır, həm də onun Zəruriliyini yaradır.***

***

Köhnəlik Tarixin çiynində həyatdan gedir.
Yenilik Şəxsiyyətin çiynində həyata gəlir.

***

Alçağı Yüksəyin Düşməni saymaq – Alçağı yüksəltməkdir.

***

Şəri Şərlə (özünə bərabərlə) məğlub etmək olmaz.
Şəri Xeyirlə (özündən üstünlə) məğlub etmək olar.

***

Xüsusi Aktivçilik – Ətalətin Təzahürü.
Tələsmək – Gecikmənin Təzahürü.

***

***Fərq:*** Həyat eşqi – özünümühafizə.
Amal eşqi – özünütəsdiq.

***

Sosializm sağçılığı – antidemokratizmi.

***

***Mömin ə:*** Allahı Göydə axtarırsan, Göyü niyə özündə axtarmırsan?!

***

Qabıqdan çıxır ki, dünyanı qəlibə salsın.

***

***Həyat – Amal:***

Həyat – çirkabdan yaranan, çirkab yaradan.

Amal – çirkabdan qurtaran, saflıq yaradan.

***Həyat – Amal yaratmaq imkanı yaradır, onun ruhani dəyəri bundadır.***

***

Həyat Amal baxımından naqisdir.

Bu səbəbdən də Amaldan qorxur.

***

Kamil dəyişmir, çünki köhnəlmir!

***

Zamanla ayaqlaşmaq üçün axsaq olmaq gərək!

Zamanla dostlaşmaq üçün satqın olmaq gərək!

Zamanla barışmaq üçün vicdanla savaşmaq gərək!

***Şölə Ayı, 8-ci il***

***

Elə bilirdi ki, möhtəşəmdir, bildi ki, məzlumdur.

Elə bilirdi ki, xoşbəxtdir, bildi ki, bədbəxtdir.

Elə bilirdi ki, haqlıdır, bildi ki, haqsızdır.

Elə bilirdi ki, böyükdür, bildi ki, kiçikdir.

***Bildi ki, bilmirmiş!***

***

Boynu yoğun, qarnı yekə, yerişi məğrur – "bəxtiyar" bir qul!

***

Adamdakı İnsanı sevirəm!

***

Məxluq yaratdılar, adını "Yeni İnsan" qoydular.

***

Palçığa batır ki, təmiz qalsın!

***

Quruluşu dəyişə bilirlər, ***İnsanı dəyişə bilmirlər.***

***

Danışmaq əvəzinə miyoldayır, mırıldayır, fısıldayır.

***

Torpaq hamılaşdı. Hamı Torpağa tamarzı qaldı.

***

***Total çinovniklik:***

Kolxoz sədri – Dövlət məmuru.
Yazıçı – Dövlət məmuru.
Alim – Dövlət məmuru.
Rəis – Dövlət məmuru.
Katib – Dövlət məmuru.

***

Siyasi Sabitlik – Qorxulu Sakitlik!

***

Yoldaş, yolun hanı?

***

***İntibah İstiqaməti:*** Antiinsani Quruluşun daxilində başlayır, həmin Quruluşu devirir, Yeni Quruluşa davam edir.

***

***"Şair xalq" laylası:*** Xalqa Ədəbiyyatçı şüuru aşılayırlar, filosof şüuru aşılamırlar, siyasətçi şüuru aşılamırlar.

***

Məğlubiyyət – Naşı Qələbəsi,
Qələbə – Müdrik Məğlubiyyəti.

Fərəh – Müdrik Kədəri,
Kədər – Naşı Sevinci.

Nəşə – Naşı Müdrikliyi,
Əzab – Müdrik Nəşəsi.

***

***İctimai çevriliş həddi:***

Burjuyluğu ləğv etmək üçün Burjuyu İnsana çevirmək gərəkdir.

İctimai çevriliş bunu bacarmır. Burjua sinfini ləğv edir, Burjuyluğu saxlayır.

Feodalizm Quruluşunu ləğv etmək – Feodallığı ləğv etmək deyil. Feodallığı ləğv etmək üçün Feodalı insana çevirmək gərəkdir. Bunu İctimai çevriliş bacarmır. Feodal sinfini ləğv edir, Feodallığı saxlayır.

***

***İctimai cəza həddi:***

Quldurluğu ləğv etmək üçün Qulduru İnsana çevirmək lazımdır. İctimai Cəza bunu bacarmır, Qulduru cəzalandırır, quldurluğu saxlayır.

***

***Müasir məziyyətlər:*** Kölə olduğu dərəcədə "məğrurdur". Oğru olduğu dərəcədə "doğrudur". Çirkli olduğu dərəcədə "təmizdir".

***

***İdeal idealsızlıq:*** Hamının maddi tələbatı tam ödəniləcək! Bu o demək deyil ki, ədalət bərqərar olacaq, həqiqət qalib gələcək, adam insanlaşacaq...

***

***“Elmi baxış”:*** İnsani münasibətləri İqtisadi münasibətlərlə izah edirlər.

***Mahiyyəti Təzahürlə izah edirlər!***

***

Özünə oxşamasaydın, necə oxşanardın?!

***

“Heç kəsim yoxdur!..” Bəs özün özünə kəs deyilsən?

***

Həyatilik – qeyri-kamillik. Amallıq – kamillik.

***

***Sevgi:*** Amalı sevdiyimdən, həyatı sevmədim.
Həyatı sevsəydim, Amalı sevməzdim.

***

Böyüklük – Amallıqdır. Ona bərabər Böyük tanımıram.

***

Ruhlanmaq – həyatdan Yuxarıya qalxmaq!

***

Təqlidçilik – Təslimçilik.

***

Səadət, yəni Ləyaqət!

***

***Şöhrət:*** Böyüklüyün kölgəsi, kiçikliyin kölgələndiyi...

***

***Yapon hadisəsi:*** Yaponlar Avropalılığı Yaponlaşdırdılar, Başqaları isə Avropalaşdılar.

***

***Yeni təbəqələr:*** Mənəvi Gədalar, Mənəvi Qarabaşlar.

***

İdeya – Varlığın Günəşi. İdealizm – İdrakın Günəşi.

***

Zəif – təqlid edir, Güclü – mənimsəyir.

***

İt kimi hürmək istəmirsənsə, İçindəki İti öldür.
Canavar kimi ulamaq istəmirsənsə, İçindəki Canavarı öldür.

***

Bugünün ən böyük səhvi ondadır ki, özündən başqa Sabahı tanımır.

***

İnsaniyyəti Cəmiyyətin boyuna biçmək olmur, İnsanın Boyuna biçmək olur...

***

Adam – Həyatında neçə gün insan olur, görəsən?

*30 Arzu günü.*

### *Od Ayı, 8-ci il*

***

***Ləyaqət əlifbası:*** Yoxsulluqdan utanmamaq, bu gündən beşəlli yapışmamaq.

***

Köləlik İrsiyyətə çevrilir və nəsildən nəsilə keçir.

*1 Ümid günü.*

***

***Şər əməli:*** İslam Şərqin belini əydi, Avropalaşma Şərqin belini qırdı.

*2 Dözüm günü.*

***

Bədiiyyatpərəstlik ehtirası alışdırırlar ki, siyasi idrakı söndürsünlər.

***Babəki Nizaminin kölgəsində gizlədirlər.***

***

Tarixi elə yazırlar ki, bugününə şükür deyəsən.

***

Elmi Ad, Dərəcə, Vəzifə, Rütbə Səhrasında İdrak Bulağı axtarma.

***

Azərbaycan dilində danışmırlar, ancaq onu "öyrənirlər", "öyrədirlər".

***

Gözəl həyatımızın Eybəcərlikləri...

***

***Portret:*** Məğrur Gödəni var, Kölə Ürəyi.

***

***İri portvelli:*** O boyda Portveldə bir beyinlik ağıl yoxdur...

***

Oyuncaq hakimlər azğınlıqla, rüşvətlə, nəşəbazlıqla oyuncaqlığın əvəzini çıxmağa çalışırlar.

***

***Etiraf:*** Hamı Adamdır, yəni heç Kəs İnsan deyil!

***

***Dövrlər:*** Ruhani Dövrümüz – Zərdüşt.
Cəsarət Dövrümüz – Babək.
Ağsaqqal Dövrümüz – Qorqud.
Fədakar Dövrümüz – Nəsimi.
Hikmətli Dövrümüz – Muğamat.
Məhəbbətli Dövrümüz – Füzuli.
Haraylı Dövrümüz – Saz.

***

Zamanla ayaqlaşmaq olar, qanadlaşmaq olmaz.

***

Düz yeriyəndə yıxılır.

***

Həyata elə sərməst olublar ki, Amala ayıla bilmirlər.

***

***İmtina:*** Əli aşından da keçdi, Vəli aşından da.

***

Nə istəyirsən bu yazıq həyatdan, – Özündə nə var ki, Sənə nə versin?

***

Həyata başları elə qarışıb ki, Amala vaxt tapmırlar.

***

Ağzını açanlar çoxaldıqca qulağını açanlar azalır.

***

***Ləyaqət:*** Hırıldayanlar çoxalıb, Gülənlər azalıb.
Zarıyanlar çoxalıb, Ağlayanlar azalıb.

***
Qərb sürüyə getməkdən çəkinmir...

***
***Şərqşünaslıq:*** Şərqə Qərbin gözüylə baxmaq.

***
Kəlməni adamın ağzında kəsirlər...

***
Özümü sevmirəm, – Özümdəkini sevirəm.

***
Təbiət İnsanı nəzərə almır, Cəmiyyət də eləcə.

***
Xarici düşməni məğlub edən məzlum xalq.

***
Özü yazıq olduğu üçün ***hamıya*** yazığı gəlir.

***
Şöhrət qəlyanını hərarətlə sümürür, qəlyanda isə tənbəki çox azdır.

***
Hamı öz ağlına inanır, heç kəs başqasının ağlına inanmır.

***
Həyat Eşqi – Yaşamaq üçün Yaşamaq.
Amal Eşqi – Yaşamaq üçün Yaşamamaq.

***
Səfeh – səfehliyin nə olduğunu bulmir.
Bunu bilmək üçün ağıllı olmaq gərək!

***

Təbiət İnsanda öz imkanlarından kənara çıxır.
Bəşərin Faciəviliyi bundadır.

***

***Həyat:*** Daim yaradır və daim öldürür.
Daimi yaratmır ki, öldürməsin və yaratmaqdan qalsın.

***

***Vəziyyət:*** Xarici heyvanı öldürə bilən Bəşər Daxili heyvanı öldürə bilmir.

***

Həyat Yalansız yaşaya bilmir.
Amal Yalanla yaşaya bilmir.

***

***Möcüzə:*** Cəmiyyətə bulaşmaq və təmiz qalmaq!

***

***Rütbə böyüklüyü:*** Rəsmi Kaliostroçuluq (kələkbazlıq).

***

***Rəsmiləşən xəlqilik:*** Ölən Xəlqilik.

***

***Fəhlə aqibəti:*** Xilas olmadan – xilaskar olmaq!

***

Həyat – Adam Komediyası, İnsan Faciəsi.

***

Müasir Azərbaycan – Anti Azərbaycan.

***

Müasir Saray – Gədaxana!

***

Vətənsiz gödənlilər!

***

Biclərin (Ataları bilinməyənlərin) bicliyi (kələyi).

***

Küçələrimizi bivec adlarla murdarladılar.

***

Şər – süniliyi sevir, xeyir – təbiiliyi.

***

Özgə dildə danışır ki, sayılsın!

***

Şəhvət – Həyatın verdiyi Səadət.
Qeyrət – Amalın verdiyi Səadət.

***

Şairlər – ya şahların, ya peyğəmbərlərin, ya da həyatın xidmətçiləri.

***

Kişinin yanında kişi gəzər, kişi tapılmasa, kişi tək gəzər!

***

***Təskinlik:*** Balaca olduğum üçün böyüyəm.

***

***Özgələşmə:*** “Böyüklük Özgədədir” inamı.

***

Sadiqlik sədəqəsi.

***
Həyat dolur: – Kimlə?
Boşalır: – Kimlə?

***
Şəhvət – Cinsi Nəşə əsarəti.

***
Bugünün olmayan:
Bugündə İnam var.
Amal var.
Dağlar var.
Çaylar var.
Səma var.
Günəş var.
Bugündə Ülvi nə varsa, bugünün deyil, əbədiyyətindir.

***
Yeni Təbəqə: ***Mənəvi Proletariat.***

***
Səfehlər çoxaldıqca Dəlilər azalır.

***
Həsədsizlik:
Qocalıram – sən ki boy atırsan!
Əksilirəm – sən ki yüksəlirsən!
Gedirəm – sən ki gəlirsən!

***
– Niyə gəldin, niyə gedirsən?
– Gəldim ki, görüm, duyum, anlayım!
– Nə gördün?
– Gördüm ki, Amaldan başqa həyat yoxdur!
– Nə duydun?
– Duydum ki, Amaldan başqa həyat yoxdur.

– Nə anladın?
– Anladım ki, Amaldan başqa həyat yoxdur.
– Niyə gedirsən?
– Çünki Amal Həyata sığmır!

***

Təbiətin Şah əsəri – Bəşər!
Bəşərin Şah əsəri – İnsan!

***

Koroğlunun Dəliləri – Vurğunları!

***

***Heyvanlaşan:*** Cütləşməkdən başqa cütlük tanımır.
***Görümlər:*** Ağlın gördüyünü Göz görmür.
Ruhun gördüyünü Ağıl görmür.

***

***Ruhani Zadəganlıq:*** Maddi yoxsulluqdan başlayır.

***

Bir İnsan Yetirmək Bir Quruluşu Devirməkdən çətindir.

***

İnsan dəyişməsə – Dünya dəyişməz!

***

***Bəşəri fəlakət:*** Özünə yaxınlaşmamış – Özündən uzaqlaşdı!

***

Nikbinlik: ***"Həyat Azdır!" – İdeyası.***

***

Xalqı sevmək – Əhalini bir nəfərə qədər sevmək deyil.
***Xalqı sevmək – Haqqı sevməkdir.***

***
Həyat çayında çimən çirklənməyə bilməz!
Qəbahət üçün Ölməsən – Ləyaqət üçün Dirilməzsən!

***
Müasir Azərbaycan – Anti Babək.
Müasir Rusiya – Anti Tolstoy.
Müasir Dağıstan – Anti Şamil.

***
Yalanın qapısını tay-tay açıblar bəşərin üzünə.
Həqiqətin qapısını bağlayıblar.

***
"Yetkinlik": Yalan danışmaqdan çəkinmir.

***
Yalanı elə danışır ki, Doğru görünür.
Doğrunu elə qatışdırır ki, Yalan olur.
Yalanla Həqiqət arasında fərqi unutdular.

***
Yalanla yallananlar.

***
Bugünkülərə bənzəmirəm – bundan da böyük bəxtiyarlıq varmı?!

***
Adam da ola bilmirlər, məxluqlar!

***
Fərəh quraqlığına düşdü ürəklər.
Od tutub yandılar.

***
***Məziyyət:*** Maksimal Ləyaqət – Minimal İmtiyaz.

***

***Demokratiya oyunu:*** Hamı hakimlik eləyəndə hamı məzlum olur.

***

Həyat – İnsanı yaşatmır – dolandırır.
İnsanı yaşadan Amaldır.

***

Dünya baş-ayaq olanda ayaq baş olur, baş ayaq.

***

Həyatın üzünü Amal ağardır...

***

***Mənəvi sanitariya:*** Beyni hərcayi fikirlərdən, ürəyi hərcayi duyğulardan təmizləmək.

***

Makarenko: – Pedaqogika Lısenkosu.

### *Qürub Ayı, 8-ci il*

***

***İlişmələr:*** Pedaqogika Makarenko ehkamına ilişib, Psixologiya Pavlov ehkamına ilişib.

***

Hay-həşirdə Səsmi eşidəcəksən?
Qaçhaqaçda Yolmu görəcəksən?
Aldanışda Həqiqətmi tapacaqsan?

***

***Nəticə:*** "Qoparılıb atılan" nə varsa – yenidən cücərir. Əkilən nə varsa – bəhrə vermir.

***

***Çevrilmələr:*** İnamsız – İnama İnanmır!
İdraksız – İdraka İnanmır!
Mənəviyyatsız – Mənəviyyata İnanmır!
İradəsiz – İradəyə İnanmır!

İnamsızın İnamı – İnamsızlıq!
İdraksızın İdrakı – İdraksızlıq!
Mənəviyyatsızın Mənəviyyatı – Mənəviyyatsızlıq!
İradəsizin İradəsi – İradəsizlik!

***

İctimai Mülkiyyət: İqtisadiyyat ***və əhali.***

***

***Geriliklər:*** İdraki gerilik – Marksizm.
İctimai gerilik – Sosializm.
İqtisadi gerilik – İctimai Mülkiyyət.

***

Naxırda fərdilik olmur, Xüsusilik olmur.
Sürüdə fərdilik olmur, Xüsusilik olmur.
Heyvanlar aləmində Fərdilik olmur, Xüsusilik olmur. ***Fərdilik olmayanda, xüsusilik olmayanda – İnsaniyyət olmur.***

***

***Şərq-Qərb:***
Bədənini pünhan saxlayanda Ruhaniyyat Odu yanır.
Bədənini aşkar saxlayanda Ruhaniyyat Odu sönür.

***Bədəndə aşkar edilməli bir şey yoxdur.***
***Bədəndə pünhan saxlamalı şey çoxdur.***

***

***Kollektivçilik:*** Pünhan xudbinlik.
***Fərdiyyətçilik:*** Aşkar mənəmlik.

***

***Əmələgəlmə:*** Bədən heyvandan əmələ gələ bilər.
Ruh heyvandan əmələ gələ bilməz.

***

Poeziya – Həyata sarılan,
Fəlsəfə – Amala tapınan.

***

Rəsmiləşən Cəsarət Qorxur.
Rəsmiləşən Həqiqət Yalan danışır.
Rəsmiləşən Tənqid Tərifləyir.

***

Həyatın tərbiyəsizləşdirdiyi...

***

Həyat Adamı – Amaldan keçən.
Amal İnsanı – Həyatdan keçən.

***

***Uyğunluq:*** Qananlar – Yananlar.

***

***Zamançı:*** Məxluq dilində danışır,
Adam dilində kəkələyir,
İnsan dilini bilmir.

***

Şərə bulaşmamış Xeyiri bəyənmir...

***

Həyat bulağında çay suyu qaynayır.
Amal çayında bulaq suyu axır.

***

Qaşda, gözdə, nazda, qəmzədə, qamətdə ülvilik axtarmaq – naşılıqdır.

***Poeziya bu naşılığı əbədiləşdirir.***

***

Cismanidə Ülvilik yoxdur.
Yalnız Ruhani olan ülvidir.

***

Təbiətdə İnsan öz Ruhunu oxuyur.

***

Pasport – kölə damğası.

***

Kollektivçilik Antixəlqiliyi.

***

Fərdiyyətçilik Antifərdiliyi.

***

Yaralarım – Yaraqlarım.

***

Həyat kitabını oxuyub qurtardım. Onda heç bir məna tapmadım... ***Amal Kitabını yazmağa başladım.***

***

Dəlilər azaldıqca səfehlər çoxalır.

***

Hamıya hörmət eləmək – hörmətsizlikdir.
Hörmət – Mənəvi taxtdır. Onda hər kəs əyləşə bilməz!

***

Adam Adama rast gəlir, ancaq İnsan İnsana çox az rast gəlir.

***

Çətinliklərdən çətinlik çəkmirəm.

***

Hamı ac qalanda belə, Yaltağın Yalı var.

***

Yaxşının qazancı – Yaxşılıq!
Pisin qazancı – Pislik!

***

***Yadlıq:*** Özündən oğurlamazlar. Yaddan oğurlayarlar.
***Hamı cəmiyyətdən oğurlayır. Çünki hamı cəmiyyəti yad sayır.***

***

Cəmiyyət Adamdakı Adamlığa qalib gəlir, Adamdakı İnsanlığa məğlub olur.

***

Ömür quş kimi uçmur, Ağac kimi bitir.

***

Maddi əmək – Təbiətlə döyüş.
Ruhani əmək – Özüylə döyüş.

***

***Anti romantika:*** Romantik Təbiət var, Romantik Ruhaniyyat var, Romantik cəmiyyət olmayıb.
***Cəmiyyət – Antiromantikdir.***

***

Ölüm Naşıdır. O heç kəsi fərqləndirmir.

***

***Yönlər: Həyatdan kam aldım – kal qaldım.***
***Amala Yetdim – Yetişdim!***

***

***Kölə olduğu dərəcədə məğrur...***

***

**Sabah:** Azərbaycan – türkün beyni və ürəyi.
Türkiyə – türkün qolu və kürəyi.

***

***Cəmiyyət Aqibəti:*** Ayağı başa çıxartdı, başı ayağa saldı və... baş-ayaq oldu.

***

"Torpağın duzu" elan olundu və torpağın duzu yoxa çıxdı.

***

***"Azadlıq" hüdudu:*** Əxlaqsızlıqdan başqa heç bir sərbəstliyə yol verilmir!

***

***Mənşə:*** Misilsiz nəzəriyyədən, misilsiz quruluşdan misilsiz antihumanizm peyda oldu.

***

***Yeni çağırış:*** Gəl bir-birimizi sülh yoluyla yox edək!

***

***"Yenilik":*** Yalan xamırından həqiqət çörəyi bişirmək!

***

***İqballar:*** Əxlaqsızlıqla köləliyin Birliyi...
Əxlaqdan "azad oldular" və əxlaqsızlıq əsarətinə düşdülər...

***

Demokratik ölkələrdə ən çox dövlət başçılarına qəsd edilir, antidemokratik ölkələrdə xalqlara.

“Ağ gün” üzüqaralığı...

***

***“Yeni xalqçılıq”:*** Həm xalqımı sevirəm, həm də onun əsarətini.

***

***Ruhani Qabiliyyət:*** Eşidilməyəni Eşitmək.
Görünməyəni Görmək.
Deyilməyəni Demək.

***

***Ruhani karlıq:*** Sükutun səsini eşitmirlər.

***

***Rəmzi cismaniyyət:*** Yekə qarın, balaca baş.

***

***Yeni “böyüklər”:***
Nəriman Nərimanov – xalqı boyunduruğa saldı.
Mir Cəfər Bağırov – xalqı kölələşdirdi.
İmam Mustafayev – xalqa kələkbazlıq öyrətdi.
Vəli Axundov – xalqa oğurluq öyrətdi.
Heydər Əliyev – xalqa yaltaqlıq öyrətdi.

***

***Bugünləşdirilənlər:***
Nizamini bugünləşdirirlər.
Nəsimini bugünləşdirirlər.
Füzulini bugünləşdirirlər.
***Ülviliyi bəsitləşdirirlər.***

***

***Alınan – verilən:***
***Alınan:***

Bakı nefti.
Sumqayıt poladı.
Daşkəsən kömürü.
Qarabağ pambığı.
Şirvan üzümü...

***Verilən:***

Antixəlqi Akademiya.
Antixəlqi Konservatoriya.
Antixəlqi Universitet.
Antixəlqi Tədris müəssisələri.
Antixəlqi Ziyalı sürüsü.
Metro “möcüzəsi”,
Dənizkənarı bulvar “savabı”.
“Bərpa” bəzəyi.
Öldürücü xəstəxanalar.
Potyomkin kəndləri.

***

***Cəfəng məntiq:***
Cəfəngiyyatı Məntiqi surətdə əsaslandırırlar.

***

Ən böyük kələkbaz – ***Dövlət.***
Ən böyük kələklənən – ***Əhali.***

***

Həyat üçün Ömür çoxdur.
Amal üçün Ömür azdır.

***

Sadəlik – mürəkkəbliyin zirvəsi.
Mürəkkəblik – sadəliyin ilk pilləsi.

***
Həyat – Adamı meyidə çevirir və torpağa gömür.
Amal – Adamı İnsana çevirir və ürəklərdə yaşadır.

***
Mükafatla cəzalandırmaq.
Dəlillə yanıltmaq.

***
Ömrümün çoxu gedib, azı qalıb,
Qışı gedib, Yazı qalıb!

***
Özüylə tək qalanda darıxır – çünki darıxdırıcıdır.

### *Ata Ayı, 8-ci il*

***
İnsan – amil deyil – Amaldır!

***
***"Yeni Siyasət":***
Faydalı əzizləmə (menecerlik).
"Sülhbaz" qloballıq (dünyaya təsir).
Elmi-texniki sənayeləşmə.
"Xilasedici" dinamizm (dəyişkənlik).
İcazəli "demokratizm".
Çərçivəli "əxlaqilik".
Ehkamlı "həqiqət".

Məlum oldu ki, "Dövrün İdrakında" İdrak çatışmır, "dövrün Ləyaqətində" Ləyaqət çatışmır,
"dövrün Vicdanında" Vicdan çatışmır.
Yazıq Dövr!

***

Mənəviyyat çatışmazlığından (defisitindən) danışırlar, nailiyyət-çilər!

***

Ağlayırlar – gülməli görünür,
Gülürlər – ağlamalı görünür!

***

***Naşılıq məktəbi:***
Zərdüştdən nə öyrətdilər?
Babəkdən nə öyrətdilər?
Qorquddan nə öyrətdilər?
Nəsimidən nə öyrətdilər?
Füzulidən nə öyrətdilər?
Muğamdan nə öyrətdilər?
Sazdan nə öyrətdilər?
***Naşılığa yüksəltdilər!***

***

"Armudun yaxşısını ayı yeyər"...
Armudun yiyəsi olmayanda!

***

Aşağı həyat – həyatın üst qatındadır.
Yuxarı həyat – həyatın alt qatındadır.

***

Sərbəst dişilər, sərbəst erkəklər.

***

Beynəlmiləlçi Xalq – Xalqsızlıq.

***

Yaşamağa tələsən əslində yaşamamağa tələsir.

***

***Dünyasızlar:*** Öz dünyaları yoxdur deyə qapı-qapı gəzib dünya axtarırlar.

***

***Fiziki tərbiyəsizlik:*** Bədəni ruh üçün hazırlamırlar,
bədən üçün hazırlayırlar.

***

Zəka Mahiyyətə varır, Ruh Mahiyyətə çatır.

***

Xudbin – Özümsüz!
Fədakar – Özümlü!

***

Məhv Olmağı – ***Olmaq*** sayırlar.

***

Nankorluq töhmətiylə əsarətə salmaq!

***

***“Xilaskarım olmasaydı, xilas olmazdım!”***
“Xilaskarın” olmasaydı, xilas olmağa ehtiyacın olmazdı!

***

Zülmətdə bağlanan Düyünü İşıqda açmaq!

***

Yaxına yüksəkdən baxmaq!

***

Nizamiyə heykəl qoymadılar – Boyunduruğa heykəl qoydular!
Nəsimiyə heykəl qoymadılar – Boyunduruğa heykəl qoydular!
Füzuliyə heykəl qoymadılar – Boyunduruğa heykəl qoydular!
“Sosialist Vətənpərvərliyi” – Boyunduruğa “məhəbbət!”

***

***Boy artımı:*** Boyun boyunduruğa çatana qədər arta bilərsən, ondan yuxarı yox!

***

Ömür Ölümlə yox, Ali həyatla nəticələnməliydi – həyatın buna qüdrəti çatsaydı!

***

Cismanidə Ülvi nə varsa – Ruhanidir!

***

Şər – naşıdır. Ona görə özünü güclü sayır.

***

Xeyir – müdrikdir. Ona görə özünü güclü sayır.

***

***Ruhani Səbəb:*** Əzaba hazır olmur – İnfarkt olur!
Təhlükəyə hazır olmur – Diabet olur!

***

Naşılar canlarını saxlamaqda "müdrik"dirlər.
Müdriklər canlarını saxlamaqda "naşı"dırlar.

***

Sürət əsri: Maşınlarda, qatarlarda, təyyarələrdə, gəmilərdə Özlərindən qaçırlar.

***

Böyük dövlətin sənin kiçikliyini qoruyur.

***

***"Sovet xalqı" nə deyən şeydir görəsən: parlament xalqı?***

***

Millət elə Xalq deməkdir. “Çoxmillətli xalq” nə deyən şeydir: “Çoxxalqlı xalq?”

***

***Həyat eşqi:*** Elə həvəslə itləşirlər ki, elə həvəslə qancıqlaşırlar ki!..

***

Adam ömrü boyu özündəki İtdən, Qancıqdan utanmır, usanmır. İnsan Adamdakı İti, Qancığı öldürür.

***

***Həyat düşmənçiliyi:***

Düşmən əyməsə də, həyat əyəcək!
Düşmən yaralamasa da, həyat yaralayacaq!
Düşmən öldürməsə də, həyat öldürəcək!

Yadlığın qənimi – doğmalıq!

***

“İrəlilədikcə” gerilədik!

***

Ehtiyat – qorxağın yarağıdır!

***

Baş saxlamaq – ayağa salınmaq!

***

İctimai Mülkiyyət – Xalq mülkiyyətsizliyi.

***

Zorla Xeyirləşmək olmaz, Şərləşmək olar.

***

Şərin qanadlarında Xeyirə uçurlar...

***
İnamsızlığa qarşı Şübhəliyəm!
Şübhəsizliyə qarşı İnamlıyam!

***
Həyatdan nə götürdüm? – Amal!
Həyata nə verdim? – Amal!

***
***Müasir portret:*** Dizin-dizin sürünüb, diliylə həyat şirnisini yalayan!

***
Doğma Həyat olmur, Doğma Amal olur.

***
Kapitalizmin boyuna biçdikləri nə varsa – sosializmin əyninə geyindirirlər.

***
***Şərlə Döyüş Üslubu:***
Ağılasığmazlıq, "Özünəziyanlıq", Gözlənilməzlik!

***
Vaqiflər yaxşı şair olmaq əvəzinə, yaxşı vəzir olsaydılar – bu günə düşməzdik!

***
***Bakı – çilçıraqlı Təbriz!***

***
Səciyyə: ***Təhlükəyə qədər qəhrəmanlıq!***

***
Həşirli zamanlarda Şər qanad açır.

***
Şərin inkar etdiyi nə varsa – Xeyirdir!
Xeyirin inkar etdiyi nə varsa – Şərdir!

***
Şərin əzizlədiyi nə varsa – Şərdir!
Şərin bədnam etdiyi nə varsa – Ləyaqətdir!

***
Cəmiyyət üçün ölməsən – Ruhaniyyat üçün dirilməzsən!

***
İnqilabi müstəbidlik.

***
Sosialist faşizmi, sosialist konservatizmi, sosialist liberalizmi.

***
Öləni öldürmək – yaşayanı fəlakətə salmaq.

***
İnqilabi mürtəcelik.

***
Dövlət İmperializmi, Dövlət Mülkədarlığı.

***
İbtidai icma quruluşuna “irəliləmək”.

***
Mükafatla Cəzalanmaq, Cəzayla Mükafatlanmaq.

### *Yağış Ayı, 8-ci il*

***

***Darısqallıq:*** İctimaiyyatçı cəmiyyət adlanan bu siçan deşiyinə necə sığasan?

***

***Nikbinlik:*** İnam adlı Dağa söykənmişəm!
İdrak adlı Dağa söykənmişəm!
Mənəviyyat adlı Dağa söykənmişəm!
İradə adlı Dağa söykənmişəm!
***Ölüm bədənimi öldürəcək, ruhuma dəyməyəcək!***

***

***İdealizm:*** Elə mərd görmədim ki, namərd olmasın! – Mərdliyi seçdim!
Elə böyük görmədim ki, kiçik olmasın! – Böyüklüyə tapındım!
Elə yüksək görmədim ki, alçaq olmasın! – Yüksəkliyə sarıldım!

***

***İnam:*** Bacarmadığımı da bacarıram!

***

***Tarixi hadisə:*** Quraşdırılmış cəmiyyət!

***

***Siyasi məharət:*** Lap “həqiqətləşərəm” də, təki aldadım!
Lap “sevərəm” də, təki söyüm!
Lap “inamlaşaram” da, təki şübhələndirim!
Lap “xeyirləşərəm” də, təki şərləşdirim!

***

***Qabaqcıl mamaçılıq:***

Yalandan Həqiqət doğuzdurmaq!
Zülmdən Ədalət doğuzdurmaq!
Fəlakətdən Səadət doğuzdurmaq!

***

***Təhlükələr:*** Ədalət təhlükəsi.
Həqiqət təhlükəsi.
Mənəviyyat təhlükəsi.

***Sərt Ayı, 8-ci il***

***

***Zamançı devizi:***

Balamı yaşatmaq üçün Xalqımı öldürürəm!

***

***Qəriblik:*** Kəndlinin torpaq qəribliyi.
Fəhlənin fabrik qəribliyi.
Ziyalının söz qəribliyi.

***

***Dəyişkənlik – dəyişməzlik:***

Adam dəyişib İnsan olur – İnsan dəyişmir!

***

***Çeşidlər:*** Külək kimi əsmək!
Çay kimi daşmaq!
Toxum kimi səpilmək!
Ağac kimi bitmək!

***

***Təyinlər:*** Cəfəngiyyat – ağıldan uzaq.
Yalan – ağıla zidd.
Həqiqət – ağıldan üstün.

***

***Mənsur Həllaclığımız:***
Amalı sevdim – Amal oldum!

***

***Zor humanizmi:*** Zor əslində canavardır, tülküdür, fitnəkardır, fəndgirdir.

Ancaq Canavarlığını humanizmə zidd saymır!
Tülkülüyünü humanizmə zidd saymır!
Fitnəkarlığını humanizmə zidd saymır!
Fəndgirliyini humanizmə zidd saymır!
Bəşəriyyətə canavar humanizmi hazırlayırlar!
Tülkü humanizmi hazırlayırlar!
Fitnə humanizmi hazırlayırlar!
Fənd humanizmi hazırlayırlar!

***

***Qoruyucular:*** "Təmiz cəmiyyətimizi murdar adamlar murdarladılar!" – deyirlər.

Bəs murdar adamlar ictimai münasibətlərin məcmusu deyilmi?

Marksist cəmiyyəti marksizmdən qoruyurlar, marksistlər!

***

***Korluq:*** Cəmiyyətimizlə dustaqxanamız arasında fərq görən gözlər kordur!

***

***Ən qatı Yalan:*** Qorxu Yalanı.

***

***Vəhdət:*** Müstəqil Şəxsiyyət özünü Müstəqil Dövlətdə ifadə edir.

Azad Şəxsiyyət özünü Azad Xalqda ifadə edir.

## *Qar Ayı, 8-ci il*

***

***Xaricіləşmək:*** Evimdə olanda Vətəndə oluram,
Evimdən çıxanda Xaricə düşürəm.
Özümlə olanda Vətəndə oluram,
Özgəylə olanda Xaricdə oluram.

Xarici "dövlətimiz".
Xarici "mədəniyyətimiz".
Xarici "mənəviyyatımız".

***

***Hal:*** Qorxuzduqları dərəcədə qorxurlar.

***

***Təzə Herakllar:***
Çirkabı çirkabdan təmizləyirlər.
Zoru zordan təmizləyirlər.
Yalanı yalandan təmizləyirlər.

***

***Çoxmənalıq:*** Hər hadisənin – Zahiri mənası var,
Daxili mənası var,
Gizli mənası var,
Ali mənası var.

***

***Çoxcəhətlik:*** Hər adamda Yadlıq var,
Doğmalıq var,
Biganəlik var.

***

***Üz qaralığı:*** Üzündə yaraşıq var, ancaq işıq yoxdur.

***

***Yüksəkdən baxmaq:*** Amal – həyatın güzgüsü.

***

***Fikir – dil:*** Fikir dildən qabaq yaranır, dildə natamam ifadə olunur, dilə sığmır.

***

***Ölüm – cəmiyyət:*** Ölüm xüsusini öldürür, ümumini saxlayır, cəmiyyətimiz də həmçinin.

***

***İctimai hadisə:*** Ölü dirilik.

***

***İnsan Dünyası:*** İnsan Dünyaya sığmır, ancaq Vətənə sığır.

***

***Gərəklik:*** Göy olaq – yalnız şimşək olmayaq.
Çay olaq – yalnız sel olmayaq.
Dağ olaq – yalnız vulkan olmayaq.
Yer olaq – yalnız meydan olmayaq.

***

***Ömrün qədəri:*** Amal qədər ömrüm var.

***

***Bədən – ev:*** Bədən – Ruhun Evidir. İnsan öləndə həmin Evdən köçür, bədən daha Onunku olmur.

***

***Əlaqələr: Dost*** – səninlə Bir olan, ***Özgə*** – Səndən ayrı olan, ***Yad*** – Səndən Uzaq olan, ***Yağı*** – Səninlə Döyüşən, Ədavət aparan.

***

***İnsanlıq:*** Allahla yarışmaq gərək!

***

***Haqq:*** İsanın haqqı çarmıx idi ki, çarmıx müqəddəsləşsin.

***

***Doğruluq:***
Yalançı həyat mən deyəni demirsə – deməli, mən doğruyam.
Naşı həyat mən deyəni eşitmirsə – deməli, mən doğruyam.

***

***İntibah:*** Dənizdə damla olmaq yox, Damlada dəniz olmaq!
Dünyaya çıxmaq yox, Dünyaya çevrilmək!

***Köçəri Ayı, 8-ci il***

***

***Vəziyyət:*** Müasir ziyalı xalqın tör-töküntüsüdür.

***

***Hal:*** Həqiqət insanın xeyrinədir, adamın ziyanınadır, məxluqa yaddır.

***

***Dillər:*** Ərəb dili – məscid dili.
Fars dili – məclis dili.
Türk dili – yol dili, iz dili.

***

***Siyasi mərhələlər:*** Tülkülük,
Canavarlıq,
Donuzluq,
Dovşanlıq.

***

***Boyunduruqlar:*** İnam boyunduruğu,
İdrak boyunduruğu,
Mənəviyyat boyunduruğu,
İradə boyunduruğu.

***

***Ülvi nəticə:*** Həyatda axtardığım ülviyyəti Amalda tapdım.

***

***Oxşamazlıq – oxşarlıq:***

Səma heyvana oxşamır.
Günəş heyvana oxşamır.
Ulduz heyvana oxşamır.
Dəniz heyvana oxşamır.

Amal Səmaya oxşayır.
Günəşə oxşayır.
Ulduza oxşayır.
Dənizə oxşayır.

***

***Mahiyyət:*** Vətən Yer deyil – Göydür!

***

***Ömrün mərhələləri:*** Doğuluşa qədər, Ölümə qədər, Ölümdən sonra.

***

***Mürəkkəblik:*** Sədaqətlərində xəyanət var.
Ləyaqətlərində həqarət var.
Məhəbbətlərində küdurət var.

***

***Tarixi aqibət:*** Ruhani əcnəbilik.

***

***Çilçıraqlı şəhər:*** Elə bil təbiətin üzünə boya çəkiblər.

***

***Əlçatmazlıq:***
Şərdən o qədər uzaq ol ki, Şər sənə çata bilməsin!

Şərdən o qədər uca ol ki, Şər sənə çata bilməsin!
Şərdən o qədər fərqli ol ki, Şər sənə çata bilməsin!

***

***Tarixi həqiqət:*** Gətirilən Səadət əslində itirilən Səadət olur.

***

***Eybəcərlik:*** Bütün xalqlara mənsub olan Kişi – bütün kişilərə mənsub olan Qadın kimi bir şeydir.

***

***Kölgəlik:*** Elmi Bilik – Mahiyyətin kölgəsi.

***

***Mərhələlər:*** Yerləşmək – Məskənləşmək; Torpaqlaşmaq – barlanmaq; Yurdlaşmaq – Dünyalaşmaq.

***

***Fəlakət:*** Yurdsuzluq – Dünyasızlıq.

***

***İşıq – qaranlıq:*** Həqiqət İşığı, Ədalət İşığı, Cəsarət İşığı.
Yalan Qaranlığı, Zülm Qaranlığı, Qorxu Qaranlığı.

***

***Tarixi hadisə:*** Cəmiyyətin cəmdəyinə mənəvi qotur düşüb.

***

***Texnika Allahı:*** Həyatı Sünniləşdirən Maddi Qüdrət.

***

***Fərq:*** Həyat təzələnir. Amal təzə qalır.

***

***İnsanlaşma əlaməti:*** Mütləq Qayğı böyüyür, nisbi Qayğı kiçilir.

***

***Vəziyyət:*** Elm – Həyatın düşməni.

***

***Təzəlik:*** Elmi idraksızlıq.

***

***Alimlik:*** Elmi xurafatçılıq.

***

***Müasir fəlsəfəçilər:*** Dövlət mollaları.

***

***Həyat fəsadı:*** Həyat ölümü doğrultmaq üçün adamı ölümcül hala salır, əlsiz-ayaqsız eləyir.

***

***Əsarətlər:*** İqtisadi vəhdət əsarəti, İctimai vəhdət əsarəti, İdeoloji vəhdət əsarəti, Siyasi vəhdət əsarəti.

***

***Təsərrüfat hesabı: Sahibinə nökərçilik.***

***

***Özünümaliyyə: Müstəqil asılılıq.***

***

***Demokratikləşmə: Azad əsarət.***

***

***Aşkarlıq: Daxili pünhanlıq.***

***

***Təzə seçki: Birlərdən birini seçmək.***

***

***Tənqid: Hadisəni Mahiyyətdən ayırmaq.***

***

***Xalq özünüidarəsi: Xalq özünüaldatmağı.***

***

***Xalq nəzarəti – Xalqa nəzarət.***

***

***Birləşmələr – Birlikdə Boyunduruqlaşmalar.***

***

***Təzə inqilab – Süniləşmə sıçrayışı.***

***

***Təmiz yer:*** Təmizə çirkabda yer yoxdur,
Yalnız Amalda yer var,
İnamda yer var,
İdrakda yer var,
Mənəviyyatda yer var,
İradədə yer var.

***

***Siyasət:*** Zor oyunu, zorla oynatmaq.

***

***Hal:*** Təhlükəsizlik – İqtidarsızlıq.

***

***Xalq:*** Əməkçi – yaxşını pisdən, pisi yaxşıdan ayıran.
Ədalətsizliyə dözən, ədalətdən dönməyən.
Həqiqətsizliyə dözən, həqiqətdən dönməyən.

***

***Fəlakətli məntiq:***
İqtisadiyyat – Məqsəd, İnsan – Vasitə.
Cəmiyyət – Məqsəd, İnsan – Vasitə.
Dövlət – Məqsəd, İnsan – Vasitə.
Maddiyyat – Məqsəd, İnsan – Vasitə.

***

***Təyin:*** Elm – maddiyyatçı Din.

***

***Təzə mövhumat:*** Elmi fatalizm.

***

***Buxovlar:*** Elmi qanunlar, Dini Ehkamlar.

***

***İqtisadi Qanunlar:*** İqtisadi alın yazıları.

***

***İctimai Qanunlar:*** İctimai alın yazıları.

***

***Həqiqət:*** Nə din, nə elm – İnam.

***

***İdrak Azadlığı:*** İnam Mütləqiliyi, Müstəqilliyi.

***

***Səbəb-nəticə:*** Bir səbəbdən yüz nəticə doğa bilər. Labüd nəticə ehkamına sarıyırlar həyatı. Çox hallarda hasil olan nəticə mümkün nəticələrin ən dəyərsizi olur.

İmkanların yüzdə biri gerçəkləşir həyatda, özü də ən üzərgisi!

***

***Uzaqlıq:*** Özündən uzaq düşüb – xəbəri yoxdur!

***

***Müasir başçı:*** Baş Zorlu.

***

***Dərs:*** Başa düşməyən – ayağa düşür.

***

***İctimai hadisə:*** Dünyanı zülmətə qərq edən işıq.

***

***Ruhani Qələbə:*** Məğlubiyyətdən güc almaq!

***

***Olan – olmayan:***
Şərin zülmü var, zilləti var, həqarəti var – qalibiyyəti yoxdur.
Xeyirin əzabı var, əziyyəti var, fəlakəti var – məğlubiyyəti yoxdur.

***

***Hal:*** Nəşələnmək – Eşələnmək.

***Günəş ayı, 9-cu il***

***

***İctimai dövlət antixəlqiliyi:***
Dövlət hakimiyyəti – xalq məhrumiyyəti.
Dövlət mülkiyyəti – xalq səfaləti.
Dövlət ədaləti – xalq əsarəti.
Dövlət müəssisəsi – xalq işgəncəsi.

***

***Təzə demokratiya:*** Lal olmuşların dillərini açaq ki, "Şər – Xeyirdir!" – desinlər.

***

***"Bütöv həqiqət":*** Şərdən başqa Xeyir yoxdur!

***

***Təzə təfəkkür:*** Şərləşin ki, ölməyəsiniz!

***

***İnsan amili:*** Dişləməyən işləməz!

***

***İctimai dəyişiklik:*** Könüllü Zor.

***

***Ədalətli seçki:*** 5 Şərlidən birini seçmək xeyiri.

***

***Yekun:*** İnsana zidd ictimai dövlət.
İnsana zidd ictimai mülkiyyət.
İnsana zidd sənayeləşmə.
İnsana zidd hərbiləşmə.

***

***Təzə Allahlar:*** Təşkilat Allahı, Ehkam Allahı,
Cəmiyyət Allahı.

***

***"Qabaqcıl" milli siyasət:***
"Çiçəkləndirə-çiçəkləndirə" soldurmaq.
"Dirildə-dirildə" öldürmək.

***

***Nüvə silahı:*** Zor baxışı.

***

***Beynəlmiləlçilik:*** Ən qatı millətçilik.

***

***Fəhlə diktaturası:*** Zor kələyi.

***

***Həyata uyğunlaşmaq:*** Şərə bulaşmaq.

***

***Xudbinlik:*** Həyat xudbindir –
özünü yaşatmaq üçün özününküləri öldürür.

***

***Zamanla təmas:*** Dərinliyə getdikcə dayazlığa düşürsən.

***

***Ruhani hadisə:*** Faciə İşığı.

***

***Vüqar:*** Təhlükə Ucalığında yaşamaq!

***

***Fərq:*** Həyat Yerdən qalxır, Amal Göydən düşür.

***

***Çeşidlər:*** Dünyanın sahibləri, Dünyanın Sakinləri, Dünyanın Qəribləri.

***

***Hamılaşmaq:*** Yadlaşmaq.

***

***Əcayiblik:*** Təzələr – Köhnəymiş.
Köhnələr – Təzəymiş.

***

***Bəlalar:*** Xüsusi mülkiyyət – bərabərsizlik yaradır,
ümumi mülkiyyət – məhrumiyyət!

***

***Səy:*** Dünyanı səyləşdirirlər.

***

***Vəziyyət:*** Şər Xeyir axtarır ki, arabasına qoşsun.

***

***Hadisələr:*** Ehkamçı olduğu üçün əxlaqsız, idarəçi olduğu üçün ədalətsiz, şöhrətpərəst olduğu üçün "millətçi".

Çirkabdan yoğrulurlar, çirkabı doğruldurlar, çirkabla bir-birini döyürlər.

***

***Gerçəklik:*** Rəsmi həqiqət olmur – qeyri-rəsmi həqiqət olur.
Rəsmi ədalət olmur – qeyri-rəsmi ədalət olur.
Rəsmi ləyaqət olmur – qeyri-rəsmi ləyaqət olur.

***

***Ehkam*** mənəviyyatsızlığı – mənəvi gerilik yaradır və bunu düşmənin üstünə yıxır.

***

***Təzə üsul: Şirnikdirmək və qorxutmaq.***
***Şirin qorxutmaq.***

***

***Milli siyasət:*** Şər itləri Şərə yalmandılar ki, xalqın cəmdəyinə daraşsınlar.

***

***Vəziyyət:*** Bəyləşdilər, xanlaşdılar, zadəganlaşdılar şərin qulluğunda.

***

***Yeni hadisə:*** Nikbin fatalizm.

***

***Çevrilmə:*** Dəbləşən – köbərir.

***

***Fərq:*** Həyat – yırtıcının tərəfindədir, Amal – yaradıcının.

***

***Münasibət:*** Sabahın Dünəndən böyük Dostu, Bugündən böyük Düşməni olmayıb.

***

***Beynəlxalq əlaqələr:***
Bir-biriylə bağlandıqca bir-birinə yadlaşan ölkələr.
Beynəlxalq təsərrüfat Yadlığı – Yağılığa aparan.

***

***Siyasət:*** Milli məhdudluq adıyla milli müstəqillik ideyasını damğalayırlar.

***

***Ləyaqət:*** Özümü sevdiyim üçün xudbin olmadım.

***

***Əkslər:*** Maddi Maraq – Mənəvi İtki.

***

***Həqiqətsizlik:*** Realizm Antihəqiqəti.

***

***Münasibət:*** Siyasi Qərb – kapitalizmdən artıq.
Siyasi Şərq – sosializm əskikliyi.

***

***Yeni sosializm:*** Sosialist kapitalizmi.

***

***Fərq:*** İnsan – İnsana qovuşur, adam – adamla toqquşur.

***

***Əlaqələr:*** Zəka – Ruhun kölgəsi, Ağıl – Zəkanın kölgəsi.

***

***Təyin:*** Biclik – ağıl əxlaqsızlığı.

***

***Yetkinliyim:*** Daxilimdən Yadı sildim, Yağını öldürdüm, özümdən başqa heç nə saxlamadım.

***

***Təyin:*** Şöhrət – ruhani şəhvət.

***

***Fərq:*** Kütləvi nə varsa – zahiridir, xəlqi nə varsa – daxilidir.

***

***Xassə: İstehza – gizli həsəd.***

***

***Hədə: Gizli qorxu.***

***

***20-ci əsr Dərsi:*** Maddiyyatçılıq gərəksizliyi,
Ruhaniyyat Zəruriliyi.

***

***Ruhani göz:*** Görünəndə görünməyəni görmək.

***

***Qətiyyət:*** Həyat məni təmin etmədi – həyatdan əl çəkdim, adamlar məni təmin etmədi – adamlardan əl çəkdim, özüm-özümü təmin etməsəm – özümdən də əl çəkməyə hazıram!

***

***Sülh uğrunda mübarizə:*** Zülm uğrunda mübarizə.

***

***Ümumiçilər əxlaqı:*** Şəxsiyyətsizləşmə!

***

***Ehkam nikbinliyi:*** "Bəşəriyyət mütləq antibəşərləşəcək!"

***

***Vəziyyət:*** Xalq nə qədər cəsur olsa da, Qəhrəmanlar tək-təkdir!
Xalq nə qədər ağıllı olsa da, Müdriklər tək-təkdir!

***

***Dialoq: Şərq Qərbə:*** "Nüvə müharibəsi olmasa da, öləcəksən!" ***Qərb Şərqə:*** "Nüvə müharibəsi olmasa, ölənə oxşamırsan!"

***

***Ən qabaqcıl nəzəriyyə:*** "İqtisadiyyat başdır, İnsan – ayaq!"

***

***Təyinlər:*** 20-ci əsr – Yüyürən bəşəriyyət,
21-ci əsr – Yüyülən bəşəriyyət.

***

***Cənnət:*** Cəhənnəmin başqa adı.

***

***Əlaqələr:*** ***Varlığın müəyyənləşdirdiyi – antişüur.***
***Şüurun müəyyənləşdirdiyi – antivarlıq.***

***

***Xeyirli "Damğalar":***
Antiehkam "damğa"sı vururlar İdraka – İdrakın Xeyrinə.
Antişübhə "damğa"sı vururlar İnama – İnamın Xeyrinə.
Antişər "damğa"sı vururlar Xeyirə – Xeyirin Xeyrinə.

***

***Ruhani tələb:*** Fərəh gözləmə – Fərəhli ol, Səadət gözləmə – Səadətli ol!

***

***Təhlükə:*** Təbiətlə döyüşdə bəşər məğlub olur.

***

***Tarixi hadisə:*** Antişər biçimində şər.

***

***Təzə barbarlıq:*** İctimailəşmə.

***

***Təzə müstəbidliklər:*** İctimai mülkiyyət müstəbidliyi, "Qabaqcıl" Ehkam müstəbidliyi, İctimai Təşkilat müstəbidliyi.

***

***Yeni era:*** Sürüləşməyə Sürülmək.

***

***Nəticə:*** Xalqı zülmdən ***iflas*** elədilər.

***

***İctimaiyyatçı demokratiya:*** Görünməmiş Zor imkanı.

***

***Çarizm:*** İbtidai Sosializm.

***

***"Qüdrət":*** Fövqəlşər.

***

***Xalq gücü:*** Zora qoşulmuş, Zorla qoşulmuş.

***

***Nailiyyətlər:*** Yalan, Məhrumiyyət, Antidemokratiya, Assimilyasiya, zor.

***

***Vəziyyət:*** Şərə qarşı nüvə silahını qoyurlar – şəri silahlandırırlar. ***Şərə qarşı Xeyiri qoya bilmirlər.***

***

***Şuralaşma:*** Şüarlaşma.

***

***Olan – olmayan:*** Şura hakimiyyəti yoxdur, Partiya hakimiyyəti var, Şura rəiyyəti var.

Fəhlə-kəndli hakimiyyəti yoxdur, Partiya hakimiyyəti var, fəhlə-kəndli rəiyyəti var.

Partiya rəhbərliyi yoxdur, Partiya Zoru var.

Partiya Ehkam Yalanına xidmət edir, Ehkam Yalanını özünə xidmət etdirir.

***

***Parlaq aqibət: "İşıqlı gələcək" Zülməti.***

***

***Tarixi hadisə: Sosializm imkansızlığı.***

***

***Fərqlər:*** Qərb: kapitalizm + demokratiya.
"Şərq": mülkiyyətsizlik + antidemokratiya.

***

***Hadisələr: Dünyalaşdıqca dünyasını itirən "böyük xalq".***

***

***Dünyada itən "balaca xalq".***

***

***Müstəqil əsarət: Guya respublika.***
***Qardaşlıq:*** Yadlaşlıq.

***

***Milli siyasət:*** Millətsizlik "ləyaqəti".

***

***"Burjua" demokratiyası: Demokratiya.***
***Sosialist demokratiyası: Antidemokratiya.***

***

***Sosialist inqilabı – Şura hakimiyyətini Partiya hakimiyyətiylə əvəz elədi.***

***

***"Mədəni çiçəklənmə": Mədəni özgələşmə.***

***

***Geri qalmış ölkələr: Özündən ayrılmış ölkələrə çevrildilər.***

***

***"Xilaskarlıq":***
***Millətləri milli azadlıq aqibətindən "xilas elədilər".***
***Sosialist demokratiyası deyə bağırdılar. İndi "sosializmə demokratiya əlavə eləyirik" – deyə bağırırlar.***
"Nailiyyətləri" çatı kimi salıblar xalqların boynuna.

***Stalin müstəbidliyindən danışırlar,***
***Xruşşov volyuntarizmindən danışırlar,***
***Brejnev doqmatizmindən danışırlar,***
***Qorbaçov revizionizmindən danışacaqlar.***

Antiinsani "inkişaf".
Möhtəşəm antiinsanilik.

***

***Yalansız*** sosializm olmur – bunu biləcəklər.
Zülmsüz sosializm olmur – bunu biləcəklər.

***

***Sosializm + Qərb = təzə reformaçılığa.***

***

***Hal: İnsanı sevdiyim dərəcədə Adamı sevmirəm.***

***

***Fərq:*** Adamın Dostu olur, İnsanın Amalı.

***

***Vəziyyət:*** Təbiətin – öz Əşrəfi İnsandan qeyri yağısı yoxdur.

***

***Təzəlik:*** Zülmət yayan ziyalı.

***

***“Demokratiya”:*** Ağlına gələni danışmır,
ağzına gələni danışır.

***

***Marksist Fəlsəfəsi:*** Fəlsəfəyə qarşı inqilab.

***

***Beynəlmiləl şərçilik: “Milli sədlər dağılır” – deyirlər,***
***“Milli sərvətlər dağılır” – demirlər.***
***“Vahid dünya yaranır” – deyirlər,***
***“Nadir dünyalar məhv olur” – demirlər.***

***

***Qanunauyğunluq:*** Əsarətə düşən xalq tüfeylilәşir.

***

***Vahid Bəla:*** Milli məhdudluq – bəşərdən təcrid olunmaq.

***

***Beynəlmiləl hüdudsuzluq:*** Özündən təcrid olunmaq.

***

***Bəşəri tələb:*** Milli Müstəqillik Müqəddəsliyi.

***

***Təhlükə:*** Maddiyyatçılıq yuxusundan ayılıb görəcəklər ki, ruhaniyyatı itiriblər.

***

***Hakim yağılıq:*** İmperiya yaradan xalqların əslində imperiyadan da qəddar düşməni yoxdur.

***

***Tarixi hadisələr:*** 20-ci ildə xalqın başını kəsdilər, 37-ci ildə ürəyini yedilər.

***

***Dəyişiklik:*** Sadistlər mazoxistləşirlər.

***

***"Ümumbəşərilik":*** Ümumşərlik.

***

***"Təzə siyasi təfəkkür": Davasız Şərləşmək.***

***

***İki Şər:*** Ölümdən böyük Şər yoxdur, Şərdən böyük ölüm yoxdur...

***

***"Təzə sosializm:*** Sosialist kapitalizmi.

***

***Nüvə silahı: Şər Dəhşətinə qarşı duran Dəhşət.***

***

***Hadisələr:*** Doğma qeyri-adilik, yad adilik.

***

***Qüdrət:*** Fələk nə çağırırsa-çağırsın, sən öz çağırdığını çağır.

***

***İnam:*** İnsanlaşan Adam, Göyləşən Yer, Amallaşan Həyat.

***

***Ölüm təhqiri:*** Ölüm İnsanı təhqir eləyir.

### *Çiçək ayı, 9-cu il*

***

***Müdriklik uşaqlığı:*** Müdrik dünyaya uşaq kimi inanır.

***

***Təyin:*** Dil – fikrin tərcüməsi.

***

***Şərlik:*** Ehkamın xeyrinə Ehkamla döyüşürlər.
Zorun xeyrinə Zorla döyüşürlər.
Çirkabın xeyrinə çirkabla döyüşürlər.
***Şərə xeyir verirlər.***

***

***Müasir dünya: Zahirdəki:*** Sosializmlə Kapitalizmin döyüşü.
***Daxildəki:*** Maddiyyatçılıqla Ruhaniyyatçılığın döyüşü.

***

***Milli azadlıq inqilabları: Şəraltı hərəkatlar.***

***

***Kuba hadisəsi:*** Sosialistləşən fədailik.

***

***İki ölüm.*** Nüvə müharibəsi – Şər təhlükəsi;
cismani ölüm – Ruhani ölüm.

***

***İran inqilabı:*** İran Məhşəri.

***

***Elmi Ehkam:*** Məntiq hipnozu.

***

***Bugünkü Əfqanıstan:*** Sabahkı Azərbaycan, Qazaxıstan.

***

***Çeşidlər:*** Kapitalizm – normal həyat,
sosializm – qeyri-normal həyat,
Ruhani cəmiyyət – ali həyat.

***

***Kommunizm:*** Sürü cənnəti.

***

***Kommunist:*** Sürü cənnətçisi.

***

***Kommunistləşən bəşər:*** Naxır.

***

***Fəlakətli nailiyyət:*** Elmi-texniki tərəqqinin nüvə silahından böyük nailiyyəti yoxdur.

***

***Sovet xalqı:*** Dövlət sürüsü.

***

***Müttəfiq respublika:*** Faciəvi məzhəkə.

***

***İctimai inqilab:*** Zülmdən zülmlə zülmə sıçramaq.

***

***Ruhani İntibah:*** Özünə sahib olmaq.

***

***Milli "dirçəliş":*** Köhnə ətalətdən təzə əsarətə sıçrayış.

***

***Sosialist iqtisadiyyatı:*** Dövlət kapitalizmi.

***

***Kollektiv təsərrüfat:*** Dövlət təhkimçiliyi.

***

***İmperializm:*** İkibaşlı əjdaha.

***

***Müasir Amerika:*** Demokratik kapitalizm.
***Demokratiya həmdəmliyi, Kapitalizm yadlığı.***

***

***Müasir Rusiya: Totalitar mülkiyyətsizlik: dövlət zoru, iqtisadiyyat özgəliyi.***

***

***Müasir Azərbaycan:*** Öz evində kirayəçi.

***

***Sosializmdən sonra:*** Əməkçi mülkiyyəti, Fərdi özünüidarə, İmtiyaz bərabərliyi, Ruhani Başçı.

***

***Sabahkı Azərbaycan:*** Müqəddəs Atayurd.

***

***İdeal – antiideal:*** "Kommunizm – İnsanın özünə qayıtmasıdır" (K.Marks).

Kommunizm – İnsanın özündən tam ayrılmasıdır.

***Mülkiyyətsiz, millətsiz, dövlətsiz, fərdiyyətsiz İnsan – "sərbəst" heyvandır, azad İnsan deyil.***

***

***Nökər aqibəti:***

Xüsusi kapitalist mülkiyyəti istismar yaradır – bunu görürlər.

Xüsusi əməkçi mülkiyyəti azadlıq yaradır – bunu görmürlər.

Ümumi "xalq mülkiyyəti" total, hərtərəfli əsarət yaradır – bunu "görmürlər".

Xüsusi kapitalist mülkiyyətinə kapitalist sahib olur, xüsusi əməkçi mülkiyyətinə əməkçi sahib olur, ümumi xalq mülkiyyətinə – dövlət sahib olur, rəiyyət mülkiyyətdən tam məhrum edilir, dövlət nökərinə çevrilir, İnsani ləyaqətini tam itirir.

***

***İdeya birinciliyi:*** Tarixin yaradıcısı İdeyalardır.

Quldarlıq – politeizmə (çoxallahlığa) əsaslanır, Feodalizm – katolisizmə (Roma papaçılığına) və islama, kapitalizm – Protestantçılığa (lüterçiliyə), sosializm – marksizmə (iqtisadi fatalizmə) əsaslanır.

***

***Sübutçular: Hitler*** sübut elədi ki, 20-ci əsr Avropasında Roma yırtıcılığı yaşayır, ***Homeyni*** sübut elədi ki, 20-ci əsr Şərqində xilafət zalımlığı yaşayır.

***

***Yalan çeşidləri:***

Çap olunmuş hər bir sözdə mətbuat yalanı var.

Elan olunmuş hər bir hökmdə cəmiyyət yalanı var.

Təbliğ olunmuş hər bir Ləyaqətdə rəsmiyyət yalanı var.

***

***Sabah zəruriliyi:*** Elə Söz deyilməyib ki, Mütləq olsun!
Elə iş görülməyib ki, Mütləq olsun!
***Əslində Bəşərin Sabahdan başqa Bugünü yoxdur!***

***

***Fərqlər:*** Ömür bir cümlədir, Ölüm onun son nöqtəsi.
***Amal*** yoldur – ucsuz-bucaqsız.

***

***Təbiətdə*** qayda var, İnsanda – məna.
Təbiətin səsi var, İnsanın – sözü.

***

***Hal:*** Qoyunlaşdıqca meymunlaşırıq.

### *Çiçək Ayı, 9-cu il*

***

***Azərbaycan aqibəti:*** "Yaşa, Azərbaycan!" deyə-deyə Azərbaycanı öldürürlər.
Tərifləyə-tərifləyə Azərbaycanı təhqir edirlər.
Sovet Azərbaycanında azərbaycanlı nə varsa – qəribdir.

***

***Yubileylər:*** Dahiləri şərləşdirmək istəyirlər.

***

***Hadisələr:*** Antisovetizm – yəni Antiəsarət.
Antikommunizm – yəni Antifəlakət.
Antimarksizm – yəni Antixurafat.

***

***"Demokratik" sosializm:*** Azad zor.

***

***Azmaq:*** İdrak sosializm ideyasında azdı.

***

***Xayder:*** Nüvə Ölümünü dərk eləyir, Şər Ölümünü dərk eləmir.

***

***Yağı:*** İnsanlaşmanın sosialist cəmiyyətindən böyük yağısı yoxdur.

***

***"İrəliləyiş":*** Kapitalizm cəngəlliyindən – sosializm uçurumuna.

***

***Total özgələşmə:*** Özgə Mülkiyyət, Özgə Dövlət, Özgə Təşkilat.

***

***Nicat:*** Bəşəri – kapitalizm haqsızlığından antikommunizm gerçəkliyi qurtaracaq.

***

***İkibaşlı Şər:***
Xüsusi kapitalist mülkiyyəti – zəhmətkeşə zidd.
Ümumi komminist mülkiyyəti – İnsanlığa zidd.

***

***Ruhani cəmiyyətin əsas qrupları:***
1) Torpaqçılar, 2)Sənayeçilər, 3) Əqliyyətçilər, 4) İdarəçilər.

***

***Ruhani cəmiyyətin başçısı:***

1. Maddi imtiyaza malik olmayan.
2. İctimai imtiyaza malik olmayan.
3. Ruhani qanunlara tabe olan.
4. Xalq yaratmaq Səlahiyyətinə malik olan.
5. Xalqı dünyada təmsil etmək Səlahiyyətinə malik olan.
6. Xalqı yaşatmaq: qorumaq, inkişaf etdirmək, tərəqqiyə çatdırmaq Səlahiyyətinə malik olan.
7. İnam, İdrak, Mənəviyyat, İradə Kamilliyinə çatan.

Başçı yaratmağa qadir olmayan xalq – xalq deyil.

***

***Qiymət:*** İşığın işıqlanmaqdan böyük qiyməti yoxdur.

***

***Kölgəlik tilsimi:*** Zərdüşt kimi peyğəmbərimiz var, Babək kimi qəhrəmanımız var, Nəsimi kimi fədaimiz var, Muğam kimi musiqimiz var, Füzuli kimi şairimiz var, – ancaq kölgədən çıxa bilmirik.

***

***Nəticə:*** O qədər "nöqsansız adam yoxdur" dedilər ki, dünya naqis adamlarla doldu...

***

***Yiyəlik:*** Dünyanın Yiyəsi olan xalq yoxdur.
Bütün xalqlar Dünyanın Yiyələridir.

***

***Olmayan – olan:*** Əslində kapitalizm-sosializm təzadı yoxdur, demokratiya-antidemokratiya təzadı var.

***

***Fəlakətli aqibət:*** Sosializm Əfqanıstanı – Özündən ayrılan.
İslam Əfqanıstanı – Cəhalətə tapınan.

***

***Təbliğat:*** Gerçəklik haqqında əfsanə.

***

***Gəda məntiqi:*** “Ağa deyir sür dərəyə – sür dərəyə!”

***

***Rəmzlər:*** Ruh – Qılınc, İdrak – Qalxan, Bədən – At.

***

***Təyinlər:*** İnam – Ruh.
İdrak – İnamlı Zəka.
Mənəviyyat – İnamlı Ürək.
İradə – İnamlı Əməl.

***

***Şər məntiqi:*** Zülmətdən böyük işıq yoxdur.

***

***Dünyalar:*** Məxluqun Dünyası yoxdur!
Adamın Böyük Dünyası yoxdur!
İnsanın Yurdundan böyük Dünyası yoxdur!

***

***Ləyaqətsiz məntiq:*** “Ayağını yorğanına görə uzat!”
***Ləyaqətli məntiq:*** “Yorğanını ayağına görə sırı!”

***

***Fərq:*** Adam nəşə vasitəsilə cismani Ata olur.
İnsan Əzab vasitəsilə ruhani Ata olur.

***

***Şər döyüşü:*** İnqilabda əslində Xeyirlə Şər döyüşmür, Şərlə Şər döyüşür.

***

***Komsomol:*** Söndürülən Od.

***

***Marksizm üslubu:*** Nəzəri ekstremizm.

***

***Qərb məntiqi:*** Kommunizmdən dəhşətli Pinoçet yoxdur. Kommunizmdən dəhşətli Bota yoxdur.
Kommunizmdən dəhşətli Stressner yoxdur.

***

***Sosialist inqilabı:*** Çar monarxiyasından – Dövlət monarxiyasına.

***

***Yağı:*** Demokratiyanın "sosialist demokratiyasından" böyük yağısı yoxdur.

***

***Xeyirə qarşı Şər:*** Zor Həsəddən yapışır, Həsəd Zordan.

***

***Dərs:*** Xəstəlik – Sağlamlıq dərsi.

***

***Tərbiyə yönü:*** Adamda heyvani nə varsa azaltmaq,
İlahi nə varsa çoxaltmaq.

***

***Fərq:*** Həyat dayanmır, Amal tükənmir.

***

***Təyinlər:*** Həyat Zoru, Amal Haqqı.

***

***Müdriklik:*** Qeyri-adilik adiliyi.

***

***Xassələr:*** Təbiət – İnsana biganə.
Cəmiyyət – İnsana yağı.

***

***Ruhani Tələb:*** "Həyat – həyat üçündür" – yalanı yox, "Həyat – Amal üçündür!" – həqiqəti.

***

***Olmayan – olan:*** Maddiyyatçı həqiqəti yoxdur.
Ruhaniyyatçı Yalanı yoxdur.
Xurafatçı yalanı var.

***

***Həyat – ölüm:*** "Həyat – həyat üçündür" – demək əslində "həyat – ölüm üçündür" – deməkdir.

***

***Təyin:*** Təqlidçilik – Təhrifçilik.

***

***Kamillik:*** Daxilində Günəş doğmalıdır,
Daxilindəki Günəşi görməlisən!

***

***Təyinlər:*** Amal – həyatın mənası.
Həyat – Amalın kölgəsi.

***

***Məqsəd:*** Qədimlərə çatmaq azdır, qədimləri ötmək gərək!

***

***Hadisə:*** Sosializm – Avropa müstəbidliyi.

***

***Yaradıcılar:*** Stalin – sosializm faciəsi yaratdı.
Qorbaçov – sosializm məzhəkəsi yaradır.

***

***Məzhəkələr:*** Demokratiya əvəzinə demokratiya məzhəkəsi.
Müstəqillik əvəzinə Müstəqillik Məzhəkəsi.
Həqiqət əvəzinə Həqiqət Məzhəkəsi.
Cəsarət əvəzinə Cəsarət Məzhəkəsi.

***

***Hallar:*** Lenin xalqı – Sərməst.
Stalin xalqı – Fəlakətli.
Qorbaçov xalqı – Məzhəkəçi.

***

***Nəticə:*** Sosializmin sonsuz imkansızlığını dərk edəcəklər.

***

***Maneələr:*** ***Körpəliyin*** qarşısında Pioner maneəsi durur.
***Gəncliyin*** qarşısında Komsomol maneəsi durur.
***Yetkinliyin*** qarşısında Partiya maneəsi durur.
***Həqiqətin*** qarşısında Marksizm maneəsi durur.
***Ədalətin*** qarşısında Sosializm maneəsi durur.

***

***Alternativlər:*** Şərin alternativi – Xeyir.
Zorun alternativi – Haqq.
Sosializmin alternativi – Ruhani Cəmiyyət.

***

***Təyin:*** Sosializm – antidinamizm, antiyaradıcılıq, antitəşəbbüs, antiədalət, antidemokratiya, antiinsanilik, antivətəndaşlıq.

***

***Hadisə:*** Sosializm həddində cəsarət – ***guya cəsarət.***
Sosializm həddində ədalət – ***guya ədalət.***
Sosializm həddində həqiqət – ***guya həqiqət.***
Sosializm həddində müstəqillik – ***guya müstəqillik.***
Sosializm həddində aşkarlıq – ***guya aşkarlıq.***

***

***"Xilaskarlar":*** Sosializmi sosializmdən xilas edəcəklər!
Marksizmi marksizmdən xilas edəcəklər!
Partiyanı partiyadan xilas edəcəklər!

***

***Xassələr:*** Kapitalizm – Şər Sərvəti.
Sosializm – Şər Qüdrəti.
Demokratiya – Xeyir Neməti.

***

***Leninizm yönü:*** Hakimiyyətçilik.

***

***Amalçı ömrü:*** İnam – Mütləqimiz.
İdrak – Məktəbimiz.
Mənəviyyat – Sərvətimiz.
İradə – Dövlətimiz.

***

***Sovet gəncliyi:*** Amalsız.

***

***Sovet xalqı:*** Şərin Qulu.

***

***Kommunist:*** İdeal maddiyyatçı.

***

***Sosialist Azərbaycanı:*** Yad Atayurd.

***

***Sovet Dövləti:*** Quldar.

***

***Sovet iqtisadiyyatı*** – Şər aləti.

***

***Kommunist partiyası*** – Mütəşəkkil köləlik.

***

***Xassələr:*** Antikommunizm ləyaqəti, antisosializm həqiqəti.

***

***Nəticə:*** Qullar dünyasının Quldarlara qarşı döyüşündən dəhşətli quldarlıq törədi.

***

***Qırmızı bayraq:*** Qan rəngli Zülmət.

***

***Fərq:*** Təbiət adamında zahiri mədəniyyət olmur, cəmiyyət adamında daxili ləyaqət.

***

***Şər çağırışı:*** "Bütün dünya proletarları, Şərləşin!"

***

***Antiinsanilik Birliyi:*** Sosializm Antiinsaniliyi – Mülkiyyətsizlik, Antidemokratiya.

Marksizm Antiinsaniliyi – İqtisadi fatalizm, Sürüləşmə "idealı".

Partiya antiinsaniliyi – Şərləşdirmə Zoru.

***

***Uzaqlıq:*** Özünə ən yaxın olan özünsən, ondan da Yerdən Göyə qədər uzaqsan!

***

***Təzə sosializm:*** Şərdən Xeyir gözlə!
Zordan Haqq um!

***

***Sosialist beynəlmiləlçiliyi:*** Zor antixəlqiliyi.

***

***Məharət:*** Azadlıq havasında Zülm rəqsi.

***

***Qardaş köməyi:*** Yağı zərəri.

***

***Hadisə:*** Xilaskar əsarəti.

***

***Vəziyyət:*** Sosializm – xəstə deyil, xəstəlikdir. Onu sağaltmaq yox, aradan qaldırmaq lazımdır.

***

***Ümid:*** Yalana İnam yaradacaqlar!
Zora Məhəbbət oyadacaqlar!

***

***Müdriklik – Naşılıq:*** Ədalətdən böyük Müdriklik yoxdur!
Zülmdən böyük Naşılıq yoxdur!

***

***Əhvallar:***
Xüsusi mülkiyyətçilik psixologiyası – Sahiblik əhvalı.
Ümumi mülkiyyətçilik psixologiyası – Məhrumluq əhvalı.

***

***Qənim:*** Sosializmin Qənimi – humanizm!
Kapitalizmin Qənimi – humanizm!

***

***Siyasi portret:*** Rusiya – Baş, müttəfiqlər – Ayaq.

***

***Təzəlik:*** Sovet Dövləti – Təzə Quldar.
Sovet Xalqı – Təzə Qul.
Mərkəzi komitə: Təzə saray.
İlk Təşkilat, Raykom, Şəhərkom – Təzə Qul nəzarətçiləri.

***

***Səviyyələr:*** Fəlsəfi səviyyə – Antimarksizm.
Demokratik səviyyə – Antisovetizm.
İnsani səviyyə – Antikommunizm.

***

***Təyin:*** Sovet "fəlsəfəçiləri" – Marksizm mollaları.

***

***İnqilabi dəyişiklik:*** Çar Rusiyası əvəzinə – Sovet Rusiyası.

***

***Nicat:*** Antimarksizm İntibahı.
Antisosializm İntibahı.

***

***Hadisə:*** Lenin milli siyasəti – Lenin Birlik Boyunduruğu.

***

***Qadın aqibəti: Köhnə qadın*** – Məişətçi.
***Təzə qadın*** – Cəmiyyətçi.

***

***Ölüm – Cəmiyyət:*** Ölüm də Cəmiyyət kimi ömrü təhqir edir.

***

***Şər səyi:*** Şər dilinin ***Yaxın Şərq*** ləhcəsini yaratmaq istəyirlər.
Şər dilinin ***Latın Amerikası*** ləhcəsini yaratmaq istəyirlər. Şər dilinin ***Afrika*** ləhcəsini yaratmaq istəyirlər.

***

***Təzə köhnələr:*** Köhnə bəylərin tökdüklərini təzə bəylər yığdılar.

***

***İnqilabi nailiyyət:*** Ətalətə qarşı Əsarət.

***

***Özül:*** İdrakın Özülü – İnam.
Mənəviyyatın Özülü – İnam.
İradənin Özülü – İnam.
İnamın Özülü – Ruh.
Həyatın Özülü – Amal.

***

***Şər çeşidləri:*** Şərdə Xeyir axtarmaq Şəri.
Xeyirdə Şər axtarmaq Şəri.

***

***Əkinçilər:*** Şər toxumlu şeir səpirlər, musiqi səpirlər, elm səpirlər Azərbaycana əkinçilər!

***

***Azərbaycan başçıları:*** Azərbaycanın başından keçənlər.

***

***Milli dirçəliş təbliğatı:*** Sosializm sirkində rəqs eləyən ayılar nümayiş etdirilir.

***

***İrs:*** Bəbrək Karməl Nərimanovluğu.

***

***Vəziyyət:*** Azərbaycan hampalarına qıymırlar nökərçilər.

***

***Hadisə:*** Qoltuqda bitənlər.

***

***Şərin Şərq siyasəti:*** Şərqi Qərbə qarşı qoymaq.
Şərqi parçalamaq.
Şərqi şərləşdirmək.

***

***Şərin türk siyasəti:*** Türkləri parçalamaq, bir-biriylə döyüşdürmək – Şərləşdirmək.

***

***Gədalıq:*** Dünənki fəlakəti şişirtmək lovğalığı.

***

***Tərəqqi miqyası:*** "Yerdəydim – Göyə çıxmışam!"
"Göyə çıxsan da – Yerdəsən!"

***

***Həyat – ölüm:*** Ömür adlanan Kitabın ortasında Həyat qurtarır, Ölüm başlanır.

***

***Vəziyyət:*** Səfeh cavanlar, Qorxaq yaşlılar, ölü qocalar Birliyi.

***

***Adamlıq:*** Şöhrət üçün başlarından keçiblər.
Xudbinlik üçün fədakar olublar.

***

***Şərin Avropa siyasəti:*** Təqlid etmək, parçalamaq, şərləşdirmək.

***

***Mərhələlər:*** Leninizm – zirək sosializm, Stalinizm – nəhəng sosializm, qorbaçovşina – səfeh sosializm.

***

***Yenidən qurulma:*** Köklü qırılma.

***

***Sosial-demokratizm, sosialistlər:*** Sosializmin bütün növləri – mahiyyət etibarilə antiinsanidir.

***

***Sosial-demokratizm:*** Kapitalizmi kommunizmdən qoruyur, həm də sosializmə itələyir.

***

***Sosializm əsarəti:***
İqtisadi əsarət – İctimai Mülkiyyət.
İctimai əsarət – İctimai Sistem.
Ruhani əsarət – İctimai Ehkam.

***

***Xəyanət:*** Azərbaycan ziyalıları xalqa xəyanət eləyiblər:
Ehkama xidmət eləyiblər.
Sistemə xidmət eləyiblər.
Təşkilata xidmət eləyiblər.

***

***Vəziyyət:*** Kənd şəhərləşir – Şərləşir.

***

***Köhnə bolşevik:*** Şər töküntüsü.

***

***Azad Qadın:*** Qadınlıqdan azad olan.

***

***Vəziyyət:*** Rus itlərindən Azərbaycan çobanları seçirlər.

***

***Ləyaqət:*** Şəhvətdən iyrənməyən kişini – kişi saymamaq.

***

***Qaynar həyat:*** Quş kimi, qarışqa kimi, arı kimi daimi hərəkətdə...

***

***Fəlakət:*** Rusiya – Avropanın kölgəsi.
Sovet Azərbaycanı – Rusiyanın kölgəsi,
yəni kölgənin kölgəsi...

***

***Özgəlik:*** Geyimləriylə-kecimləriylə, yerişləriylə-duruşlarıyla “özümüz deyilik!” – deyirlər özgələr.

***

***Sosialist reformaları:*** Ümumiçi şalvarında xüsusiçi yamağı.

***

***Kirayəçilik:*** Bütün sovet xalqı Sosialist Dövlətinin kirayəçisidir.

***

***“Təzə demokratiya”:*** Sosialist antidemokratiyasına kapitalist demokratiyası calamaq.

***

***Təzə sosialist müəssisəsi:*** Müstəqil nökərçilik.

***

***Təzə Birləşmələr:*** Nökər azadlığı.

***

***“Fərdi istehsalat”:*** Nökər payı.

***

***Dialektika:*** Ölülük.

***

***Metafizika:*** Dirilik.

***

***"Yeni seçki":*** Təzələşən təyinetmə.

***

***Aşkarlıq:*** Təzə gizlənmək üsulu.

***

***Özünütənqid:*** Şəri təsdiq.

***

***Sovet vətəndaşı:*** Haqqı nahaqq sayılan.

***

***Vəziyyət: Xalq sosializm ölümündən qurtarsa, ona ölüm yoxdur!***

***

***Xassələr: Kapitalizm xəstəliyi, sosializm ölümü!***

***

***Vəziyyət:*** Çadrasız qadın çadralı qadının alternativi olmadı – ***sərbəstlik əsarəti*** yarandı.

***

***Təzə hadisə:*** Dinamik durğunluq.

### *İşıq Ayı, 9-cu il*

***

***Bacarıq həddi:*** İnqilab Javerliyi bacarır, Jan Valjanlığı bacarmır.

***

***Şər söz:*** "Ehkam yaxşıdır – Ehkamçı pisdir! Sistem yaxşıdır – Sistemçi pisdir! Təşkilat yaxşıdır – Təşkilatçı pisdir!"

***

***İctimai hadisə:*** Qorxudan yoğrulanlar.

***

***Təzə üsul:*** Aşkarlıqda gizlənmək.

***

***Özünühipnoz şəfqəti:*** Heç nəyin olmasın, ancaq özünü ölkənin yiyəsi say!

***

***Vəziyyət:*** Sosializm yükünü çəkə də bilmirlər, tökə də...

***

***Təyin: Həyat – Amalın kölgəsi.***

***

***Müdafiə üsulu:*** Özlərini döyürlər ki, döyülməsinlər.

***

***Münasibət:*** Naşı – Fikrin nökəri.
Müdrik – Fikrin sahibi.
Xəstə – Bədənin nökəri.
Sağlam – Bədənin sahibi.

***

***Fərq:*** Zor ***Adamı*** qorxudur, ***İnsandan*** qorxur.

***

***Amal Binası:*** Bünövrə – İnam.
Daş – İdrak.
Sütun – Mənəviyyat.
Bənna – İradə.

***

***İctimai hadisə:*** Şər saçan lampalar.

***

***Ən zərərli stereotip:*** Marksizm.

***

***Mürəkkəblik:*** İkinci dünya müharibəsində xalqlar vətənlərini müdafiə edirdilər, ***həm də bir Yırtıcı Zoru başqa Yırtıcı Zordan xilas edirdilər.***

***

***Marksizm beynəlmiləlçiliyi:*** “Fəhlənin Vətəni yoxdur!” – Şəri.

***

***Marksizm humanizmi:*** “Zor – tarixin mamaçasıdır!” – Şəri.

***

***Nəticə:*** “Yoldaş” sözündəki yadlıqdan üşüyürsən!

***

***Mənfəətli xeyirçilik:*** “Şərə qarşıyam, ancaq Şər qazanının dibində Şər görmürəm!”

***

***Hüquq:*** Heyvan olmağa icazə verilir, İnsan olmağa icazə verilmir.

***

***Amal Döyüşü:*** İnam – Sərkərdə, İdrak – Silah, Mənəviyyat – Cəbhə, İradə – Qoşun.

***

***Adam – İnsan:*** Adamı Adama etibar etmək olmaz, İnsana etibar etmək olar.

***

***Ölməzlik:*** Ruh – işıqdır, işığı torpağa basdırmaq olmaz.

***

***Amal:*** Külək yox, Tufan yox – İşıq!

***

***Birlər:*** Bir Amal şairimiz var – Nəsimi!
Bir Məhəbbət şairimiz var – Füzuli!
Bir Dərd şairimiz var – Sabir!

***

***Oynayanlar:*** Diktatura havasına sındıranlar, indi demokratiya havasına süzürlər!

***

***İctimai hadisə:*** Kommunizm İdealsızlığı.

***

***Kommunist prinsipi:*** Hər şey olmaq üçün heç şey olmalı!

***

***İctimai hadisə:*** Kütləvi Antixəlqilik.

***

***Məkrli siyasət:*** Ölüləri dirildirlər ki, diriləri öldürsünlər.

***

***Fatehlər:*** Qərb SSRİ-ni demokratikləşmə yolu ilə fəth etmək istəyir, SSRİ – Qərbi sosialistləşmə yoluyla.

***

***Şəxsiyyət – Xalq:*** Tarixi – Şəxsiyyət yaradır, Xalq yaşadır.

***

***Kamillik:*** Göz Amaldan başqa heç nə görmür.
Qulaq Amaldan başqa heç nə eşitmir.
Dil Amaldan başqa heç nə demir.

***

***Ölçü:*** Özünə sahib olmaqdan böyük Azadlıq yoxdur.

***

***Antidialektika:*** Kəmiyyət artdıqca keyfiyyət azalır.

***

***Həqiqət:*** Cənnətdən dəhşətli cəhənnəm yoxdur əslində.

***

***İmkanlılar:*** Sosializmin kapitalizm imkanlarını aşkara çıxaracaqlar! Sosializmi avropalaşdıracaqlar, Avropanı sosialistləşdirəcəklər!
Dünyanı sülhlə fəth eləyəcəklər, humanizmlə zəbt eləyəcəklər!

***

***İttiham:*** "Şərə Şər atır!"

***

***Fərq:*** Od – istilik rəmzi – Materializm.
Od – İşıq rəmzi – İdealizm.

***

***Dahi olmayan:*** Əgər "təbiətin ən böyük əsəri" adamdırsa, onda təbiət orta istedaddır...

***

***Uydurulan:*** Adam uydurulmadan sevilmir.

***

***Hadisə:*** Gerçəklik Yalanı.

***

***Vəziyyət:*** Xalqı ölə-ölə öldürürlər.

***

***Hadisələr:*** Gədalığın ən əsas cəhəti – kübarlığa meyldir.

***

Pislik o qədər artıb ki, yaxşılıq sayılır.

***

***Vəziyyət:*** Cəmiyyət ağır zindan olub düşüb İnsanın çiyninə.

***

***Sürətli inkişaf:*** Təndirə düşməyə tələsirlər.

***

***8 Mart Bayramı:*** Qadın Qadınlığından azad oldu.

***

***İrsiyyət:*** Türk musiqisi ağlayırlar analarımız.

***

***Yetkinlik:*** Adamlardan İnsanlıq ummamaq. Amalı sevmək...

***

***Nisbət:*** Tülkünün rəhmdilliyindən Canavarın qatilliyi yaxşıdır.

***

***Gərəklik:*** Humanist cəmiyyətimizə Eşşək kimi işləyən, Tülkü kimi aldadan, Canavar kimi parçalayan gərəkdir!

***

***Vəhdət:*** Azad Fərd olmayan yerdə – Azad xalq yoxdur.
Azad xalq olmayan yerdə – Azad fərd yoxdur.

***

***Xudbinlik tarixi:*** Mənafe – xudbinlik deməkdir. Marksizm bəşər tarixini xudbinlik tarixi kimi təqdim edir.

***Ruhani tarix:*** Əsil tarix – mənafedən keçmək tarixidir, yəni ruhani tarixdir.

***

***Hadisə:*** Marksizm Antifəlsəfəsi.

***

***Faydalı həqiqətsevərlik:*** Deyir ki, deməsinlər...

***

***Vəziyyət: Kapitalistlər yenilikçilərin antisovet potensiyasına ümid bəsləyirlər, kommunistlər antikapitalist potensiyasına.***

***

***Tale:*** Adam acizliyinin ikinci adı.

***

***Fərq:*** Adam sürüsü olur, İnsan sürüsü olmur.

***

***Çeşidlər:*** Cəmiyyətin sevdiyi – Söyülməli adam.
Cəmiyyətin söydüyü – Sevilməli adam.
Cəmiyyətin öldürdüyü – Ölməz İnsan.

***

***Vəziyyət: Böyüklüyümüz kiçik görünür, kiçikliyimiz böyük.***

***

"***Azərbaycan*** Antiazərbaycan üçündür!"
Təzə mollalar Sabirə ehsan verirlər.

***

***Heykəl siyasəti:*** Cəmiyyət özünə Nizami heykəli qoyur, Nəsimi heykəli qoyur, Füzuli heykəli qoyur.

***

***Yaşamayan:*** "Yaşasın cəmiyyət!" deyən ədəbiyyat yaşamır.

***

***Yol:*** Yalan Quyusundan – Həqiqət Yoxuşuna – İnam Dağına.

***

***Ruhani ölçü:*** Geniş Dünya, Böyük Vətən.

***

***Görüş:*** Adamla görüşmək – Zamanla görüşmək.
İnsanla görüşmək – Amalla görüşmək.

***

***Fərq:*** İngiltərə İnqilabı respublika yaratdı.
Fransa İnqilabı demokratiya yaratdı.
Rusiya İnqilabı antirespublika, antidemokratiya yaratdı.

***

***İnsan olmayan:*** Adam günahkar olmasaydı, İnsan olardı.

***

***Ümumi Tənhalıq:*** Ümumilik artdıqca – tənhalıq da artır.

***

***Ənənə*** – Ruhani Yurd; ***Ənənəsizlik*** – Ruhani Yurdsuzluq.
***Münasibət:*** Cəmiyyətdən asılı olmadığın dərəcədə İnsansan.
Xalqdan asılı olduğun dərəcədə İnsansan.

***

***Təzəlik:*** Təzə Şamaxı – Antinəsimi.
Təzə Gəncə – Antinizami.

***

***Bədənə bənzəyənlər:*** Bədən qədər dönükdürlər bugünkülər.

***

***İkisindən biri:*** Çoxmillətli Dövlətlərdə ya millətlər ölməlidir, ya da dövlətlər.

***

***Oxşarlıq:*** Misir qulları Ehramlar yaratdılar, Sovet qulları – sənaye.

***

***İki yol:*** Xalqlar iki yolla məhv edilir: zorakı henosid və "könüllü" assimilyasiya yoluyla.

***

***Türk məsələsi:*** Avropa türk qılıncının zəhmini hiss elədi, türk idrakının zəhmini hələ hiss eləməyib.

***

***Nemətlər:***
Həyatın verdiyi – Şəhvət, Şöhrət, Varidat, Hakimiyyət.
Amalın verdiyi – İnam, Mənəviyyat, Müdriklik, İdeal.

***

***Həyatçılıq – materializm, Amalçılıq – İdealizm.***

***

***Hadisə:*** Marksizmin, sosializmin, partiya hakimiyyətinin yaratdıqları ruhani aclıq.

***

***İşıqlı gələcək:*** İdeal Zülmət.

***

***"İdeal" miqyası: İşləmək – dişləmək.***

***

***Hal:*** Xalqın ürəyi sayılan ziyalılar vasitəsilə xalqın ürəyini yeyirlər.

***

***Hadisə:*** Yekdil lallıq.

***

***Vəziyyət:*** Şərin də belini qırırlar, xalqın da.

***

***Gerçəklik:*** İctimai mülkiyyət əsarəti.

***

***Hal:*** İnamsızlıqdan böyük qorxaqlıq yoxdur.

***

***Həyat:*** Yaxşılığı Nisbidir deyə, Pisliyə ehtiyacı var.
Gözəlliyi nisbidir deyə, Eybəcərliyə ehtiyacı var.
Məhəbbəti nisbidir deyə, Nifrətə ehtiyacı var.

***

***Həyat qazancı:*** Müdriklik.

***

***Xassələr:*** Fil yerişi, dovşan yürüşü.

### *Şölə Ayı, 9-cu il*

***

***Təyin:*** Bədəni doyduran, ruhu ac qoyan Dünya.

***

***Vəziyyət:*** Kapitalizmin düşməni xaricdədir, sosializmin düşməni – daxildə.

***

***Hadisə:*** Sosializm xəstəliyinə tutulmuş cəmiyyət.

***

***Çeşidlər:*** Təhlükədən əsənlər. Təhlükəni əsdirənlər.

***

***Vəziyyət:*** Sovet Azərbaycanı – antiazərbaycan.
Sovet Azərbaycanının Cənubi Azərbaycan problemi yoxdur.

***

***Solçuluq:*** Kommunizm güzgüsü.

***

***Mahiyyət:*** Kommunizm əslində tarixin xarabalığı üzərində yaradılır.

***

***Yenilikçilər:*** Sübut eləmək istəyirlər ki, kommunizm antikommunizmi inkar eləmir.

***

***Çeşidlər: Dövlət, Millət, Demokratiya antikommunizmi.***

***

***Mahiyyət: Kommunizm Antisivilizasiyası.***

***

***Homeynizm:*** İslam marksizmi.

***

***Marksın görmədiyi:*** Sinifsiz cəmiyyət ən rəzil cəmiyyət ola bilər. İctimai mülkiyyət ən rəzil mülkiyyət ola bilər.

***

***Bilinən:*** Elə bilirdilər ki, "əsil demokratiya" üçün ictimai mülkiyyət çatışmır. Məlum oldu ki, ictimai mülkiyyət antidemokratiya yaradır.

***

***Hal:*** Müasir ziyalıyla Canavar dilində danışmaq lazımdır.
Tülkü dilində danışmaq lazımdır.
İt dilində danışmaq lazımdır.
***Adam dilində danışmaq lazım deyil!***

***

***Hadisə:*** Fəhlə partiyası – Fəhlə ağası.

***

***Rüşvət:*** Şər nökərçiliyinin maddi dəyəri.

***

***Hadisə:*** Şər antimillətçiliyi.

***

***Vəziyyət:*** Despotik sosializmlə Qərbi məhv edə bilmədilər, konservativ sosializmlə Qərbi məhv edə bilmədilər, indi liberal sosializmlə Qərbi məhv etmək istəyirlər.

***

***Fərq:*** Amerika Dünyaya Sənaye və Demokratiya ilə müdaxilə eləyir, SSRİ – Zor və Təbliğatla.
Amerika xaricdən qorxur, SSRİ – daxildən.

***

***Tarixi tərəqqi:*** Milli Zülmdən – Milli Ölümə.

***

***Sovet Azərbaycanı:*** Qoltuq Azərbaycanı.

***

***İttifaq miqyası:*** Nifaq miqyası.

***

***Sovetləşmə:*** Qoltuqlaşma.

***

***Hadisə:*** İkidilli Xalq.

***

***Fərq:*** Qərb iki məsələni həll eləyə bilmir – işsizlik və milli azadlıq hərəkatlarıyla əlaqə...

***SSRİ heç bir məsələni əsaslı həll eləyə bilmir.***

***

***Nəticə:*** "Sosializm kapitalizmlə hələ uzun müddət yanaşı yaşamalı olacaq!" – deyirlər yeni eraçılar.

***

***Vəziyyət:*** Kapitalizm antikapitalizmə çevrilə bilər, sosializm antikapitalizmə çevrilə bilmir.

***

***Antimarksist həqiqət:*** Sosializm demokratiyası "burjua demokratiyasına" möhtac imiş!

***

***Fərq:*** Qərbi demokratiya qoruyur, "Şərqi" antidemokratiya.

***

***Proletar diktaturası:*** Qula Ağalıq vəd etdilər və nəticədə onu Təzə Ağalara Qul etdilər.

***

***Üsul:*** Beynəlmiləlçilikdən istifadə edib Millətin belini qırırlar.
***Millətçilikdən*** istifadə edib Millətin belini qırırlar.
"Məğlubiyyətdən" istifadə edib Millətin belini qırırlar.

***

***Sosializm beynəlmiləlçiliyi:*** Zor Antimilliliyi.

***

***Zor çeşidləri:*** Təqib Zoru, Təzyiq Zoru, Təbliğat Zoru, Təşkilat Zoru.

***

***Fənd:*** Milli məhdudiyyətlə döyüş pərdəsi altında milli ləyaqətə divan tuturlar. Milli lovğalıqla döyüş pərdəsi altında milli vüqara divan tuturlar.

Nailiyyətdən istifadə edib Millətin belini qırırlar.

***

***Antixəlqilik:*** Öz xalqıyla siyasət dilində danışan Dövlətin gələcəyi yoxdur.

***

***İddialı gerilik:*** Avropanın ardınca sürünür, həm də Avropanı öz ardınca sürümək iddiasına düşür.

***

***Qiymət:*** Həyat üçün ölməyə dəyməz.
Amal üçün ölməyə dəyər.

***

***Total özgələşmə:*** Özgə Dövlət, Özgə Müəssisə, Özgə Fabrik, Özgə Torpaq, Özgə Ev.

***

***İqtisadi reforma: Sosializmi kapitalizm üsuluyla "xilas etmək!"***

***

***Qeyri-müstəqilliyin*** "müstəqillik" biçimi.

***

***Məhrumiyyətin*** Sahiblik biçimi.

***

***Maddi Mənafe Zoru.***

***

***Nicat:*** Şər tilsimindən çıxmaq, Şər tilsimini qırmaq.

***

***Şərlik:*** Şərin Xeyrinə "Aşkarlıq" – Aşkarlıq Şəri.
Şərin Xeyrinə Demokratiya – Demokratiya Şəri.
Şərin Xeyrinə Tərksilahlıq – Tərksilahlıq Şəri.

***

***Sinfi şüur:*** Antimilli şüur.

***

***Təzə xətt:*** Söykəndikcə sökmək.

***

***Həqiqi yalan:*** Siyasətçi həqiqət əslində Həqiqi Yalandır.

***

***"İşıqlı gələcək":*** Kommunizm apokalipsisi.

***

***Əsrin xəstəliklərindən birincisi:*** Kommunizm nevrozu.

***

***Marksist Əxlaq:*** Əxlaqsızlıq.

***

***Marksist İdrak:*** İdraksızlıq.

***

***Marksist İnamı:*** İnamsızlıq.

***

***Yeni İnsan:*** Antiinsan.

***

***Sosialist kollektivçiliyi:*** Sosialist nökərçiliyi.

***

***Mərhələlər:*** Sosializm – İctimailəşən mülkiyyət;
kommunizm – İctimailəşən İnsan.

***

***Kommunizm ölümü:*** Cəmiyyət İnsanı yedirir, içirdir və əvəzində cəmiyyətləşdirir – fərdsizləşdirir, şəxssizləşdirir, – yəni əslində öldürür.

***

***Xalq – Rəiyyət:*** Xalq özünü Dövlətdə ifadə eləyir, Rəiyyət Dövlətə əyilir.

***

***Antimarksist həqiqət:*** Marksın mücərrəd adlandırdığı insandan başqa İnsan yoxdur əslində.

***

***Marksist üslub:*** Ədəbi terrorçuluq.

***

***Sosializmin "nailiyyətləri":***

1. Partiya Mütləqiyyəti.
2. İctimai Mülkiyyət Məhrumiyyəti.
3. Kollektiv Mütilik.
4. Antimillilik.

***

***Leninizm – Puqaçovçuluq:*** Məzlumlara dünyanı vəd etmək, üsyançılıq.

***

***Sosializm:*** Demokratiyaya qədər yaşayacaq quruluş.

***

***Fərq:*** ***Kapitalizm*** – İntibahdan sonrakı.
***Sosializm*** – Təhkimçilikdən sonrakı.

***

***Xalq:*** Nə hakimdir, nə Rəiyyət – hakim yaradandır, hakim tərəfindən yaradılandır.

***

***Sosializm:*** Antidemokratiya deməkdir; demokratik sosializm olmur: sosializm – Siyasi, İctimai, İqtisadi Mərkəzləşmə, Mütləq Rəiyyətçilik deməkdir. Nə qazanıbsa, O, Mərkəzləşmə və Rəiyyətçilik bahasına qazanıb.

***"Özünü idarə edən xalq" əsatiri*** də Mərkəzləşmə və Rəiyyətçiliyə xidmət eləyib və edəcək.

***

***Vəziyyət:*** Əslində SSRİ-də Dövlət Partiyanın kölgəsidir.

Dövlətin hakimiyyətini azaltmaq – Partiya Mütləqiliyini daha da aşkarlamaq deməkdir.

***

***Sovetçi Antisovetçilər:*** "Mərkəzləşmə hökm sürüb" – deyirlər, "Demokratiya bərqərar olmayıb" – deyirlər, antisovetçilərin "böhtanını" doğrultmalı olurlar sovetçilər.

***

***Vəziyyət:*** Qərb SSRİ-ni İnsan haqqıyla haqlayıb, SSRİ – Qərbi nüvə müharibəsi Dəhşətiylə.

***

***Marksizm:*** İqtisadi fatalizm, Fəhlə hakimiyyəti haqqında əsatir, Yer cənnəti əfsanəsi, Dialektika falçılığı.

***

***Leninizm:*** Marksizm təcrübəsi.

***

***Nicat:*** Marksizmdən xilas olmaq.

***

***Əskiklik – üstünlük:*** Dəyişkənlik, Ziddiyyətlilik, Əksliklərin Vəhdəti – gözlə görünən, Bəsit şüurun dərk etdiyi ***Təzahür.*** Sabitlik, Bütövlük, Təzadlıq – Ruhun gördüyü, Zəkanın dərk etdiyi ***mahiyyət.***

***

***Maddiyyatçılıq*** – Gözün gördüyü, Bəsit şüurun dərk etdiyi ***Təzahür.***

***Ruhaniyyatçılıq*** – Ruhun gördüyü, Zəkanın dərk etdiyi ***Mahiyyət.***

***

***Özünüifadə:*** Xeyirin Şərə ehtiyacı yoxdur, Xeyir Şərsiz də Xeyirdir.
Həqiqətin Yalana ehtiyacı yoxdur, Həqiqət Yalansız da Həqiqətdir.
Gözəlliyin Eybəcərliyə ehtiyacı yoxdur, Gözəllik Eybəcərliksiz də Gözəldir.

***

***Dialektikadan artıq:*** Asılı olmayanlar Asılılığı.
Dəyişməyənlər Dəyişkənliyi.
Ayrılar Birliyi.

***

***Həqiqət fərqi:*** Nə dialektika, nə metafizika – Həqiqət!
Nə materializm, nə idealizm – Həqiqət!

***

***Varlıq sabitliyi:*** Dünya daim dəyişir, ancaq yoxa çıxmır, çünki Mahiyyətcə Sabitdir.

Bəşər daim dəyişir, ancaq yoxa çıxmır, çünki Mahiyyətcə Sabitdir.

İnsan daim dəyişir, ancaq yoxa çıxmır, çünki Mahiyyətcə Sabitdir.

***Dəyişkənlik*** *–* ***Sabitliyi dəyişmir.***

***

***Yoxluq:*** Sabit olmayan ***dəyişiləndə*** yoxa çıxır.
Bütöv olmayan ***mürəkkəbləşəndə*** yoxa çıxır.
Müstəqil olmayan ***birləşəndə*** yoxa çıxır.

***

***Həyat – Özünüifadə; Amal – Özünütəsdiq.***

***

***Ahəng doğmalığı:*** Yadların Savaşında ahəngdarlıq yoxdur.
Doğmaların Birliyində ahəngdarlıq var.

***

***Dialektika:*** Elmi Mistika.

***

***Ruhani İflas:*** Cəmiyyətləşən Şəxsiyyət.

***

***İctimai Tələb:*** "Ağanın nökəri ol ki, nökərin ağası olasan!"

***

***İctimai tip:*** Şöhrət və Mənsəb yolunu həm millətçi, həm beynəlmiləlçi, həm xəlqi, həm rəsmi yeriyən.

***

***Xalqlar dostluğu siyasəti:*** Dostluq siyasətdirsə, onun səmimiliyinə inanma!

***

***Milli siyasət:*** Antimilli niyyət.

***

***Xəyanət şəri:*** Şərçilərdən Şərə Sədaqət ummurlar,
Xeyirə Xəyanət umurlar.

***

***Əməliyyat:*** Həyatı cəmiyyətləşdirirdilər, indi də cəmiyyəti həyatlaşdırırlar.

***

***Sovet ədəbiyyatı:*** Xalqın dilsizliyi.

***

***Tarixi Təcrübə:*** Elmi cəmiyyət fəlakəti.

***

***Fərq:*** Cismani Ata – həyata gətirən.
Ruhani Ata – Amala yetirən.

***

***Həyatın dəyəri:*** Amal.

***

***Təhlükəsizlik:*** Pişiklər olmayanda siçanların qorxaqlığı bilinmir.

***

***70 il:*** Azərbaycan bir 70 il də özündən ayrı düşdü.

***

***Sosialist İqtisadiyyatı:*** İqtisadi Zor.

***

***Sosialist Demokratiyası:*** "Demokratik" Zor.

***

***Sosialist Humanizmi:*** "Humanist" Zor.

***

***Sosialist Kollektivçiliyi:*** Kollektiv Zor.

***

***Mərkəzi Komitə:*** Partiya Sarayı.

***

***Sovet Pedaqogikası:*** Tərbiyəsizlik təlimi.

***

***Sovet Fəlsəfəsi:*** İdraksızlıq təlimi.

***

***Sovet Cəmiyyəti:*** İctimai Zor.

***

***Sovet Hüququ:*** Qanunlaşan Mərdiməzarlıq.

***

***Sovet Seçkisi:*** Zoru Seçmək.

***

***Sovet Xalqı:*** Özündən ayrılan.

***

***Partiyalıq prinsipi:*** İdraki taygözlük.

***

***Sovet Mədəniyyəti:*** "Mədəni" Zor.

***

***Şərəfli "İfşalar":*** Antimarksist – Antişər; Antisovet – Antişər.

***

***Şər üsulu:*** Xalqa demokratiya verirlər ki, Xalq antidemokratiyaya xidmət etsin.

"Ədaləti bərpa edirlər" ki, Əsarət möhkəmlənsin.

Seçkini "könüllüləşdirirlər" ki, Zor seçilsin.

***

***Hadisə:*** Qara siyahıya düşmək Üzüağlığı.

***

***Adlar:*** ***Beynəlmiləlçiliyin*** əsil adı – Şovinizm,
***Millətçiliyin*** əsil adı – Vətənsevərlik.

***

***Demokratiya:*** Kapitalizmin xilaskarı, sosializmin qənimi...

***

***Sovetçilik – Şərçilik:***

Sovet hüququ – Şər yalanı.
Sovet ordeni – Şər nişanı.
Sovet fəhləsi – Şər aləti.
Sovet ziyalısı – Şər zülməti.
Sovet adamı – Şər mütisi.
Sovet sənəti – Şər çalğısı.
Sovet silahı – Şər kabusu.
Sovet müəssisəsi – Şər əmlakı.
Sovet idarəsi – Şər iradəsi.
Sovet vətənsevərliyi – Şərsevərlik.

***

***Hadisə:*** Antimillilik təzyiqinin təzə mərhələsi başlayır – "çoxmillətli milli respublikalar" pərdəsi altında milli özünəməxsusluğa quyu qazırlar.

***

***Monolit Birlik: Ölü dirilik.***

***

***Sovet Xalqı: Elsizlik.***

***

***Sovet Ölkəsi: Yurdsuzluq.***

***

***Hadisə:*** Sovet Əməlində Qurmaq ən çox Qırmaq deməkdir.

***

***Sosializm humanizmi:*** Qatillik tələbi.

***

***Marksizmin mahiyyəti:*** "Zor tarixin mamaçasıdır" – iddiası.

***

***Sosializmin üzə çıxardığı potensiyalar:***
Qadınların həyasızlıq potensiyası.
Kişilərin qeyrətsizlik potensiyası.

***

***Güllələnən milli kübarlar:*** Mərkəz Ağalarının oğru itləri.

***

***Əlacsızlıq:*** Sədaqətli it tapa bilmirlər, yala hürən tulalardan yapışırlar.

***

***Yazıçılar İttifaqı:*** Şöhrət Nifaqı.

***

***Adam ölçüsü:*** Doğruluq əslində tərkidünyalıq sayılır.
Əyrilik əslində Dünyəvilik sayılır.

***

***Məhkumluq – Məhrumluq:***
"Xalq Hakimiyyətində" Xalq nökərçiliyə məhkum olunur. "Xalq Mülkiyyətində" Xalq Mülkiyyətdən məhrum olur.

***

***Yaranan yamanlıq:*** Çoxlu xanlar əvəzinə bir nəhəng xan yarandı – Dövlət.

Çoxlu bəylər əvəzinə bir nəhəng bəy yarandı – Dövlət.

Çoxlu kapitalistlər əvəzinə bir nəhəng kapitalist yarandı – Dövlət.

***

***Fərq:*** Xalq – Ruhla birləşən, Rəiyyət – Zorla birləşən.

***

***Əmək qəhrəmanı:*** Fəxri Nökər.

***

***Sovet deputatı: Mütiliyə seçilən,***
***Mütiliklə seçilən.***

***

***Sosializm realizmi:*** Ehkam "gerçəkliyi".

***

***Ölkə:*** Maddi cəhətcə varlı, ancaq əhalisi yoxsul.
Elmi cəhətcə varlı, ancaq İdrak cəhətcə yoxsul,
Mənəvi cəhətcə yoxsul,
Hərbi cəhətcə varlı, ancaq cəsarət cəhətcə yoxsul...
Xaricdəki Yağıya qalib gələn, daxildəki Yağıya məğlub olan...

***

***Sovet vətəndaşı:*** Dövlət qulu.

***

***Olmayan – Olan:*** Sinfi Sənət olmur – Sinfi Antisənət olur.
Sinfi Fəlsəfə olmur – sinfi Antifəlsəfə olur.
Sinfi Əxlaq olmur – sinfi Antiəxlaq olur.

***

***Marksizm İnamsızlığı:*** Bəşər tarixini ***Sinfi Mübarizə*** tarixi saymaq – İnsana İnamsızlıqdır;

***İqtisadiyyat tarixi*** saymaq – İnsana İnamsızlıqdır;

***İstehsalat tarixi*** saymaq – İnsana İnamsızlıqdır.

Marksizmdə İnsan Sinifləşir, İqtisadiyyatlaşır, İstehsalatlaşır.

***

***Xalq olmayan:*** Tarixi şəxsiyyət yaratmayan Xalq – Xalq deyil, Əhalidir.

***

***Fərq:*** Tarixi öz arxasınca aparanlar...

Tarixin arxasınca gedənlər.

***

***Xeyirli Ziyan:*** Özünə Ziyan vermədən Xalqa Xeyir vermək olmaz.

***

***Əlaqə:*** Bulanıq Ədəbiyyat – Qaranlıq Həyat.

***

***Antihumanist "humanizm":*** Marksizm İnsanı sinifdə, iqtisadiyyatda, istehsalatda itirir ki, kommunizmdə tapsın...

***

***Kommunizm İdealsızlığı:*** "Nə qədər istəyirsən dişlə, nə qədər bacarırsan işlə!" – məqsədində idealsızlıq yaşayır.

***

***Marksist Tarix:*** İqtisadiyyat – ağa, insan – nökər,<br>istehsalat – ağa, insan – nökər.

***

***Tarixin İbrət dərsi:*** İqtisadiyyata bel bağlayırlar, istehsalata bel bağlayırlar. İnsana bel bağlamaq gərək.

***

***SSRİ*** – Antidemokratik, Antihumanist möhtəşəmlik.
Zor bahasına qazanılan Maddiyyat – İnsandan keçən.

***

***"Yenidən qurulma xilası":***
Sosializmi kapitalizm üsuluyla "xilas eləyirlər".
İctimai mülkiyyəti xüsusi mülkiyyət üsuluyla "xilas eləyirlər".
Xüsusi, Şəxsi Mənafedən yapışırlar, Müstəqillik məzhəkəsi yaradırlar, Demokratiya məzhəkəsi yaradırlar.

***

***Fərq: Sosializm*** böhranından çıxış yolu – antisosializm.
***Kapitalizm*** böhranından çıxış yolu – kapitalizm.

***

***Yollar:*** Təzə "kapitalist sosializmi" ya tam kapitalistləşəcək, ya da əvvəlki "klassik sosializmə" qayıdacaq.

***

***Doğru yol:*** Ruhani cəmiyyət, Fərdi özünüidarə səlahiyyəti, Əməkçi Mülkiyyəti.

***

***İqtisadi reforma: İctimai Mülkiyyət*** əməkçiyə yad oldu. "Müəssisə Müstəqilliyiylə" Yadlar doğmalaşacaqlar!..
***Dövlət rəhbərliyi*** İqtisadiyyata Yad oldu.
"Müəssisə müstəqilliyiylə" Yadlar Doğmalaşacaqlar!..

***

***Demokratlaşma çalğısı:*** Cəmiyyət Xalqa Yad oldu.
Demokratiya çalğısında Yadlar Doğmalaşacaq!

***

***Aşkarlıq:*** Ürəklər boşalsın ki, cəmiyyət partlamasın!

***

***Tənqid:*** Zorluya söyək ki, Zora söyməyək.

***

***Tarixi yekun:*** Yad Dövlət yarandı.
Yad İqtisadiyyat yarandı.
Yad Təşkilat yarandı.
Sosializm yaramadı...

***

***Xəbərsizlik:*** Keçici bayraqlar can verən iqtisadiyyat üzərində dalğalanırmış!

***

***Vəziyyət:*** Güclə yaranan İqtisadiyyat əslində gücsüz olur.
Sürətlə yaranan İqtisadiyyat əslində durğun olur.

***

***Həqiqət:*** Sosializm çoxluğu – demokratiya yoxluğu!
Demokratiya çoxluğu – sosializm yoxluğu!

***

***Vəziyyət:***
Məlum oldu ki, sosializm – iqtisadiyyatın inkişafına yaddır.
Demokratiyanın inkişafına yaddır.
Xalq təsərrüfatı xalqa yaddır.
Xalq cəmiyyəti xalqa yaddır.
Xalqda "öz təsərrüfatına" maraq oyadırlar, "öz cəmiyyətinə" "sahiblik" aşılayırlar.

***

***Yalan:*** Mülkiyyətin sahibi olmayan Əməkçi İstehsalatın Sahibi olacaq.

***

***Müəssisə Müstəqilliyi:*** Qeyri-müstəqil asılılığın “müstəqil” asılılıqla əvəz olunması.

***

***Sahiblik:*** Əməkçini ictimai mülkiyyətin sahibi etmək üçün ictimai mülkiyyəti əməkçi mülkiyyətinə çevirmək lazımdır.

***

***Hadisə: Dövlət Mülkiyyətinə “malik olmaq” məhrumiyyəti.***

***

***Xidmətçi Sahiblik:*** Dövlət mülkiyyəti Müəssisənin öhdəsinə verilir ki, Dövlət “müəssisə Sahibliyindən” əlverişli bəhrələnsin.

Dövlət – Müəssisənin Sahibi, Müəssisə – Dövlətin xidmətində “Müstəqil” – Asılı Müstəqillik, Xidmətçi Sahiblik.

***

***“Müstəqil Dövlət Müəssisəsi”:*** Müəssisə Dövlət Mülkiyyətindən istifadə etməkdə Müstəqildir, Dövlət Müstəqil Müəssisəyə Sahiblik eləyir, Müstəqil Müəssisəyə Sahiblik eləmək Dövlətə daha çox sərfəlidir.

***

***Vəziyyət:*** Sosializmin gerçək qadirsizliyi tam aşkara çıxdı.

Sosializmin imkansızlığını da tam aşkara çıxaracaqlar yenilikçilər.

***

***Əsas maneə: İqtisadi inkişafın*** qarşısında duran əsas maneə – sosializm mülkiyyətidir.

***İctimai inkişafın*** qarşısında duran əsas maneə – sosializm ictimai quruluşudur.

***

***Ruhani inkişafın*** qarşısında duran əsas maneə – Marksizm ehkamıdır.

***

***Sosialist radikalizmi:*** Cəsarətli kapitalistləşmə.

***

***Antisosializm:*** Əslində ***Demokratiya*** – Antisosializm deməkdir.
***İqtisadi müstəqillik*** – Antisosializm deməkdir.
***Özünüidarə*** – Antisosializm deməkdir.

***

***Antimarksizm:*** Həqiqət.

***

***Kapitalizmə xidmət:*** Sosializm Kapitalizmə yaxınlaşdıqca kapitalizmin ömrünü uzadır...

***

***Mahiyyət: Sosialist ayağıyla kapitalist yerişi yerimək.***

***

***Gerçəklik:*** Sosialist istehsal münasibətləri istehsal qüvvələrinin inkişafına ziddir.

***

***Sosializm uydurması:*** İctimai Mülkiyyət Əməkçi Mülkiyyətsizliyi deməkdir əslində, mülkiyyətsizin mülkiyyətə Sahibliyi sosializm uydurmasıdır.

***

***Kapitalist dərmanı:*** Qeyri-normal sosialist iqtisadiyyatı kapitalistcəsinə "normallaşdırılır".

***

***Yekun:*** Kommunizmə işləyən əməkçi indi gəlirə işləyəcək.

***

***Səylər:*** Çalışırlar ki, istehsalatın aləti olan ***əməkçi*** özünü istehsalatın Sahibi saysın.

Çalışırlar ki, cəmiyyətin aləti olan ***vətəndaş*** özünü cəmiyyətin Sahibi saysın.

***Çalışırlar ki, olmayan olan görünsün.***

***

***Təzə Yön:*** Sosialist Mülkiyyətində Kapitalist Mülkiyyətçiliyi.

***

***Mahiyyət:*** Sosializm – Stalinizm deməkdir.

Ondan kənarda nə varsa – antisosializmdir.

***

***İctimai kentavr: Sosializm əmlakında*** kapitalist təsərrüfatı.

***Sosializm cəmiyyətində*** burjua demokratiyası.

***

***Antimarksist tarix:*** "Məhv olan", "məhv olmalı" kapitalizm sosializmi yaşadır.

***

***Köhnəlik – Təzəlik: Köhnə kapitalist üsuluyla – təzə sosialist istehsalatı.***

***

***Antimarksist hal: Sosialist dərdinə kapitalist əlacı!***

***

***Məqsəd:*** Mütləq Partiya hakimiyyəti altında kapitalistləşən sosialist İqtisadiyyatı.

***

***Sosialist adamı:*** Maddi maraq əsasında formalaşan "yeni insan". Maddi stimul əsasında yaranan "mənəvi birlik".

***

***Sosialist Mülkədarlığı:*** Kollektiv podrat.

***

***Sosialist "İdealı":*** Maddi mənafe əsasında yaranan "ideal cəmiyyət".

***

***Faydalı təminat:*** Əməkçi təmin olunmalıdır ki, istehsalatı təmin eləsin.

***

***Həyatyanı təsərrüfat: Sosialist zəkatı.***

***

***Vəziyyət:*** Sosializmi sosializm hesabına yaşatmaq olmaz – öldürmək olar.

Sosializmi kapitalizm hesabına yaşatmaq olmaz – öldürmək olar.

***

***Tərəqqi:*** Avropa kapitalizm həddini aşır, SSRİ kapitalizmə yanaşır.

***

***İctimai hal:*** Bayramları Yasa bənzəyir, Yasları Bayrama.

***

***Sovet şairləri:*** Şəri şeirləşdirənlər...

***

***Sosializm hadisəsi:*** Fərdi əmək naziri.

***

***Fərq:*** Kapitalizmdə Mərkəzləşmə anarxiyaya qarşıdır, sosializmdə müstəqilliyə qarşı.

***

***Təzə sosialist siyasəti:*** "Demokratik" hökmranlıq.

***

***Qüdrətsizlik:*** Zamana çağırılırlar, Zamanı çağırmırlar.

***

***Təzə Əfqanıstan ideyası:*** Kommunist partiyasının rəhbərliyiylə burjua demokratik respublikası.

***

***"Yaradıcı marksizm":*** Sosializmin kapitalist imkanlarını arayıb tapdılar.

***

***Hadisə:*** Sosialist yenidənqurması – kapitalist qələbəsi.

***

***Hal:*** Ədalətli kommunist – antikommunistdir əslində.
Vicdanlı kommunist – antikommunistdir əslində.
İnamlı kommunist – antikommunistdir əslində.
Əxlaqlı kommunist – antikommunistdir əslində.

***

***İctimai hadisə:*** Kommunist mürtəceliyi.

***

***Əsil və Yalançı Sahiblik:*** Sosializmdə Mülkiyyətin Sahibi dövlətdir. Mülkiyyət ayrı-ayrı müəssisələrdən ibarətdir.

Təzə Qanuna görə müəssisənin sahibi əmək kollektividirsə, onda Dövlət nəyin Sahibidir?

Əslində isə əmək kollektivi müəssisənin yalançı sahibi olacaq, çünki müəssisənin əsil sahibi yenə də dövlət olaraq qalır.

***Mülkiyyət kimindirsə, müəssisə də onundur.***

Müəssisəyə verilən Müstəqillik – əslində Sahibin verdiyi Müstəqillikdir, Sahiblik deyil.

Əmək kollektivi Sahibin istədiyi şəkildə, Sahibə gərək olduğu dərəcədə müstəqildir, müəssisə sahibi səviyyəsində müstəqil deyil.

***Bir əmlakın iki Sahibi olmur, Bir Sahibi olur və bu sahib xidmətçisini "Sahibləşdirir" ki, Sahibinə daha səmərəli xidmət eləsin.***

***Od Ayı, 9-cu il***

***

***Mülkiyyət – Ləyaqət:***

Şəxsi Mülkiyyət – Şəxsin Ləyaqətini qoruyur.

İctimai Mülkiyyət – Şəxsin Ləyaqətini tapdayır.

İstismarın səbəbi şəxsi mülkiyyət deyil – muzdlu fəhlə əməyidir.

***İctimai mülkiyyət istismarı məhv etmir – ictimailəşdirir, dövlətləşdirir.***

***

***Dövlət istismarı:*** Xalq Mülkiyyəti uydurmadır. Xüsusi və Dövlət mülkiyyətləri olur.

Xüsusi Əməkçi Mülkiyyətində istismar yoxdur, ***xüsusi kapitalist mülkiyyətində kapitalist istismarı, Dövlət mülkiyyətində Dövlət istismarı var.***

***Sosializmdə*** Dövlət kapitalistləşir.

***

***Kommunist gedişat:***

Nəzəriyyə əsasında Dövlət aradan qaldırılanda – onu əvəz edən Bir təzə Sahib tapılacaq – ***Əməkçilər Birliyi Assosiasiyası adında.***

***

***İctimai Antihumanizm:*** Sosializmdə cəmiyyət Şəxsin Sahibi olur.

Əslində isə Şəxsin Sahibi Şəxsin özü olmalıdır.

Sosializm bu İmkanı Şəxsin əlindən alır.

***İctimai Mülkiyyət Sosialist Antihumanizmi yaradır.***

***

***Sosializm Robinzonadası:*** Sosializm təzə Robinzonada yaradır: hamılıqda Tənhalıq, hamılıqla Tənhalıq.

***

***Müxalifət Yalanı:*** "Antisosialist pələnglər" əslində sosialist pişikləriymiş!

***

***Yalanlar:*** Sosializm həddində Ədalət yalanı.
Sosializm həddində Cəsarət yalanı.
Sosializm həddində Həqiqət yalanı.

***

***Təzəlik: Kapitalizmin ətəyindən yapışan sosializm.***

***

***"Əməkdaşlar":*** Sosializm kapitalizmin ətəyindən yapışır ki, sonra boğazından yapışsın.

Kapitalizm ətəyini sosializmə verir ki, əli boğazına yaxınlaşsın!

***

***Qorunmaq səyi:***
"Cəsarətlə" Cəsarətdən qorunurlar.
"Ədalətlə" Ədalətdən qorunurlar.
"Həqiqətlə" Həqiqətdən qorunurlar.

***

***Həqiqət:*** Sosializmin yalnız bir həqiqəti var – Antisosializm, yəni sosializm – ədalətsizlik, həqiqətsizlik, cəsarətsizlik deməkdir əslində.

***

***Sosialist Müstəbidliyi:***
İctimai Mülkiyyət – İqtisadi Müstəbidlik.
İctimai Hakimiyyət – Siyasi Müstəbidlik.
İctimai Təşkilat – İdeoloji Müstəbidlik.

***Sosialist Mülkiyyəti, Sovet Dövləti, Partiya Mütləqiyyəti deməkdir sosialist müstəbidliyi.***

***

***Fərq: Kapitalizm*** – həyatı mənimsəyir.
***Sosializm*** – həyatı buxovlayır.
***Amal*** – həyatı Ucaldır.

***

***Əfqanıstan Yolları:*** İslam əsarətinə düşən müstəqil ölkə.
Marksist əsarətinə düşən SSRİ əyaləti.
Birinci yolda siyasi azadlıq və ruhani əsarət var.
İkinci yolda həm siyasi, həm də ruhani əsarət var.
***Vəziyyət birinci yola üstünlük verir.***

***

***İran Yolu:*** Antiislam, Antimarksist, Antikapitalist Amal.

***

***Yolumuz:*** Dünəndən gəlirik, Bugündən keçirik, Sabaha gedirik.

***

***Söz Əməli:*** Beynəlxalq Təhlükəsizlik – Təhlükəsiz Sosialistləşmə – Şərləşmə.

***

***Ümumbəşərilik:*** Ümumbəşəri Sosialistləşmə – Şərləşmə.

***

***Barışma Siyasəti:*** Barışma Əsarəti.

***

***Daxili işlərə qarışmamaq prinsipi:*** Daxili işlərə qarışmağın təzə yolu.

***

***Siyasi Müstəqillik Tələbi:*** Siyasi asılılığın təzə yolu.

***

***Qarşılıqlı etimad:*** Qarşıdurmanın təzə yolu.

***

***Neytrallaşma:*** Sosialistləşmənin ilk mərhələsi.

***

***Zordan əl çəkmək prinsipi:*** Təzə Zor yolu.

***

***Aqibət:*** Kəndlinin kolxoz Məhşəri.

***

***Kommunizm İdealsızlığı:*** 1. "İstədiyin qədər ye, bacardığın qədər işlə!" məqsədinin İnsanlaşmaya dəxli yoxdur.

***İnsanlaşmadan başqa kənarda insani İdeal yoxdur əslində.***

Bu baxımdan, kommunizm – bariz İdealsızlıqdır.

3. Marks kommunizmi – ***"insanın özünə qayıtması" adlandırırdı.***

   Əslində isə kommunizm ən yaxşı halda maddi toxluq və qədərli əməkçilik deməkdir ki, burada İnsaniliyin heç nişanəsi belə görünmür.

***İnsanilik – İnam, İdrak, Mənəviyyat və İradə kamilliyi deməkdir ki, o, toxluq və qədərli əməkçiliklə yaranmır.***

***

***Fərq:*** İdealizm – adamı Təzahürdən ayırır,
Materializm – Təzahürə sarıyır.

***

***Materialist "İdeal":*** Təzahürü Mahiyyətlə eyniləşdirmək naqisliyi.

***

***İstismarsızlıq:*** Mülkiyyətə Əməkçi Sahib olmayınca istismar yaşayacaq.

Torpaq – Kəndlinin, Fabrik, Zavod İşçilərin olmalıdır, Mülkədarın yox, Kapitalistin yox, Dövlətin yox.

***

***Siyasi Dialoq:*** İkili Siyasət.

***

***Ərəb "Yolu":*** Yolsuzluqdan çıxmaq.

***

***Ayağa salanlar:*** İslam İnsanı Allahın ayağına salır, Marksizm – İqtisadiyyatın.

***

***Müasir Türkiyə:*** Qərbə sığınan – sığmayan!

***

***Azərbaycan "xilaskarları":*** Şərin tapşırığıyla Atayurdu Şərə tapşıranlar.

***

***Təzəlik:*** "Cəsarətli" Mütilik yaradırlar.
"Azad" Zor yaradırlar.
"Aşkar" gizlilik yaradırlar.

***

***İctimai hadisə:*** Ruhsuzluq əhvali-ruhiyyəsi.

***

***Varidat:*** Həyata verdiyimdən başqa həyatdan heç nə almadım.

***

***Xalq Aqibəti:*** Özünə qalanan, Özgəyə yanan.

***

***Siyasi gerçəklik:*** Aşkar bilinən nə varsa, əslində sirlidir.

***

***Məqamlar:***

Olan – Keçici.
Olacaq – Həmişəlik.
Olmalı – İmkan.

***

***İctimai hadisə:*** Zəmanəyə uymaq dəliliyi.

***

***Mahiyyət:*** Beynəlmiləlçilikdə milli satqınlıq potensiyası yaşayır.

***

***Marksist əsarəti:*** Marksizmdə İnsana cəmiyyət Sahib olur, iqtisadiyyat Sahib olur, Sinfi münasibətlər Sahib olur.

***Marksizm əslində ictimai, iqtisadi, sinfi Əsarəti doğruldur.***

İnsanı Əsarətdən xilas etmək üçün onu həm də marksizmdən xilas etmək gərəkdir.

***

***Marksist İnsansızlığı:***

1. Marksizmdə əslində İnsan yaşamır, düşünmür, fəaliyyət göstərmir – cəmiyyət, iqtisadiyyat, siniflər yaşayır, düşünür, fəaliyyət göstərir.

2. Marksizmdə İnsanın öz gözü yoxdur, o, dünyaya cəmiyyətin, iqtisadiyyatın, siniflərin gözüylə baxır.

3. Marksizmdə İnsanın öz dili yoxdur, o, dünyayla cəmiyyətin, iqtisadiyyatın, siniflərin diliylə danışır.

4. Marksizmdə İnsanın öz qulağı yoxdur, o, dünyanı cəmiyyətin, iqtisadiyyatın, siniflərin qulağıyla dinləyir.

Marksizmdə İnsan kor, lal və kardır.

***Marksist nicatı:***

İqtisadiyyat dəyişiləcək və bu səbəbdən də cəmiyyət dəyişiləcək, siniflər yox olacaq. Sahiblər dəyişiləcək, İnsana İnsani həyat bəxş olunacaq.

***İqtisadi Tale:***

Marksizmdə İnsanın Taleyi İqtisadiyyatın ixtiyarına verilir.

İnsandan asılı olmayan labüd iqtisadi Qanun – İstehsal münasibətlərinin məhsuldar qüvvələrə uyğunluğu Tələbi – İnsanın aqibətini yaradır.

İqtisadiyyat Allahının yazdığına pozu olmur Marksizmdə.

***İqtisadiyyat Allahı İnsanın taleyini onun alnına yazır burada.***

***Marksizm Qəzavü-Qədəri:***

***Olacağa çarə yoxdur!***

İqtisadi Qanuna əsasən, sosializm labüd şəkildə bərqərar olmalıdır!

İqtisadi Qanuna əsasən, kommunizm labüd şəkildə bərqərar olmalıdır!

İqtisadi Qanuna əsasən, kapitalizm labüd şəkildə məhv olmalıdır!

Labüdiyyət selinə qarşı durmaq olmaz!

Bu qəzavü-qədərə zaval yoxdur!

***Müəyyənlik Əsarəti:***

Marksistlər Sosialist Bugününü müəyyənləşdiriblər.

Ondan kənara çıxmaq olmaz!

Marksistlər kommunizm Sabahını müəyyənləşdiriblər.

Ondan kənara çıxmaq olmaz!

Marksistlər Ehkam İdrakını müəyyənləşdiriblər.

Ondan kənara çıxmaq olmaz!

Marksistlər Zor Təşkilatını müəyyənləşdiriblər.

Ondan kənara çıxmaq olmaz!

***Müəyyənləşmə Zənciri yaradıblar marksistlər – qırılmalı!***

***

***Təhlükə:*** İkibaşlı Xalq yarada bilmədilər təzə Azərbaycan "başçıları".
Özgə başlı Ziyalı təhlükəsi yaratdılar.
İkiürəkli Xalq yarada bilmədilər təzə Azərbaycan "başçıları".
Özgə ürəkli Ziyalı təhlükəsi yaratdılar.

***

***Qalibiyyət – Məğlubiyyət:***
İnam, Ədalət və Həqiqət uğrunda döyüşdə İnsanilik qalib gəlir.
Mənafe uğrunda döyüşdə İnsanilik məğlub olur.

***

***Əlaqə:*** Əslində İnsan şəraitdən asılı olmadığı dərəcədə şəraitə gərəkdir.

***

***Fəaliyyət:*** Dünyanı sosializm çirkabı üçün təmizləyirlər.

***

***Təzə Siyasət:*** Realizm adlanan Avantüra – Realistik Avantüra.

***

***Hal:*** Külək olub əsə bilirlər, Toxum olub səpilə bilmirlər.

***

***Hadisə:*** Sülh uğrunda döyüşdə Fatehlik təhlükəsi artır.

***

***Vəziyyət:*** Nüvə silahından azad olunmuş Ərazilərdə sosializm vahiməsi yerləşəcək.

***

***Hal:*** Mədəni xarabalığımızda Akademiya bayquşu ulayır.

***

***Müasir Qonaqpərəstlik:*** Şərin ayağı altında Xalq başı kəsirlər.

***

***Tərəqqi Ölçüsü:*** İnamda, İdrakda, Mənəviyyatda, İradədə Şərdən fərqlənmirlər.

***

***Hal:*** Xalq Antixəlqi Fəaliyyət Yuxusundan ayılmayıb hələ.

***

***Rəzalət:*** Yada sığınmaq – Xalqa sığınacaq bilinmək.

***

***Dərd:*** Öz Ayağınla Özgə yerişi yerimək!

***

***Yüyrək səy:*** Ən gərəkli Şər nökəri Yürüşündə hamını ötmək!

***

***Gedişat:*** Bugündə Dünən öldü, Sabahda bugün ölməlidir.

***

***Hadisə:*** Cəsarətdə axsadığından ehtiyat əsasından beşəlli yapışıb.

***

***Dırmaşanlar:*** Vəzifəyə dırmaşırlar, Vəsiqəyə dırmaşırlar, Rütbəyə dırmaşırlar, Təltifə dırmaşırlar – yer Alpinistləri.

***

***Vəziyyət:*** Sosialist qəhrəmanlıqlarında Xalqın qəhrəmanlıq ənənələrini öldürürlər.

***

***Hadisə:*** Marksizm bolluğundan yaranan idraki aclıq.

***

***Sehrbazlar:*** İflasdan Xilas düzəldirlər.

***

***“Azadlıq”:*** Beyinləri Ağıl Yükündən azad elədilər,
Ürəyi Duyğu Yükündən, Üzü Həya Yükündən.

***

***Hadisə:*** Kütləvi Antixəlqilik.

***

***Xilaskarlar:*** Sosializmi antisosializm vasitəsiylə “xilas eləyirlər”.
Marksizmi antimarksizm vasitəsiylə “xilas eləyəcəklər”.

***

***Əməliyyat:*** Dəvənin belini “düzəldə-düzəldə” qırırlar.

***

***Zor keşikçiləri:***
Adamlar rüşvətə əyilməsəydilər, Zora əyilməzdilər.
Şəhvətə əyilməsəydilər, Zora əyilməzdilər.
Şöhrətə əyilməsəydilər, Zora əyilməzdilər.
Həsədə əyilməsəydilər, Zora əyilməzdilər.

***

***Olan – Olmayan:***
Kollektivçilik iflas oldu – yalançı fərdiyyətçilikdən yapışırlar.
İctimai maraq iflas oldu – iqtisadi mənafedən yapışırlar.
Mərkəzləşmə iflas oldu – yalançı müstəqillikdən yapışırlar.
Vahidlik iflas oldu – yalançı müxtəliflikdən yapışırlar.

***

***Nəticə:*** Yeni Xalq – Xalqsızlıq.
Yeni Haqq – Haqsızlıq.
Yeni Qanun – Qanunsuzluq.
Yeni Əxlaq – Əxlaqsızlıq.

Yeni Dünya – Dünyasızlıq.
Yeni Görüş – Görməzlik.
Yeni Bilik – Bilməzlik.
Yeni Yol – Yolsuzluq.

***

***Şər – antişər:*** – Müxtəlifliyin ləğvindən Vahidlik törəyir.
– Müxtəlifliyin ləğvindən Heçlik törəyir.

***

***İkinci İnqilab:*** Əski iflasa qarşı – Yeni iflas.

***

***İnqilabi gerçəklik:*** İnqilab Dövlət Çarı, Dövlət Mülkədarı, kapitalisti yaratdı, əməkçini mülkiyyətdən məhrum etdi, cəmiyyəti ruhsuz qoydu.

***

***Yol – Yolsuzluq:*** Sosializmi sosializmlə dəyişmək olmaz; kommunist partiyasının sosializmi dəyişmək iqtidarı yoxdur, o, sosializmi yaşatmaq üçün yaradılıb.

Yaşayan sosializmdə köklü dəyişikliklər süni, qondarma, eybəcər, yalançı səciyyə daşıyacaq.

Marksizm Təlimi, Sosializm Quruluşu, Partiya Təşkilatı – inkişafın qarşısında duran əsas qüvvələrdir və onlar aradan qaldırılmayınca inqilabi sıçrayış iddiası – uydurmadan başqa bir şey deyil.

Sosializmin kapitalizmlə şərikli saldığı bağda çürük meyvə bitməlidir yalnız.

***Sosializm kapitalizmin alternativi ola bilmədi, deməli, əsil alternativi axtarıb tapmaq lazımdır.***

***

***İmkansızlıq:*** Sosializmin Ehkam, Zor, Təşkilat potensiyasından başqa heç bir potensiyası yoxdur.

***

***Milli yoxluq:*** Milli iqtisadiyyat yoxdur.
Milli mədəniyyət yoxdur.
Milli mənəviyyat yoxdur.
***Millətdən danışırlar milləti yox eləyənlər...***

***

***Mərhələlər:*** İnqilabdan əvvəlki ***millət.***
İnqilabdan sonrakı ***beynəlmillət.***

***

***Aqibət: Özgələrə paylandıq, özgələrdən pay aldıq.***

***

***Hadisə:*** SSRİ adlanan möhtəşəm qəfəs.

***

***Təzə Dil Siyasəti:*** Öz dilini öyrən ki, Özgələşməyin bilinməsin!

***

***Qabaqcıl Ölüm: Millətlərin bir-birinə qovuşması*** – yəni "kiçik" xalqların "böyük" xalqın içərisində əriyib yox olması.

***

***Olan – olacaq:*** Köhnə sosializmə söyürlər, təzə sosializmə də söyəcəklər...

***

***Fərq:*** Xalqlaşma – Haqlaşma.
Kütlələşmə – Kütləşmə.

***

***Hadisə:*** Sosializm daxilində kapitalizm.
Sosializmə xidmət edən antisosializm.

***

***Təzad:*** Milli Şüur – Antimilli Şüursuzluq.

***

***Qabaqcıl xadim:*** Xalq Ağası, Antixalq Nökəri.

***

***Qabaqcıl "Xalqsevərlik":*** "Xalqı sevən – Antixalqı da sevməlidir".

***

***İki ölüm:*** Ölüm Fərdiyyətə Düşməndir.
Sosializm Fərdiyyətə Düşməndir.
***Sosialist Adamı iki dəfə ölür.***

***

***Yalanlar:*** Rəsmi Həqiqət Yalanı.
Rəsmi Dostluq Yalanı.
Rəsmi Doğmalıq Yalanı.

***

***Təzə Üsul:*** Rəsmiyyəti Qeyri-Rəsmiyyət biçimində yeritmək.

***

***Sosializm:*** Fövqəlbuxov.

***

***Təhlükə:*** Hamılaşma təcavüzkar xudbinlik yaradır.

***

***Hadisə:*** Geniş Dünyanı Adamın başına dar eləyən cəmiyyət.

***

***Hal:*** İctimailəşmə kimsəsizliyi.

***

***Vəziyyət:*** Son sosialist nitqlərində "Yaşasın kapitalizm!" sonluğu çatışmır.

***

***Dünya ictimaiyyəti:*** Dünyaya uzaqdan boylananlar.

***

***Dünya miqyası:*** Zərdüşt miqyasından aşağı, Babək miqyasından aşağı, Nəsimi miqyasından aşağı, Füzuli miqyasından aşağı, Muğam miqyasından aşağı, Saz miqyasından aşağı.

***

***Dünya Qayğısı:*** Müstəqil Azərbaycan yoxdur, bu səbəbdən də Dünyada Cənubi Azərbaycan problemi yoxdur.

***

***Qabaqcıl "vətənpərvərlik":*** Qoltuqda qalmaq ləyaqəti.

***

***Qabaqcıl "milli qürur":*** Qoltuğa sığınmaq qisməti.

***

***Millətçilik:*** Qoltuqdan çıxmaq "cinayəti".

***

***Beynəlmiləlçilik:*** Könüllü qoltuqlanma.

***

***Xalqlar Dostluğu:*** Qoltuqaltı əməkdaşlıq.

***

***Qabaqcıl ölkələr:*** Zor kölgələri.

***

***Qabaqcıl partiyalar:*** Zor əsgərləri.

***

***Qabaqcıl cəmiyyət:*** Zor səlahiyyəti.

***

***İctimai Mülkiyyət:*** Zor sərvəti.

***

***Şər "xeyri":*** Xalqın "Xeyrinə" Xalqın başını kəsmək.

***

***Yalana qarşı:*** Dəyişən Həqiqət Yalandır!

***

***Cəmiyyət – İnsan:*** Cəmiyyət İnsanı yaratmır, yetirmir, İnsana yiyələnir.

***

***Vəziyyət:*** Marks kapitalizm iqtisadiyyatının xilasını sosializmdə görürdü. Marksistlər sosializm iqtisadiyyatını kapitalizm üsuluyla müalicə eləyirlər.

***

***Dinc yanaşı ölmək siyasəti:***
Kapitalizmin ömrü uzananda sosializmin ömrü qısalır.
Sosializmin ömrü uzananda kapitalizmin ömrü qısalır.

***

***Sosializm aparteidi:*** Beynəlmiləlçilik.

*Qar Ayı, 7-ci il.*
*Od Ayı, 9-cu il.*

# İçərisi

**Önsöz ..........................................................................5**

**İnsanlaşmaq...................................................................12**

**Təzadlar.........................................................................13**

**Rəmzlər..........................................................................52**

**Mənalar.........................................................................128**

[illegible],
[illegible]!

## [illegible]

### ([illegible])

[illegible] 30-[illegible] 2008-2009-[illegible] 45 [illegible] 7 [illegible].

[illegible]

[illegible]

[illegible]

[illegible]!
[illegible]!

*[illegible]*
*[illegible]*

*8 [illegible], 30-[illegible].*

Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim
Asif Ataya (İnam Ataya) Ali Səcdəylə!

## MÜTLƏQƏ İNAM RUHANİYYATI

### (Qutsal Bəlgə)

Türkün (ilk) Ruhaniyyat Ocağı – Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağı 30-ildə (Miladın 2008-2009-cu ili) Asif Ata İrsi'ndən özünün, ən uca ümumbəşəri ruhani dəyər kimi, tapındığı hissəni "On Qutsal Bitiq və üç Yan Bitiq (qısaca Onluq)" adı altında nəşrə hazırladı. "Onluq" Atamızın 45 Müqəddəs Kitabını və 7 Müqəddəs Kəlamını özündə birləşdirir.

Bitiqlərin təsnifatı və sistemləşdirilməsi içlərindəki Kitabların Mütləqə İnam baxışında yerinə görə aparılmışdır; hər Bitiq Ata Təlimindəki məna ifadəsinə əsasən adlandırılmış, Ata Mətnlərinin bütövlüyü, ilkinliyi, məzmunu, dili, üslubu, cümlə quruluşu olduğu kimi saxlanılmışdır. Asif Ata İrsinə yönəlik bu prinsip həmişə və hər yerdə gözlənilməlidir. Bitiqlərin indi təqdim olunan quruluşu, biçimi, adları, sayı da toxunulmazdır.

Onluq (On Qutsal Bitiq) – hazırkı Mütləqə İnam Ocağı tərəfindən Mütləqə İnam Ruhaniyyatı – Ata Müqəddəsatı sayılır; Yan Bitiqlər (Əlavə Cildlər) – "Qutsal (Müqəddəs) İrs"ə daxil edilir, məzmunlarına görə Onluğa daxil edilmirlər, çünki Onluq Mütləqə İnam Dünyabaxışının Cövhərini və Meyarını birbaşa, Yan Bitiqlər isə onun ayrı-ayrı məqamlarını və dolayısı ilə ifadə edirlər. Bütövlükdə Ata Dilindən, Ata Qələmindən nə çıxıbsa, Mütləqə İnam Dünyabaxışının Kutsal İrsi sayılır, ancaq Onluğa daxil edilmir.

İrsin yiyəsi, qoruyucusu, sorumlusu Asif Atanın Mütləqə İnam Ocağıdır. İrslə bağlı bütün hüquqlar bu Ocağa məxsusdur.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

**Soylu Atalı**
***Mütləqə İnam Ocağının Yükümlüsü***
*8 Köçəri Ayı, 30-il. Atakənd.*

Türkün (İlk) Ruhaniyyat Ocağı –
Asif Atanın (İnam Atanın)
Mütləqə İnam Ocağı

ASİF ATA
(Əfəndiyev Asif Qasım oğlu)
On Qutsal Bitiq'in
Üçüncü Bitiqi: Anlam İnsaniliyi
(Türk dilində)

Bitiq Ocaq Evladlarının (Bilən, Ulusəs, Göytəkin, Soylu Atalıların) yatırımları ilə basılmışdır.

Bağlantı ünvanımız: www.asifataocagi.com
soyluatali@mail.ru
nurtekin_atali@mail.ru

Tel: (051)585-56-97
(050) 527-70-50

*Qeyd üçün*

"Elm və təhsil" nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

Çapa imzalanmış 09.02.2020
Şərti çap vərəqi 16,5. Sifariş № 516
Kağız formatı 60x84 1/16. Tiraj 100

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4